www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7-8 mart 2015-ci il Şənbə № 51 (6079) Qiyməti 40 qəpik

**Xəbər**

**Ermənilər mövqelərimizə soxulmaq istədilər; itki verib geri çəkildilər**

yazısı səh.2-də

**Gündəm**

**Kəlbəcərli girovların işində mühüm gəlişmə**



Məsələni Avropa Şurası nəzarətə götürdü; AŞPA-nın Sədarət Komitəsinin qəbul etdiyi qərarda soydaşlarımızın məhkəmə hüququ ilə bağlı mühüm tövsiyə yer alıb

yazısı səh.11-də

**Müsavat MŞ-nın aksiyasında iştirak məsələsini müzakirə etməyib**

yazısı səh.3-də

**"Yeni Müsavat" qəzetində 8 mart bir başqa qutlandı...**

yazısı səh.4-də

**Apelyasiya Məhkəməsi Taleh Xasməmmədovu həbsdə saxladı**

yazısı səh.2-də

**Qadınlar bayramı haqda ilginc həqiqətlər**

yazısı səh.4-də

**Müxalifət liderləri Avropa Oyunlarının açılışında iştirak edəcəkmi?**

yazısı səh.6-da

**Ömürlük həbs almış "Qarabağ partizanı"nın ürək dağlayan hekayəti**

yazısı səh.15-də

**İsa Qəmbərin rəhbərlik etdiyi MSDM-in planları**

yazısı səh.6-da

**Əməkdaşımız Suriyadakı savaşın görünməyən tərəflərindən yazır - Dəməşqdən 2-ci reportaj**

yazısı səh.10-da

*Qubad İbadoğlu:*

**"Manatın ucuzlaşmasından büdcənin uduşu ikiqatdır"**

yazısı səh.2-də

**İranın nazir müavini "Khazar İslands"da oldu**

yazısı səh.5-də

## Ankara ilə intensivləşən ortaq hərbi təlimlərdə yay hədəfi

# AVROPA OYUNLARINA ERMƏNİ HƏDƏSİNƏ QARŞI TÜRKİYƏ TƏMİNATI

Beynəlxalq tədbir ərəfəsində təmas xəttində artan təxribatlar iki qardaş ölkəni birgə, sinxron və effektli preventiv addımlar atmaq zorunda qoyur; yarış iştirakçılarının təhlükəsizliyi müharibə risklərini ən azı, bir neçə ay "zəncirdə saxlamaq" zərurəti yaradır...



yazısı səh.9-da

# Dövlət sirrini yayanlara qarşı cəzalar sərtləşdirildi

Parlamentdə hesabat verən ombudsmana məhbuslarla bağlı çağırış edildi; **Qüdrət Həsənquliyev:** "Çalışmalıyıq ki, Avropa Oyunları ərəfəsində əsaslı-əsassız həbs edilənlərin azadlığına nail olaq ki..."

yazısı səh.12-də



**Abbas Abbasovun Rusiyadan "qidalanan" karyerası...**

yazısı səh.8-də



**Aslan Aslanovun Şəmkirdəki məşhur stadionunu sökürlər**

yazısı səh.13-də



**Nazir 10-a yaxın rəhbər şəxsi işdən çıxardı**

yazısı səh.2-də

**7-8 mart 2015**



## Prezident Roma Papası ilə görüşdü

**Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Vatikanda Roma papası Fransisklə görüşüblər.**

Vatikan radiosunun verdiyi məlumata görə, bu barədə Roma papasının mətbuat xidmətinin yaydığı kommünikedə deyilir.

Görüşdə dinlərarası dialoq və münaqişələrin həlli ilə bağlı danışıqlar prosesi əsas müzakirə mövzuları olub.

Daha sonra prezident İlham Əliyev Vatikanın dövlət katibi, kardinal Petro Parolin və onun dövlətlərlə münasibətlər üzrə müavini Antuan Kamilleri ilə görüşüb. Müzakirə zamanı ikitərəfli münasibətlərin inkişafından razılıq ifadə edilib.

Xüsusilə katolik icmasını vəziyyəti ilə bağlı məsələlər, dinlərarası və mədəniyyətlərarası dialoqun təbliğinə yönəlmiş təşəbbüslər diqqət mərkəzində olub.

Görüşdə regional və beynəlxalq vəziyyət də müzakirə edilib (APA).

## İstifadəsiz torpaqlara əlavə vergi tətbiq olunacaq

**"Prezidentin sərəncamından sonra biz istifadəsiz torpaqların monitorinqinə başlamışıq. Hal-hazırda istifadəsiz torpaqların sahəsi müəyyənləşdirilir. Onun səbəbləri də aydınlaşdırıldıqdan sonra tərəfimizdən aidiyyatı təkliflər təqdim olunacaq".**

"APA-Economics"ə verilən məlumata görə, bunu kənd təsərrüfatı naziri Heydər Əsədov "Aqrolizinq" ASC-nin 2014-cü ildəki fəaliyyətinə həsr olunmuş müşavirədə deyib.

H. Əsədovun sözlərinə görə, istifadəsiz torpaqlara əlavə vergilər tətbiq olunacaq. Nazirin sözlərinə görə, dünya praktikasında da tətbiq olunan metodların birinin tətbiq olunması nəzərdə tutulur.

"Burada monitorinq müəyyən müddət aparır, ona görə ki torpaqdan həmin anda istifadə edilməməsi onun istifadəsiz qalması demək deyil. Çünki elmi araşdırmalara görə, torpaqların hər il 60-66%-nin istifadə olunsa və qalanları dincdə olsa daha səmərəlidir. Ona görə də əvvəlcə monitorinqlər vasitəsilə sahələr müəyyənləşdirmək, daha sonra səbəblər aydınlaşdırılmalı və buna nəzərən təkliflərimiz konkretləşdirilməlidir" - , deyə H. Əsədov bildirib.

## Türkiyənin 200 vətəndaşı Azərbaycandan şikayətçidir

### **Fazil Mustafa:** "Azərbaycana mal gətirən firmaların böyük əksəriyyəti iflasa uğrayıb"

**Türkiyənin 200-ə yaxın vətəndaşı Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafaya müraciət edib. Onlar bildiriblər ki, karqo (yük) daşıması ilə Azərbaycanda çətinliklərlə üzləşiblər. Bu barədə F.Mustafa dünən parlamentdəki çıxışında da bildirib və qardaş ölkənin vətəndaşlarının problemlərinin aradan qaldırılması üçün parlament rəhbərliyinin müdaxiləsini istəyib.**

"Yeni Müsavat"a açıqlamasında BQP sədri dedi ki, yük daşınmalarda müəyyən məhdudlaşdırmalar, inhisarçılıq hərəkətləri Türkiyədən Azərbaycana yük daşınmasını həyata keçirən şirkətlərə problemlər yaradır: "Onlar bizim İstanbuldakı Baş Konsulluğumuz qarşısında etiraz aksiyası da keçiriblər, CNN-Türk kanalı və digər media orqanlarında reportajlar verilib, youtube-də yerləşdirilib. Onlar deyirlər ki, məhdudlaşdırma nəticəsində Azərbaycana mal gətirən firmaların böyük əksəriyyəti iflasa uğrayıb və 10 minə yaxın işçisi işsiz qalma təhlükəsi ilə üzləşib". F.Mustafa dedi ki, həmin firmalar mebeldən tutmuş sənaye mallarına qədər çox mallar daşıyırlar: "Təbii ki, Azərbaycan və Türkiyə tərəfi elə etməlidir ki, iki ölkə arasındakı iqtisadi münasibətlərə ziyan dəyməsin, həm də sahibkarlar zərərə düşməsin. Çalışmaq lazımdır ki, bu məsələlər qanunvericiliklə tənzimlənsin". F.Mustafa əlavə etdi ki, yenidən viza məsələsinin də üzərinə ehtiyac var: "Bu məsələdən Türkiyədə də çox ciddi şəkildə Azərbaycan əleyhinə istifadə olunur. Azərbaycan tərəfinin günahından vizanın qaldırılmaması həmişə diqqətə çatdırılır. Həqiqətən də qəribədir ki, biz MDB ölkələri ilə vizasız gediş-gəliş məsələlərini həll etmişik, Türkiyə ilə bağlı məsələdə isə "qardaş ölkə" deyirik, amma qardaşlıq prinspinə uyğun olmayan vəziyyət yaranır. Ona görə də Türkiyədə bizim əleyhimizə bu kimi mövqelərin genişlənməsinin qarşısını almaq üçün müəyyən tədbirlərin görülməsi vacibdir. Həm sahibkarlığın sıxışdırılmasına qarşı müəyyən addımlar atılmalıdır, müvafiq qurumlar bu işi görməlidir, həm də artıq Azərbaycan tərəfininin də vizanı qaldırmasına ehtiyac var ki, insanlar gediş-gediş gəlişdə əziyyətlə qarşılaşmasınlar".

❑ **E.PAŞASOY**

## Nazir 10-a yaxın rəhbər şəxsi işdən çıxardı

**"Aqrolizinq" ASC-nin 2014-cü ildəki fəaliyyətinə həsr olunan müşavirədə kənd təsərrüfatı naziri Heydər Əsədov fəaliyyətində nöqsanlara yol verən cəmiyyətin bir neçə əməkdaşını cəzalandırıb.**

Nazirlikdən APA-ya verilən məlumata görə, nazir "Aqrolizinq" ASC-nin İdarə Heyətinin sədri Elşən Məmmədova xəbərdarlıq, İdarə Heyətinin sədr müavini Aydın Əzizova şiddətli töhmət elan edib.

Bununla yanaşı, cəmiyyətin aqrotexniki xidmət və təchizatın təşkili şöbəsinin müdiri və səkkiz rayonun aqroservis filiallarının rəhbəri tutduğu vəzifədən azad olunub.

Altı rayonun aqroservis filiallarının rəhbərləri barədə müvafiq araşdırma aparılandan sonra daha ciddi tədbir görüləcək.

# Apelyasiya Məhkəməsi Taleh Xasməmmədovu həbsdə saxladı

**Şəki Apelyasiya Məhkəməsində hakim İmamverdi Şükürovun sədrliyi ilə hüquq müdafiəçisi Taleh Xasməmmədovun Göyçay Rayon Məhkəməsinin həbs qətimkan tədbirindən verilmiş apelyasiya şikayəti üzrə məhkəmə prosesi keçirilib. Bu barədə musavat.com-a keçmiş siyasi məhbus, müstəqil jurnalist Fuad Hüseynov məlumat verib:**

"Məhkəmə iclasında iştirak edən Taleh Xasməmmədov və vəkili Nəvaid Abbasovun əsaslı çıxışları dinlənilsə də apelyasiya şikayətinin təmin olunmamasına dair qərar çıxarılıb. Baxmayaraq ki, məhkəməyə Taleh Xasməmmədovun ağır xəstə olması barədə sənədlər təqdim edilib. Məhkəmə iclası qapalı keçirilib".



Taleh Xasməmmədov

F.Hüseynov qeyd edib ki, hüquq müdafiəçisi Taleh Xasməmmədov tənqidi çıxışları və Göyçay rayonundakı olayları ictimailəşdirdiyi üçün icra başçısı Mübariz Ağayevin qəzəbinə tuş gəlib və 24.02.2015-ci il tarixdə şərlənərək həbs edilib: "Taleh Xasməmmədov ciddi xəstəlikdən əziyyət çəkir, onun həbsdə saxlanılması sağlamlığı üçün çox təhlükəlidir. Onun ev dustaqlığına buraxılmasına köməklik göstərilməsi üçün ailə üzvləri tərəfindən İşçi Qrupuna müraciət olunub".



## Asim Mollazadə Latın Amerikasına səfər edib

**Demokratik İslahatlar Partiyasının sədri, deputat Asim Mollazadənin Azərbaycan nümayəndə heyəti ilə birlikdə Latın Amerikası ölkələrinə səfəri başlayıb. Millət vəkili səfər zamanı Paraqvay parlamentinin Azərbaycanla dostluq qrupunun sədri və üzvləri, Paraqvay Senatının sədri və digər senatorlarla, həmçinin, Paraqvay parlamentinin Xarici Əlaqələr Komitəsinin üzvlərilə görüşüb.**

Bu görüşlərdə Azərbaycan-Paraqvay münasibətləri, parlamentlərarası əlaqələr müzakirə edilib. A.Mollazadə həm Paraqvay, həm də Azərbaycan parlamentlərində qarşılıqlı dostluq qruplarının yaradılmasının ölkələrimiz arasında dostluq və əməkdaşlığın möhkəmlənməsində əvəzsiz rol oynadığının qeyd edib. O, bildirib ki, Azərbaycan Paraqvay və digər Latın Amerikası ölkələrilə ticarət, mədəniyyət və idman sahəsində ciddi əməkdaşlıq edir. DİP sədri bu əməkdaşlığın daha da genişlənməsində və siyasi əməkdaşlığa çevrilməsində ölkəmizin maraqlı olduğunu qeyd edib. Vurğulayıb ki, Azərbaycanda sahibkarlıq üçün əlverişli imkanlar var və bu, Latın Amerikasından olan sahibkarlar üçün cazibədar ola bilər. A.Mollazadə Azərbaycan ərazilərinin 20%-nin Ermənistan tərəfindən işğal olunduğunu, bu işğalın 25 ildir davam etdiyini bildirib. O deyib ki, Sovet İttifaqı dağıldıqdan sonra Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən qəsb edilməsi nəticəsində 1 milyona yaxın insan doğma yurd-yuvalarından məcburi köçkün düşüb. Deputat Azərbaycan ərazilərinin işğalının başa çatması, bu işğallar zamanı törədilmiş hərbi cinayətlərlə bağlı beynəlxalq hüququn və ədalətin bərpası üçün paraqvaylı həmkarlarından dəstək istəyib. Paraqvay mediasında sözügedən səfər və Azərbaycan haqqında geniş məlumatlar yer alıb. A.Mollazadə Paraqvaydan sonra Uruqvay, Argentina və Çiliyə səfər edəcək.

❑ **Vüqar MURAD**



## Ermənilər itki verib geri çəkiliblər - bir hərbçimiz yaralanıb

**Martın 6-na keçən gecə Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-təxribat qrupu Ağdərə-Tərtər istiqamətində qoşunların təmas xəttində mövqelərimizə basqın etməyə cəhd göstərib.**

APA-nın Müdafiə Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, Azərbaycan Silahlı Qüvvələrinin bölmələrinin sayıqlığı, görülən qabaqlayıcı tədbirlər və atəş gücü vasitəsilə düşmənə endirilən ağır zərbədən sonra itki verən işğalçılar silah və sursatı ataraq geri qaçmağa məcbur ediliblər.

Döyüşdə bir hərbi qulluqçumuz çavuş Zahidov Dəyanət Mehman oğlu sağ əlindən yüngül yaralanıb.

## Xədicə İsmayılın həbs müddəti daha 2 ay uzadıldı

**Martın 6-da Nəsimi Rayon Məhkəməsində həbsdə olan jurnalist Xədicə İsmayılın həbs müddətinin uzadılması ilə bağlı proses keçirilib. Məhkəmə Xədicə İsmayılın həbs müddətini daha 2 ay uzadılması ilə bağlı qərar çıxarıb. X.İsmayılın vəkili Fariz Namazlının bildirdiyinə görə, bildirib ki, məhkəmənin vaxtı haqqında vəkillərə əvvəlcədən məlumat verilməyib: lSəhər təcridxanaya getmişdim ki, Xədicə ilə görüşüm. Dedilər ki, məhkəməyə aparılıb.**

Digər vəkil Fəxrəddin Mehdiyevə də məhkəməyə bir neçə saat qalmış məlumat veriblər. Ağır Cinayətlərə dair İstintaq İdarəsinin təqdimatı əsasında məhkəmə keçirildi. İdarənin təqdimatında həbsin uzadılmasının səbəbləri göstərilmişdi. Əsas bu idi ki, Xədicə İsmayıl azadlıqda qalarsa ölkəni tərk edib istintaqdan yayına bilər. Digər səbəb bunu göstərdilər ki, guya azadlıqda qalarsa, proses içtirakçılarına təsir göstərə bilər. Xədicə İsmayıl çıxışında bildirdi ki, ona qarşı bütün ittihamlar saxtadır. Təqdimatın ləğv edilməsi ilə bağlı vəsatət qaldırsaq da təmin olunmadı. Xədicə İsmayılın həbs müddəti mayın 24-dək uzadıldı».

Xədicə İsmayıl ötən ili dekabrın 5-də özünüöldürmə həddinə çatdırma ittihamı ilə həbs edilib. Yanvarın 27-də onun həbs müddəti 2 ay daha uzadılmışdı. Həmin müddət martın 27-də bitməli idi. Fevralın 13-də Xədicə İsmayıla qarşı mənimsəmə, vergi ödəməkdən yayınma, vəzifə səlahiyyətlərindən sui-istifadə və qanunsuz sahibkarlıq maddələri ilə əlavə ittihamlar elan olunub.

Son ittihamlar QHT-lərə açılan cinayət işində Azadlıq Radiosunun ofisində aparılan yoxlamalarla bağlıdır. İttihamlar təsdiqlənərsə, jurnalisti 12 ilədək həbs cəzası gözləyir. Xədicə İsmayıl ona qarşı irəli sürülən ittihamları rədd edib. Azərbaycan hakimiyyəti isə deyir ki, Azərbaycanda heç kim siyasi, jurnalist fəaliyyətinə görə təqib və həbs edilmir.

❑ **Sevinc**



## Rövnəq Abdullayevdən stadionun çökmə xəbərinə reaksiya

**"Dövlət komissiyası Bakı Olimpiya Stadionunun təhvil-təslim aktını imzalayıb". Report.az xəbər verir ki, bu barədə jurnalistlərə AFFA prezidenti Rövnəq Abdullayev açıqlama verib. O bildirib ki, stadion Gənclər və İdman Nazirliyinə ən yüksək standartlara uyğun vəziyyətdə təhvil verilib. R.Abdullayev arenanın çökdüyü barədə xəbərləri təkzib edib:**

"Hamısı boş şeydir, şayiədir. Kimlərsə Bakıda keçiriləcək I Avropa Oyunlarına kölgə salmaq istəyir. Mən də bu şayiələri eşitdim. Bu, Azərbaycanda təşkil olunacaq nüfuzlu yarışa növbəti dəfə qara yaxmaq cəhdidir". Qeyd edək ki, Bakı Olimpiya Stadionunda ilk nüfuzlu tədbir iyunun 12-də keçiriləcək. Həmin gün I Avropa Oyunlarının açılış mərasimi təşkil olunacaq.

## Bakıda baş redaktor tutuldu

**Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə daxil olmuş əməliyyat məlumatı əsasında 2015-ci il martın 4-də həyata keçirilən tədbirlərlə "Asiya" İnformasiya Agentliyinin baş redaktoru Cəfər Cəfərov paytaxtın Nizami rayonu ərazisində Masallı rayon sakini Sakit Məcidovdan hədə-qorxu ilə tələb etdiyi külli miqdarda ABŞ dollarını alarkən yaxalanıb.**

DİN və Baş Prokurorluğun mətbuat xidmətlərindən musavat.com-a verilən məlumata görə, ilkin araşdırmalarla müəyyən edilib ki, C.Cəfərov tanışları Sevinc Məmmədsalayeva, Fatmaxanım Qasımova və şəxsiyyətləri istintaqla araşdırılan qeyriləri ilə qabaqcadan əlbir olub vətəndaşlardan şantaj yolu ilə pul tələb ediblər. Onlar bu niyyətlə paytaxtın Nizami rayonu ərazisindəki restoranlardan birində zərərçəkənlə görüşmüşlər. Onda qadınlarla bir yerdə olarkən gizli çəkilmiş fotoşəkillərinin və səs yazısının olduğunu bildirən dırnaqarası baş redaktor rüsvayedici materialları kütləvi informasiya vasitələrində yayacağı hədəsi ilə 5000 manat tələb edib.

Faktla bağlı Baş İdarənin İstintaq şöbəsində CM-nin 182.2.1 və 182.2.4-cü maddələri (hədə-qorxu ilə tələb etmə) ilə cinayət işi başlanılıb və onlar həbs ediliblər.



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Həm tanımaq, həm də tanımamaq

**Əgər biri deyirsə ki, mən filankəsi tanıyıram, bu, heç də o demək deyil ki, onu şəxsən tanıyır. Ola bilsin ki, o, həmin adamı mətbuatdan, kimlərinsə söhbətindən, bir məhlədə yaşadıqları üçün gendən və s. tanıyır. Yəni həmin adamın bu birisi adamın heç mövcudluğundan xəbəri olmaz, amma bayaq dediyim kimi onu qiyabi olaraq tanıya bilər. Məsələn, biri desə ki, Cenifer Lopezi yaxşı tanıyır, o, heç də yalan danışmış olmaz. O, bunu deyəndə bu gözəl xanımın yaradıcılığını, onun haqqında digər məlumatları yaxşı bildiyini nəzərdə tutmuş olur. Bu halda Cenifer xanım onu "yaxşı tanıyan" həmin adamın mövcudluğundan xəbəri olmur. Yox, əgər adam desə ki, filankəsi yaxşı tanıyıram, bir ton çörək (şişirtməyə baxın ha!) yemişik, bomba oğlandır, deməli, tərəflər bir-birilərini şəxsən tanıyırlar. Kimin bomba oğlan, kiminsə "krisa" və ya işverən olması isə tərəflərin sırf subyektiv meyarlarının nəticəsidir. Dəfələrlə olub ki, mənim yaxşı adam kimi tanıdığım həmsöhbətim zay adam kimi qiymətləndirir və ya əksinə, hətta elə vəziyyət yaranar ki, təsadüfən rastlaşmış iki nəfər diqqətlə bir-birilərinin üzünə baxaraq deyirlər: "Deyəsən, mən sizi tanıyıram, üzünüz tanış gəlir". Sonra da ikisi də beyinlərinin ən dərindəki qırışlarını qurdalamağa başlayırlar və birdən sevinclə "tapdım" deyə qışqırırlar. Məlum olur ki, on il bundan qabaq Bakı-Moskva qatarında yol yoldaşı olublar və ya hansısa ortaq tanışlarının toyunda bir masa arxasında yanaşı oturublarmış və həmin axşam yaxşıca vurublarmış.**

***

Çağdaş dünyada tanımaq məsələsi təkcə məişət məzmunu kəsb etmir. Biz qondarma Qarabağ Respublikasını tanımırıq. Ona görə ki, bu qondarma dövlət dünyada mövcud olan bütün norma və qanunlara görə qanunsuzdur, üstəlik də bizim ölkənin suverenliyini pozur. Çox doğru edib onu tanımırıq. Tanısaq, haqsızlıq, qanunsuzluq və məğlubiyyətlə barışmış olarıq. De-fakto belə bir qondarma dövlətin mövcudluğunu qəbul edirik və könülsüz də olsa onunla, daha doğrusu faktın özü ilə barışmalı oluruq. Yəni acı reallıq ondan ibarətdir ki, bu qondarma respublikanın işğal altında saxladığı ərazilər Azərbaycan Respublikasının suverenliyindən və idarəçiliyindən kənardadır. O əraziləri quldur ermənilər idarə edirlər və orada həmin quldurların müəyyən etdikləri qanunlar işləyir. İndi bizlərdən kimsə durub desə ki, mövcud acı reallığı nəzərə alaraq DQR-i tanıyaq, onu linç etmərikmi? Edərik, həm də düz edərik! Deməli, siyasi tanımaqla məişət tanımaqlığının yerlə-göy qədər fərq var.

Bu yaxınlarda qəzetimizdə Qüdrət Həsənquliyevlə geniş müsahibə getmişdi. O, müxalifəti iqtidarı tanımamaqda qınamışdı. Guya ki, bu, prinsipsizlikmiş, konstruktivlik deyilmiş. Sözsüz ki, söhbət siyasi tanımaqdan gedir. Məgər bu ən ədalətli, ən doğru, ən ləyaqətli və ən prinsipial mövqe deyil? Bütün müxalifət faktiki olaraq indiki iqtidarı tanıyır. Müxalifətçilər sonuncu nəfərinədək bu iqtidarın müəyyən etdiyi qərarları, qanunları yerinə yetirir, onun idarəçiliyinə tabe olur. Məsələn, hansısa müxalifətçini vergini ödəməkdən imtina etməsinin, yol hərəkəti qaydalarına əməl etməkdən boyun qaçırmasının, hərbi çağırışdan yayınmasının, sərhədi keçərkən pasportu göstərməməsinin və s. şahidi olubsunuzmu? Halbuki bütün bu qaydaları qanunsuz, legitim olmayan hakimiyyət müəyyənləşdirib. Faktiki reallığı qəbul etməyi heç bir müxalifətçi ağlına belə gətirmir. Əgər müxalifət bu iqtidarı siyasi anlamda yuridik olaraq tanısaydı, bu onun simasızlığını və prinsipsizliyini göstərərdi. Belə tanıma o deməkdir ki, müxalifət təmiz və ədalətli yarışmada məğlub olduğunu qəbul, seçkilərin saxtalaşdırılmasını inkar edir. Ağlı və vicdanı yerində olan bu işə qol qoyarmı? Əlbəttə Kİ, yox!

**Əgər Qüdrət bəy müxalifətin iqtidarı tanımamasından danışarkən, bərdəli bir heyranın Cenifer Lopezi tanıması kimi tanımanı nəzərdə tutursa, onda burada da yanlışlıq var. Çünki müxalifət bu iqtidarı yaxşı tanıyır. Məhz ona görə də ona qarşı barışmaz mübarizə aparır, onu Azərbaycan xalqının fəlakəti sayır. Bayaq dediyim kimi onu çox yaxşı tanıyır. Elə onu yaxşı tanımağındandır ki, həm də onu tanımır.**

❑ **Tofiq YAQUBLU**

# Leyla Yunus niyə azadlığa buraxılmır?

## Hüquq müdafiəçisinin həbsindən 7 ay ötdü; politoloq hesab edir ki, SDİ rəhbərinin həbsdə saxlanılması Azərbaycan üçün baş ağrısıdır

**Həbsdəki Sülh və Demokratiya İnstitutunun (SDİ) direktoru Leyla Yunusun həbsindən 7 ay ötdü. Hüquq müdafiəçisinin həbs müddəti daha 5 ay uzadılıb. Bu o, deməkdir ki, Leyla Yunusun məhkəməsi həbsinin 1 illiyində başlaya bilər.**

Hazırda şəkər xəstəliyindən əziyyət çəkən SDİ rəhbərinin səhhətində ciddi problemlər var. Vəkillərinin dediyinə görə, onun sağlamlığı həyatı baxımından təhlükədədir. Bütün bunlara baxmayaraq, hüquq müdafiəçisinin azadlığa buraxılması istiqamətində heç bir addım atılmır.

Həbsdə olduğu son 7 ay ərzində Fransa və Almaniya prezidentləri də daxil olmaqla, dünyanın siyasi liderləri onun müdafiəsinə qalxıblar. Avropa Parlamenti Leyla Yunusun azad olunması tələbi ilə qətnamə qəbul edib. Dövlət Departamenti və ABŞ Konqresi Helsinki Komissiyası bəyanatla çıxış edərək, narahatlıqlarını bildiriblər.

ABŞ-da mühacirətdə yaşayan Arif Yunusun qardaşı Ramiz Yunus yaxınlarının həbsdə saxlanılması ilə bağlı Barak Obamaya müraciət edib. O, yaxınlarının azad olunması üçün ABŞ prezidentindən kömək istəyib.

**Politoloq Natiq Miri** hesab edir ki, Leyla Yunusun həbsdə saxlanılması Azərbaycan üçün baş ağrısına çevrilib: "Nəzərə almaq lazımdır ki, Leyla Yunus siyasi və vicdan məhbusu olaraq, dünya ictimaiyyəti tərəfindən tanınıb. Onun həbsdə saxlanılması Azərbaycanın daim baş ağrısına çevriləcək. Bu baxımdan prezidentin onu əfv etməsi dövlətimiz üçün xeyirli ola bilər. Leyla Yunus Azərbaycan dövləti üçün təhlükə törədəcək biri deyil. O, hakimiyyəti çox ciddi tənqid edirdi. Təbii ki, buna əsasları var idi. Ola bilsin ki, onun fəaliyyəti hakimiyyətdəkilərin bəzilərinin xoşuna gəlmirdi. Onun həbsdə keçən hər günü ölkəmizə problemlər yaradır".



Leyla Yunus

**Politoloq bu cür həbslərin Qarabağ probleminin həllində də maneə yaratdığını söylədi:** "Hətta onu qeyd edim ki, belə həbslər Dağlıq Qarabağ probleminin ədalətli həllində maneə yaradır. Bunu nəzərə almaq lazımdır. Bu gün Qarabağda yaşayan ermənilər üçün Azərbaycan cəlbedici nüvə rolunu oynamalıdır. Cəlbedici dövlət olmağımız üçün, mütləq liberal dəyərlərə hörmət edilməlidir. Demokratik dəyərlərə elə hörmət qoyulmalıdır ki, ermənilər seçim məsələsində Azərbaycana üstünlük versinlər. Avropa timsalında bu cür məsələlər belə həll olunur. Referendumlarda insanlar hansı ölkə cəlbedicidirsə, inkişaf edibsə, insan haqları qorunursa, ona səs verirlər".

Natiq Miri Azərbaycanda barışıq zamanının olduğunu da qeyd etdi: "Regionda çox həssas proseslər gedir. Ölkəmizdə artıq barışıq zamanıdır. Ölkəmiz üçün hansı problemlərin olacağını proqnozlaşdırmaq olmur. Azərbaycanın bütöv cəmiyyət olmasına böyük ehtiyac var. Bunun üçün həbsdə olan bütün siyasi və vicdan məhbuslarının Novruz ərəfəsi azadlığa buraxılması doğru addım olardı. Cəmiyyətə barışıq mesajı ünvanlanardı. Bu da dialoq mühitini gücləndirərdi. Qapılar heç zaman bağlı olmalı deyil. Müxalifət və iqtidar taleyüklü məsələni müzakirə obyektinə çevirməyi bacarmalıdırlar. Nifrət Azərbaycana heç nə qazandıra bilməz. Sevgi hər şeyi qazandıra bilər. Bu günə qədər olanlar dünəndə qalmalı, bu gündən sabaha daşıyacağımız yalnız sevgi olmalıdır. Sevginin də simvolu təbii ki, əfv, bağışlamaq, güzəştə getmək, əl uzatmaqdır".

❑ **Cavanşir ABBASLI**

# Müsavat MŞ-nın aksiyasında iştirak məsələsini müzakirə etməyib

## Pənah Hüseyn isə mitinqə qatılmaq ehtimalının olduğunu bildirdi

**Milli Şura martın 15-i saat 15.00- da "Talana son" şüarı ilə mitinq keçirəcək. Artıq mitinq üçün BŞİH-ə müraciət olunub. Milli Şura bəyan edib ki, bu mitinqin keçirilməsinin əsas səbəbi son günlər iqtisadi vəziyyətin daha da ağırlaşmasıdır. Belə ki, ərzaq məhsullarının qiymətinin artması, manatın qiymətdən düşməsi, Azərbaycan iqtisadiyyatının neftdən asılı vəziyyətə salınması, işsizliyin, yoxsulluğun səviyyəsinin yüksəlməsi və digər problemlər bu mitinqin keçirilməsini zəruri edib. Eyni zamanda siyasi məhbusların azadlığı, seçki islahatlarının aparılması tələbi də irəli sürüləcək.**

Artıq sosial şəbəkələrdə mitinqə çağırışlar edilməkdədir, mitinqlə bağlı facebbokda "event" də yaradılıb və 50000-dən artıq insan mitinqə dəvət olunub.

Qeyd edək ki, Milli Şuranın bir neçə ay əvvəl keçirdiyi mitinqə quruma üzv olmayan Müsavat Partiyasının və AXP-nin rəhbərliyi də qatılmışdı. 15 mart mitinqində bu halın təkrarlanıb-təkrarlanmayacağına gəlincə, Müsavat Partiyasından bildirilib ki, hələ bu məsələ partiyanın Divanında müzakirə edilməyib.

"Azadlıq-2015" seçki blokunun üzvü olan **AXP sədri Pənah Hüseyn** isə bildirdi ki, bu mitinqə ifadə azadlığı kontekstində baxır: "Təşkilatçıların mövqeyi və şüarlarla razı olub-olmamağımızdan asılı olmayaraq biz sərbəst toplaşmaq azadlığının tərəfdarıyıq. Vətəndaşların mitinqdə iştirak sayından asılı olmayaraq buna insanların öz konstitusion hüququndan istifadə etməsi kimi baxırıq. Odur ki, mitinqə razılıq verilməlidir, şərait yaradılmalıdır. Qeyd edilən şüarlar da populyardır və haqlıdır. Cəmiyyətin kəsimləri tərəfindən də bu şüarlar bölüşdürülür. Bizim Xalq Partiyasının və üzvü olduğumuz "Azadlıq-2015" seçki blokunun mövqeyi bundan ibarətdir ki, blokdakı partiyalar və partiyaların üzvləri 15 mart mitinqində iştirak edib-etməməkdə müstəqildirlər. Şəxsən özümün iştirakıma gəlincə, hələ dəqiq bilmirəm həmin gün Bakıda olacağam, yoxsa olmayacağam. Bakıda olsam iştirak etmək ehtimalım var".

**P.Hüseyn mitinqdə kütləvilik say məsələsinin önə çəkilməsinin tərəfdarı deyil:** "Sayından asılı olmayaraq hətta bir qrup insan da sərbəst toplaşmaq hüququndan istifadə edirsə, önəmli olan budur və buna şərait yaratmaqdır".

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 51 (6079) 7 mart 2015







# "Siz olmasaz biz nə edərdik?"

## "Yeni Müsavat" qəzetində 8 mart bayramı bir başqa qutlandı...

**Səhər iclası yenicə başlamışdı baş yazar bu sualı verəndə. Soyuq duş effekti də deyə bilərik buna. "Yeni Müsavat" qəzetinin 8 mart Beynəlxalq Qadınlar Günündən öncəki son iclasında, yəni bu gün sözügedən tarixlə bağlı yazı yenə xanım əməkdaşlardan birinə tapşırılanda... ağla gələn suallardan birini verdi Rauf Arifoğlu. Ardınca güclü cinsin bəzi nümayəndələrinin bir neçə gün öncədən 8 martla bağlı sosial şəbəkədə, evdə-eşikdə apardığı demaqogiya yada salındı. Klara Setkini rəhmətlə andılar, gülüşdülər və sağ olsunlar, xətrimizə dəyməmək üçün mövzunu uzatmadılar.**

Aradan təxminən 1 saat keçəndən sonra isə yenə eyni iclas otağına yığışıb, estetik şəkildə bizi təbrik etdilər. Bu sətirlərin müəllifi olaraq, 14 ildir bu kollektivdə çalışsam da, ilk dəfədir 8 mart bayramının qutlanması mərasimində iştirak edirdim. Elə reportajı da məhz bu səbəbdən özüm yazmaq istədim...

Redaksiyanın hər bir xanım əməkdaşı üçün öncədən alınan güllər, daha bir hədiyyə və çay süfrəsi öz sahiblərini gözləyirdi. Təbrik nitqini isə ənənəvi olaraq R.Arifoğlu söylədi. Elə çıxışını da planlaşdırma iclasındakı replikasını yada salmaqla başladı. Məlum oldu ki, zarafat edirmiş və bu, mövzuya sırf peşəkar yanaşmadan irəli gələn dəqiqləşdirmə imiş. Ardınca isə qadınların həyatda, xüsusən iş yerlərində, "Yeni Müsavat"ın redaksiyasındakı rolunun böyük olmasından danışdı: "Yaxşı ki, bu gün var. İldə bir dəfə də olsun dəyərli xanımları təbrik etmək şansını Klara Setkin bizə verib. Nə yaxşı ki, varsınız. Siz olmasaz biz nə edərdik? Allahdan sonra ikinci yaradan olan bəndələr siz qadınlarsız".



Baş yazar xatırlatdı ki, "Yeni Müsavat"ın həyatında da qadın əməkdaşların rolu olduqca böyükdür. Onun sözlərinə görə, xüsusən 2003-cü ildə onların fədakarlığı, əzmi özünü göstərib. Dünya tarixindəki bir çox savaşların da məhz xanımların sayəsində qələbə qazandığını deyən R.Arifoğlu "bütün gələcəyimizi onlara əmanət verək" sözləri ilə təbrikini yekunlaşdırdı.

**"Bu bayramın Azərbaycan qadınları ilə bağlı tarixçəsini bilən var? Ümumiyyətlə, belə bir tarixçə var?"**

Qəzetimizin danışmanı Pənah Hüseynin də 8 martla bağlı kreativ, bir qədər müxalif fikirləri olsa da, sağ olsun, bizə və bayrama xatir onları söyləmədi. Əvəzində isə dostu R.Arifoğlunun Azərbaycan qadınları ilə bağlı dediyi bütün fikirlərə qatılaraq kollektivdəki qadınları təbrik etdi.

Redaksiyanın xanımları adından bu təbrikə xoş sözlə cavab vermək isə R. Arifoğlunun iclaslarındakı "Həsən, yadındaaa?" zarafatının qəhrəmanı, **stajlı jurnalist Aygün Muradxanlının** öhdəsinə düşdü. A. Muradxanlı da "hər uğurlu kişinin arxasında bir qadın var" məsələni yada salaraq, bu uğurlu kollektivin arxasında qadın faktorunun olduğunu dedi: "Kollektivdəki xanımlar olaraq biz də sizin arxanızdayıq. Verdiyiniz dəyər üçün təşəkkürlər".

**Musavat.com saytının veb redaktoru Xalid Kazımlı** da Azərbaycan xanımlarının hər cür təbriki haqq etdiklərini dedi: "Xalqımızın xanımlarımıza münasibəti ta qədimlərdən həmişə normal və saygılı olub. Bu, hər zaman davam edir. Biz bəlkə də dünyada yeganə xalqıq ki, qız övladı dünyaya gələndə ona Fərəh, Sevinc, Zərrintac kimi adlar qoyuruq. Bizim millət qədər qız övladlarını öz baş tacı edən ikinci millət yoxdur. Xanımlar bizim anamız, bacımız, qızımız, sevgilimiz olduğu üçün biz onların dəyərini ilin bir günündə yox, 365 günündə bilirik, sevirik və əzizləyirik".

Beləcə, tort kəsilir, çay süfrəsi ətrafında daha bir bayram təbriki yekunlaşır. Və bir daha aydınlaşır ki, bu, bəzi kişilərin düşündüyü kimi, qorxulu, gərəksiz, mənasız... bir bayram deyil. 365 günün bir saatını zərif cinsin nümayəndələrinin təbrikinə həsr etmək, onları xoş sözlərlə sevindirmək sadəcə estetikadır. Bayram isə bunun üçün bir bəhanə...

**Bayramınız mübarək, əziz xanımlar!..**

**❑ Sevinc TELMANQIZI ,**
**musavat.com**

# Qadınlar bayramı haqda ilginc həqiqətlər

## 8 martda çinlilər öz xanımlarına balqabaq bişirir, vyetnamlılar isə bacılarını təbrik edir; Bayramın yaradıcısı Klara Setkinin burulğanlı həyatı barədə bilinməyənlər

**Sabah ölkədə Beynəlxalq Qadınlar Günü qeyd ediləcək. Bu münasibətlə məktəblərdə şagirdlər müəllimələrini, müdirlər xanım işçilərini, kişilər isə öz həyat yoldaşlarını təbrik edəcəklər. Amma çox adam bu bayramın tarixçəsi, onun baniləri ilə bağlı məlumatlı deyil. Əksəriyyət Klara Setkinin adını bilsə də, onun həyatı, bu tarixin necə yaranması ilə bağlı... məlumata sahib deyil.**

Əslində isə hər şey 1857-ci ilin 8 martında başlanıb. Həmin tarixdə ABŞ-ın Nyu-York şəhərində 40.000 toxuma işçisi daha yaxşı iş şərtləri istəyi ilə bir tekstil fabrikində tətilə başlayıb. O zaman qadınlar gündə 16 saat işləyirdilər, çünki onların əməyi daha az ixtisaslaşdırılmış hesab edilirdi. Nyu-Yorkun toxucuları aşağı qazanclara və əməyin pis şəraitinə qarşı etiraz edərək şəhərin küçələri ilə marşla keçdilər. Ancaq polisin işçilərə hücum etməsi və işçilərin fabrikə qıfıllanması, arxasından da çıxan yanğında işçilərin fabrik qarşısında qurulan barrikadalardan qaça bilməməsi nəticəsində çoxu qadın olmaqla 129 işçi can verdi. İşçilərin cənazə mərasiminə 100 mindən çox adam qatıldı.

26 - 27 Avqust 1910-cu il tarixində Danimarkanın Kopenhagen şəhərində il Beynəlxalq qadınlar yığıncağında (Beynəlxalq Sosialist Qadınlar Konfransı) Almaniya İctimai Demokrat Partiyası liderlərindən Klara Setkin, 8 Mart 1857-ci il tarixindəki tekstil fabriki yanğınında ölən qadın işçilərin xatirəsinə 8 Mart "Dünya Qadınlar Günü" olaraq qeyd olunması təklifini verdi və təklif qəbul edildi.

Alman inqilabçısı Klara Setkin Beynəlxalq qadınlar günü ideyasının müəllifidir. Klara ənənəvi alman ailəsində böyümüşdü. Soyad, hansıyla ki, Klara tarixə girdi, o soyad həyat yoldaşına - Osip Setkinə aid idi. 1882-ci ildə evlənən cütlüklər 1889-cu ildə böyük acı yaşadı. Klaranın sevimli yoldaşı vərəmdən vəfat etdi. Hadisədən 20 il keçdi. Klara Setkin bu vaxtlarda alman fəhlə hərəkatında gözə çarpan fiqur oldu. 1910-cu ildə onu 2-ci beynəlxalq sosializm konfransına nümayəndə seçdilər.



Klara Setkin

1916-cı ildə Klara Setkin məsləkdaşları Roza Lüksemburq, Frans Mering və Karl Libknextlə birlikdə "Spartak Birliyi"ni qurdu. Bu birlik 1918-ci ildə Almaniya Kommunist Partiyasına çevrildi. 1917-ci ildə Klara Setkin məsləkdaşları ilə birgə Müstəqil Sosialist Demokrat Partiyasını (MSDP) yaradan Karl Kautski ilə birləşmə barədə razılığa gəldilər.

Onun özəl həyatı isə qəribə hekayələrlə doludur. Belə ki, Parisdə yaşadığı müddətdə əri Osip Setkinin qonorarı ilə dolana bilmədiklərini görən Klara varlı adamların evini silib-süpürmək və paltarlarını yumaqla pul qazanmışdı. Karl Marksın qızı Laura Lafarq Klara Setkinə dərs demiş və onu inqilabi hərəkata qoşulmağa həvəsləndərmişdi.

Onun fırtınalı həyatı isə həyat yoldaşı Osip Setkinin ölümündən sonra başlanıb. Belə ki, bu hadisədən sonra o, özündən 18 yaş kiçik olan rəssam Georq Sundelə vurulub və onunla evlənib. Özündən 18 yaş balaca olan əri ilə münasibətlərinin korlanmağına səbəb, onların birinci dünya müharibəsinə fərqli münasibətləri olmuşdu.

Klara Setkinin 22 yaşlı oğlu Konastantin onun 36 yaşlı rəfiqəsi və əqidə yoldaşı Roza Lüksemburqun məşuqu olmuşdu. Klara Setkin bu səbəbə görə Roza ilə illərlə küsülü qalmışdı. Ancaq özündən 18 yaş balaca əri Klaranı, özündən on iki yaş balaca sevgilisi isə Rozanı atanda bu dərd onları təzədən barışdırmışdı.

Klara Rusiyada dünyasını dəyişəndə onun son sözü «Roza» olmuşdu. Klara Setkin dünyasını dəyişəndən sonra cəsədi yandırıldı, onun külü Moskvada, Kreml Divarında qorunur. Pamirdə dağ silsilələrinin birinin zirvəsi Klara Setkinin şərəfinə adlandırılıb.

Dünyanın bir çox ölkələrində qadınlar bayramı qeyd edilir. Özbəkistanda o "Analar Günü" adını daşıyır. Bu gündə Anqola, Burkina- Faso, Konqo, Uqanda, Nepal, Monqolustan, Şimali Koreya və bəzi başqa ölkə sakinləri işləmirlər. Çində bayram öz xüsusiyyətlərinə malikdir: qadınlar orada dincəlirlər, kişilərə isə adi iş günüdür. Bundan başqa, çinlilərdə kəsilmiş gülləri hədiyyə etmək qəbul edilmir və ən yaxşı hədiyyə kişilərin öz qadınlarına "Səadət Balqabağı" adlı yeməyi hazırlamalarıdır. Qonşu Vyetnam bu gündə qadınlara olduqca hörmət edir, amma onlarda bayram bacılara həsr olunub.

**Qadınlar Bayramının əvvəlki adı "Qadın haqqları günü" idi. Avropada bu bayram ilk dəfə Danimarka, Almaniya, İsveçrə, Avstriyada 1911-ci il 19 martda qeyd olunmağa başladı. Yalnız BMT-nin verdiyi qərar nəticəsində bu bayram 8 mart tarixində tarixə düşdü. Azərbaycanda isə ilk dəfə 1917-ci ildə qeyd edilib. 1965-ci ildən keçmiş SSRİ-də 8 Mart Beynəlxalq Qadınlar Günü istirahət günü elan olunub.**

**❑ SEVİNC**





# İranın nazir müavini "Khazar İslands"da oldu

**Xəzərin hüquqi statusunun müəyyənləşməsi ilə bağlı keçirilən danışıqlarda iştirak etmək üçün Bakıda səfərdə olan İran xarici işlər nazirinin Asiya və Sakit okean regionu üzrə müavini, İranın Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi İbrahim Rahimpur "Avesta Concern"in həyata keçirdiyi "Khazar İslands" layihəsi ilə tanış olmaq üçün şəhər-kompleksin salındığı ərazidə olub.**

"Avesta Concern"in vitse-prezidentləri - Rəşad Hacılı və Taleh Quliyev İran xarici işlər nazirinin müavininə "Khazar İslands" layihəsi haqqında geniş məlumat veriblər. Bildirilib ki, layihə yalnız Azərbaycan üçün deyil, bütövlükdə Xəzər regionu ölkələri üçün böyük əhəmiyyət kəsb edir. "Avesta Concern"in təmsilçiləri layihə çərçivəsində İran şirkətləri ilə əməkdaşlıqda maraqlı və hazır olduqlarını da qeyd ediblər.



İran xarici işlər nazirinin müavini İbrahim Rahimpur iki ölkə arasında münasibətlərin ən yüksək səviyyədə olduğunu qeyd edib və Xəzərin statusunun müəyyən edilməsi ilə bağlı Bakıda keçirilən danışıqlardan razı qaldığını vurğulayıb. Nazir müavini İran şirkətlərinin "Khazar İslands" layihəsində yer almasının da onların maraqlarına uyğun olduğunu və bunu arzu etdiklərini bildirib. "Khazar İslands" layihəsinin möhtəşəm layihə olduğunu qeyd edən İran xarici işlər nazirinin müavini İbrahim Rahimpur belə nəhəng layihəni həyata keçirən "Avesta Concern"ə uğurlar arzu edib.

# "Manatın ucuzlaşmasından büdcənin uduşu ikiqatdır"

## Qubad İbadoğlu: "Baş verən dəyişikliklər həm birbaşa və həm də dolayı büdcə mədaxilini artırır"

**Ölkədə dolların və avronun məzənnəsində yenidən dəyişiklik qeydə alınıb. Mərkəzi Banka bildirir ki, martın 6-da 1 ABŞ dollarının məzənnəsi 1,049, 1 avronun məzənnəsi isə 1,1566 manat təşkil edir. Qeyd edək ki, əvvəlki gün üçün 1 ABŞ dollarının məzənnəsi 1,0494, 1 avronun məzənnəsi isə 1,1607 manat səviyyəsində müəyyənləşmişdi.**

Son zamanlar dövrü mətbuatda manatın devalvasiyasından ayrı-ayrı sosial qruplara dəyən itkilərdən bəhs olunur. Ekspert Qubad İbadoğlu bu məsələyə diqqət çəkərək fikirlərini bildirib. onun sözlərinə görə, hər bir əməliyyatdan itirən varsa, deməli qazananlar da mövcuddur: "Bu, ikitərəfli proses olduğundan, fərqli qrupların müxtəlif qazancları və zərərlərindən danışmaq olar. İlk növbədə kimlər qazanır? İxracatçılar milli valyutanın devalvasiyasından daha çox qazanırlar. Çünki onları xərcləri manatla, gəlirləri isə dollarladır. Nəzərə alsaq ki, Azərbaycan ixracatının 92 faizə qədərini neft-qaz və ondan istehsal olunan məhsullar təşkil edir, onda devalvasiya əməliyyatından mədən sənayesində fəaliyyət göstərən neft şirkətlərinin, o sıradan da ARDNŞ-nin uduşlarının olduğunu demək mümkündür".

**Ekspertin sözlərinə görə, büdcənin uduşu ikiqatdır, çünki baş verən dəyişikliklər həm birbaşa və həm də dolayı büdcə mədaxilini artırır.** "Belə ki, ixracatçı şirkətlərin valyuta gəlirləri artması onların büdcəyə ödənişlərini də artırır. Ölkədə fəaliyyət göstərən xarici şirkətlərin bəziləri büdcəyə ödənişlərini dollarla etdiyindən büdcə həmçinin valyuta məzənnəsindəki fərqdən də qazanır. Nəhayət, büdcənin dolayı uduşunu daxili bazarda qiymətlərin bahalaşmasına görə artımla daxil olan istehlak vergilərinin səviyyəsindəki müsbət dəyişikliklər şərtləndirir.

Valyuta ilə depozit saxlayan maliyyə və qeyri maliyyə institutları, eləcə də əmanətlərə malik olan əhali qrupu devalvasiyadan udanların siyahısında olur. Lakin, bu halda uduşlar o zaman təsirli olur ki, onlar qazanclarını xaricə çıxardıb dollarla deyil, daxildə manatla xərcləsinlər",- deyə o, qeyd edib.



Qubad İbadoğlu

**Uduzanlara gəldikdə isə, Q.İbadoğlu bildirib ki, idxalatçılar devalvasiyadan ən çox itirənlər olurlar:** "Onların dollarla və ya avro ilə alıb gətirdikləri gətirdikləri mal və xidmətlərin qiymətində manatla baş verən dəyişikliklər bir tərəfdən istehlakçıların alıcılıq qabİliyyətinin aşağı düşməsi səbəbindən gəlirlərinin azalmasına, digər tərəfdən də bazar payının itirilməsinə gətirib çıxarır. Sonuncu tendensiya idxalı əvəz edən istehsal sahəsinin inkişafının stimullaşdırdığı halda milli iqtisadiyyat bu dəyişiklikdən qazana bilər. Devalvasiyanın əhaliyə təsiri ikitərəfli olur. Kimlərin ki, gəlirləri dollarladır, xərcləri manatla onlar bundan qazanır. Əksinə, gəlirləri manatla olub xərcləri dollarla olanlar bundan itirirlər. Gəlirləri və xərcləri manatla olanlar da itirənlər qrupuna daxildir. Əhali arasında ən çox itirənlər əmanətlərini manatla saxlayanlardır. Onların itkisi devalvasiya zamanı dəyişən məzənnə fərqi faiz gəlirlərindən yuxarı olduqda daha çox artır".

**Ekspertlər isə bildirirlər ki, hökumət ehtiyat valyutasını xərcləmək istəmir.** Gələcəkdə yaşana biləcək problemlərdə həmin ehtiyatlardan istifadə edərək, müəyyən dərəcədə vəziyyəti yumşaltmağı planlaşdırır. Ekspertlər belə vəziyyətin davam edəcəyi təqdirdə, ciddi fəsadlar törədəcəyini də vurğulayıb. Bildirilir ki, inflyasiya ən azı 15-20 faiz həddində olacaq. Bu da əhalinin real gəlirlərini kəskin şəkildə azaldacaq. Eyni zamanda, belə vəziyyət yoxsulluq səviyyəsində yaşayan insanların sayını artıracaq. Ekspertlər yaranan vəziyyətlə bağlı hökumətin heç bir addım atmamasından da narahatlıqlarını bildirirlər. Vurğulanır ki, hansı addımların atılacağı, hansı antiböhran planlarının hazırlanacağı haqqında ictimaiyyətə məlumat verilmir. Həmçinin, manatın məzənnəsinin yenidən düşəcəyi də ciddi ehtimallar sırasındadır.

❑ **Röya RƏFİYEVA**

# 8 mart haqda mırt düşüncələr



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Sabah 8 martdır. Bu təqvim ilk növbədə yada sövq-təbii qadın hüquqlarını salır. Azərbaycanın Konstitusiyası və qanunları ilə bu hüquqlar tam təmin edilib. Ümumi, təməl haqların tərkib hissəsi kimi, qadın hüquqları da "Ana Yasa"da, müvafiq qanunverici aktlarda gözəl şəkildə əksini tapıb. Ancaq onlar işləyirmi? Əməl edən, qanuna, kitaba-dəftərə baxan varmı?**

Bu gün Azərbaycan zindanlarında qadın siyasi dustaqlar varsa, onlardan biri hətta ağır şəkər (insulin) xəstəsidirsə, bu gün müxalifət liderlərindən birinin gənc qızı yüngülvari avtoqəzaya görə hətta burnu belə qanamayan zərərçəkmişin olmayan şikayəti əsasında həbsə məhkum edilirsə, əlahiddə hansı qadın hüququndan danışmaq olar ki. Qadına belə münasibət hakimiyyətdən daha çox, əslində dövlət adına utanc gətirir. Axı, o qadınları ev dustaqlığı şəraitində də mühakimə eləmək mümkündür.

Sözsüz ki, bizdə bütövlükdə insan haqlarının durumu pisdir. Bəli, Azərbaycan dünyəvi dövlətdir, bizdə şəriət idarəçiliyi mövcud deyil, din dövlətdən ayrıdır. Amma axı, SSRİ də dünyəvi dövlət olub. O zaman kim iddia edər ki, Azərbaycanda ümumbəşəri dəyərlər Sovet dönəmi ilə müqayisədə yaxşı qorunur?

**Ən betəri odur ki, SSRİ dövründən fərqli olaraq, ölkəmiz qat-qat mürəkkəb, qat-qat qorxulu proseslərin getdiyi bir bölgənin böyründə, sərhədində yer alıb. Məsələ ondadır ki, Azərbaycanda dünyəvi müxalifətin zəiflədilərək küncə sıxışdırılması artıq məntiqi sonluğuna çatmaq üzrədir və bu prosesin yekunu dövlətə, topluma böyük təlatümlər, siyasi sürprizlər bəxş edə bilər. "Müqəddəs yer heç vaxt boş qalmır". Misal üçün, günün birində məmləkətdə yatıb yuxumuzda belə görmədiyimiz dağıdıcı və radikal-ekstremist müxalifət peyda ola bilər.**

Paytaxtda həyata keçirilən son həbslər bu yöndə əlbəttə ki, nikbinlik yaradır. Fəqət, paralel surətdə xeyli əndişə və sual da qalır. Hələ ki, situasiya nəzarətdədir. Hələ ki, radikal qruplar nə yaxşı ki, güclü təşkilatlanmayıblar. Deməli, hələ dövlətin də, cəmiyyətin də şansı var ki, yaxın qonşuluğumuzda özünü göstərən bəlalardan yayına və sığortalana bilək.

Şansdan istifadə üçünsə ilk növbədə cəmiyyət faktoruna diqqət edilməsi olduqca önəmlidir. Söhbət hər şeydən öncə cəmiyyətin güclü və dayanıqlı olmasından, onu ləngimədən qorxulu xarici təsirlərlə qarşı immunitetli duruma gətirməkdən gedir.

**Bundan ötrü isə toplumun doğal haqları, o sırada siyasi və iqtisadi hüquqları tanınmalı, bu haqlar onun özünə qaytarılmalıdır. Cəmiyyət ölkənin, dövlətin idarəçiliyinə cəlb edilməlidir. Yol bəlli - azad, ədalətli seçkilər, iqtisadi-biznes azadlıqlarının önünün açılması, şəffaf idarəçilik.**

Əmin ola bilərsiniz, belə bir cəmiyyəti heç bir yad ünsür, kənardan sırınan ideologiya, İŞİD-misid yerindən laxlada, tərpədə bilməz. Yox, cəmiyyət və xüsusən də onun gənc hissəsi göründə ki, onun hüququ yalnız kağız üzərindədir, özünütəsdiq üçün bu dövlətdə ona zəmin, şərait qalmayıb, onda sözsüz ki, o, başqa formada çıxış yolu, özünütəsdiq müstəvisi arayacaq.

Bu mənada MTN-nin radikal qruplarla mübarizəsi, aparılan həbslər məqbul hesab edilsə də, yetərli və çıxış yolu sayılmaz, çünki bu, daha çox nəticələrlə mübarizədir; səbəblər cağbacağ yerindədir. Səbəbləri aradan götürməyin yolunu dedik. Bura yalnız sağlam dini maarifçiliyin təbliğatı məsələsini əlavə eləmək qalır...

***

Azərbaycan artıq öz tarixinin olduqca həssas, taleyüklü mərhələsinə girib. Ona cavabdehliyi hamıdan çox dövlət sükanı arxasında duranlar daşısa da, cəmiyyət və fərdlər də əsla məsuliyyətdən kənarda deyillər.

**Gələn 8 marta Azərbaycanı daha güvənli və daha modern, qadınlarımızı daha mutlu görmək ümidi ilə Allah amanında!**



# Rəsmi Bakı Qərbə jest edir

Azər RƏŞİDOĞLU

**Dövlət başçısı İlham Əliyev Bolqarıstana səfəri zamanı "Nabucco" və Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinə toxunaraq bunların Avropanı Asiya ilə birləşdirməkdə mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırıb.**

İ.Əliyev bu baxımdan "Cənub" qaz dəhlizinin önəmindən danışaraq bildirib ki, TANAP və TAP layihələrinin tikintisi "Cənub" qaz dəhlizi layihəsini formalaşdırır və bundan sonra da Azərbaycan Avropanın enerji təhlükəsizliyindəki rolunu davam etdirəcək.

Beləliklə, Azərbaycan prezidentinin Bolqarıstanda apardıqları danışıqların nəticəsi olaraq "Nabucco" qaz kəməri layihəsinə yeni nəfəs verilmiş oldu.

Rusiyanın maraqlarına birbaşa zərbə vuran bu layihənin dirildilməsi NATO-nun və Avropanın maraqlarına cavab verir.

Xatırladaq ki, Rusiyanın "Cənub axını" kəmərinə alternativ hesab olunan "Nabucco" kəməri layihəsi 2013-cü ildə Avropa Komissiyası tərəfindən rəsmən ləğv edilib. Avropa və Qərb uzun illər bu layihənin həyata keçirilməsi üçün çalışsa da Rusiyanın güclü müqaviməti, habelə layihənin kifayət qədər bahalı olması və on milyardlarla dollara başa gələcək kəməri doldurmaq üçün kifayət qədər qaz mənbələrinin tapılmaması "Nabucco"nun iflasa uğraması ilə nəticələndi.

Azərbaycan isə öz qazını Avropaya nəql etmək üçün daha ucuz başa gələn və siyasi baxımdan daha az riskli dəhlizi (TANAP+TAP) seçdi. Lakin ötən ilin dekabrında Rusiya prezidenti Vladimir Putin Ankarada "Cənub axını" qaz kəməri layihəsinin dayandırıldığını, onun əvəzində Rusiyadan Türkiyənin Yunanıstan sərhədinə qədər eyni gücdə "Türk axını" kəmərinin çəkiləcəyini elan edəndə regionun enerji xəritəsində bütün kartlar dəyişdi.

İndi isə Azərbaycan prezidenti Bolqarıstan səfəri ilə "Nabucco"ya ikinci nəfəs verir və beləliklə, Qərbə doğru reverans edir.

"Nabucco"nun bundan sonrakı perspektivi birbaşa Azərbaycanın qərarından asılı olacaq. Əgər "Şahdəniz-2" yatağının qazı Avropaya adıçəkilən marşrutla nəql olunacaqsa, "Nabucco" yaşayacaq. Əks halda, bu layihəni gerçəkləşdirmək imkansız olacaq.

Qərbin maraqlarının ziyan görməməsi rəsmi Bakının seçimindən asılı ola bilər. Rusiya bu layihənin həyata keçməməsi üçün əlindən gələni edir. Avropanın rusların qaz şantajından xilas olması üçün "Nabucco"nun reallaşması son dərəcə mühümdür. Qərb Bakı ilə "Nabucco" layihəsi çərçivəsində əməkdaşlıqda maraqlıdır. Ehtimal etmək olar ki, Rusiya layihənin baş tutmaması üçün rəsmi Bakıya təzyiqlərini artıracaq. Azərbaycan öz qazını xarici bazarlara nəql etmək üçün məhz "Nabucco"nun dirilməsinə çalışa bilər. Azərbaycan üçün ən sərfəli Avropa bazarıdır.

Bolqarıstan səfəri ilə dövlət başçısı bu istiqamətdə ilkin addımları atmış oldu.

Öncədən də, "Şahdəniz"in İran və Rusiyaya təzyiq aləti kimi qəbul edilirdi. Avropa bu ölkələrdən tələb edir ki, marşrutları şaxələndirsinlər, bu ölkələri Qərb dünyası ilə yaxınlaşdıracaq islahatlar keçirsinlər.

Rusiya ilə marşrutların şaxələndirilməsi barədə Avropa Enerji Xartiyası ideyası həyata keçirilməyə başlayandan sonra hər şey aydın oldusa (yeni boru kəmərləri açıldı - Şimal, Cənub, Mavi), son vaxtlara qədər İranla qarşıdurma xəttində artım olub. Tehran rejimini iqtisadi cəhətdən boğmaq üçün formal bəhanə İranın nüvə proqramıdır. Bütün mümkün təzyiq rıçaqlarından, o cümlədən "Şahdəniz"dən istifadə nikbin nəticələr verdi. Növbəti addım kimi İranla Qərb arasında konstruktiv danışıqların və münasibətlərin başlanmasını, gələcəkdə İranın siyasi sistemində islahatları gözləmək olar.

**"Nabucco" layihəsi 2019-cu ildə istifadəyə verilməli və dünya iqtisadiyyatlarının artan lokomotivlərindən biri olmalıdır. BP və ExxonMobil şirkətləri dünya iqtisadiyyatlarının inkişafı və enerji daşıyıcılarına tələbatın artımı proqnozlarını açıqlayıblar. Onlar hesab edirlər ki, 2030-cu il üçün dünyada enerjiyə tələbat 40% artacaq. Bu isə sabit rejimlərin sabit marşrutları təmin etməsini zəruri edir. "Nabucco", "Şahdəniz" və bunlara cəlb edilən ölkələr bu qlobal transmilli layihənin hissələridir. Bu baxımdan, dövlət başçısının Sofiya səfəri Qərb-Rusiya-İran münasibətləri baxımından olduqca mühüm idi. Ortaya demokratik açılımla bağlı bir çox suallar çıxır. Cavablar isə hələ yoxdur...**

# İsa Qəmbərin rəhbərlik etdiyi MSDM-in planları

## "Bu, siyasi təşkilat deyil, siyasi blok deyil, hər hansı bir seçkilərdə iştirak məqsədilə yaradılmayıb"

**Azərbaycanda parlament seçkilərinə 8 ay qalıb. Siyasi partiyalar, tanınmış ictimai-siyasi xadimlərin rəhbərlik etdiyi müxtəlif təşkilatların qarşıdakı 8 ay üçün planları, tədbirləri nəzərdə tutulub. Müsavat Partiyasının sabiq başqanı İsa Qəmbərin yaratdığı və rəhbərlik etdiyi Milli Strateji Düşüncə Mərkəzinin bu müddətdə hansı planlarının olduğu, parlament seçkilərinə qatqısının hansı şəkildə olacağını araşdırdıq.**

İsa Qəmbər bildirdi ki, Milli Strateji Düşüncə Mərkəzi (MSDM) adından da göründüyü kimi düşüncə mərkəzidir. Bu, siyasi təşkilat deyil, siyasi blok deyil, hər hansı bir seçkilərdə iştirak məqsədilə yaradılmayıb: "Bu qurum Azərbaycanın köklü məsələlərinin təhlil olunması, cəmiyyətə müəyyən tövsiyələr, təkliflər vermək, proseslərin Azərbaycanın inkişafı baxımından düzgün istiqamətdə getməsinə töhfə vermək məqsədilə fəaliyyət göstərir. Qarabağ məsələsi, Rusiyanın ölkəmizə yaratdığı təhlükələr, siyasi məhbuslar, vətəndaş cəmiyyətində partiyaların önəmi və bir sıra başqa mövzularda ciddi müzakirələrimiz və məncə, təsirli tövsiyələrimiz olub. Yaxın dövr üçün müzakirəmizdə olan



əsas mövzular bir tərəfdən Azərbaycanı sarmaqda olan böhran mövzusudur, bu mövzuya hərtərəfli geniş yanaşılmasının tərəfdarıyıq. Bu mövzunu sadəcə, manatın ucuzlaşması kimi məsələlərlə məhdudlaşdırmaq düzgün olmazdı. Manatın düşməsi səbəb deyil, ilkin və labüd nəticələrdən biridir. Eyni zamanda təbii ki, ölkənin demokratik inkişafının təmin olunması baxımından parlament seçkiləri də önəmli bir məsələdir və biz bu məsələyə də diqqət yetiririk".

**İsa Qəmbərin sözlərinə görə, təsadüfi deyil ki, MSDM-in son iki böyük tədbiri məhz bu mövzulara həsr olunub:** "Yanvar ayında parlament seçkiləri ilə bağlı geniş bir tədbir keçirdik, cəmiyyətin diqqətini parlament seçkiləri mövzusuna cəlb etdik, siyasi qüvvələrə, vətəndaş cəmiyyətinə tövsiyələrimizi verdik. İkinci önəmli böyük tədbirimiz isə böhran mövzusuna həsr olunmuşdu, bu yaxınlarda keçirildi. Böhranın qlobal səbəbləri, geopolitik səbəblərindən tutmuş yerli səbəbləri, Azərbaycan hakimiyyətinin yarıtmaz siyasətindən ortaya çıxan səbəblərinə qədər kompleks şəkildə mövzu müzakirə olundu, vəziyyətdən çıxış yolları ilə bağlı kifayət qədər maraqlı çıxışlar, təkliflər oldu. Yaxın həftələrdə fəaliyyətimiz bu iki istiqamətdə davam edəcək".

❑ Etibar SEYİDAĞA

# Müxalifət liderləri Avropa Oyunlarının açılışında iştirakı arzulayır?

**İyun ayında Azərbaycanda Avropa Oyunları keçiriləcək. Dünyanın diqqət mərkəzində olan bu böyük tədbirə Azərbaycan ciddi şəkildə hazırlıqlarını davam etdirir. Qeyd edək ki, olimpiya oyunlarında olduğu kimi, Avropa Oyunlarında da böyük təntənəli açılış mərasiminin keçiriləcəyi, mərasimdə dövlət rəhbərliyi, idman ictimaiyyətinin nüfuzlu simaları, müxtəlif xarici ölkələrdən rəsmi qonaqların iştirak edəcəyi bildirilir.**

Müxalifətin sözügedən mötəbər idman tədbirinin açılış mərasimində iştirak etmək istəyinin olub-olmadığına gəlincə, "Yeni Müsavat" bu sualla tanınmış müxalifət partiyalarının rəhbərlərinə müraciət etdi.

Müsavat Partiyasının başqanı Arif Hacılının cavabı belə oldu: "Azərbaycanda siyasi qüvvələr arasında, iqtidarla cəmiyyət arasında normal, sivil qarşılıqlı münasibətlər sistemi mövcud deyil. Bu da Azərbaycan hakimiyyətinin apardığı siyasətin nəticəsidir. Hakimiyyət müxalifət qüvvələrini cəmiyyətdən təcrid etmək siyasəti həyata keçirir. Avropa Oyunları ərəfəsində, oyunlar zamanı və oyunlardan sonrakı dövrdə Azərbaycan cəmiyyətində gedəcək proseslərin hansı istiqamətə yönələcəyi ilk növbədə Azərbaycan hakimiyyətinin davranışlarından asılıdır. Qarşıda Novruz bayramı gəlir və əgər Azərbaycan hakimiyyəti ölkədə normal qarşılıqlı münasibətlərin qurulmasını istəyirsə, cəmiyyətdə gərginliyin olmamasını



**Arif Hacılı:**
"Hakimiyyət tərəfindən belə addımlar atılacaqsa, dəyərləndiriləcək"



**Pənah Hüseyn:**
"İmkan olsa nəvələrimlə bir yerdə yarışlara baxmağa gedəcəyəm"

zəruri sayırsa, bayram ərəfəsində ölkədə siyasi məhbus problemini həll etməlidir.

Müsavat Partiyası dekabr ayında Avropa Oyunları ilə əlaqədar məsələləri müzakirə edib. Hələ bundan üç ay əvvəl Novruz bayramı ərəfəsində siyasi məhbusların azadlığa buraxılmayacağı təqdirdə Müsavat Partiyası tərəfindən Avropa Oyunlarının boykot olunacağı barədə Azərbaycan hakimiyyətinə çağırış ünvanlayıb. Hesab edirəm ki, hakimiyyət Müsavat Partiyasının, Azərbaycan cəmiyyətinin bu mövqeyini dəyərləndirməlidir. Əgər hakimiyyət tərəfindən belə addımlar atılacaqsa, həm Azərbaycan cəmiyyəti, həm də ölkədə fəaliyyət göstərən siyasi təşkilatlar bunu dəyərləndirəcək".

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn** suala belə cavablandırdı: "Bizdə müxalifətin rəsmi, yaxud qeyri rəsmi bayram, törən, mərasimlərdə iştirakının tənzimləndiyi qanunvericilik müddəaları yoxdur. Habelə buna aid ənənə, adətdən irəli gələn normalar da mövcud deyil ki, bu da öz növbəsində siyasi mədəniyyətin ciddi bir problemidir. 2006-2010-cu illərdə Müsavat deputat qrupu olaraq tərəfimizdən bu sahəyə aid "Müxalifətçilik fəaliyyəti haqqında" Qanun layihəsini hazırlayıb Milli Məclisə təklif etmişdik. Lakin hakim siyasi zehniyyət onu müzakirə etməyə hazırlıq nümayiş etdirə bilmədi. Odur ki, dediyim səbəb üzündən sualınızı necə cavablandırmaq məsələsi də aktual və şəxsən mənim üçün maraqlı deyil. Çox istərdim ki, iqtidar bu yarışlar qabağı Azərbaycan cəmiyyətində xoş ovqat yaradan addımlar atsın. Birinci olaraq da siyasi məhbus problemi kim tanınan məsələni həll etsin. Şəxsən mənə qalıdqda, imkan olsa fərdi qaydada, nəvələrimlə bir yerdə sevdiyim idman növləri üzrə yarışlara baxmağa gedəcəyəm".

**KXCP sədri Mirmahmud Mirəlioğlunun** isə suala cavabı belə oldu: "Sizin sualınızda qoyulan yanaşma təbii yanaşmadır və dəyərləndirilməlidir. Əgər bu məsələ sizin və bizim sual və cavabımızdan asılıdırsa, biz bunu normal qəbul edirik. Amma bu nə sizdən, nə də bizdən asılı olan məsələdir. Əgər Təşkilat Komitəsi, hakimiyyət dəyərləndirəcəksə, şübhəsiz ki, bizim də tərəfimizdən dəyərləndiriləcək".

**ADP sədri Sərdar Cəlaloğlu** isə rəsmi dəvət olarsa məmnuniyyətlə iştirak edəcəyini dedi: "Ümumiyyətlə müxalifətin Azərbaycan dövlətinin və cəmiyyətinin idarə edilməsində yerinin və rolunun müəyyən edilməsi vacibdir. Siyasi partiyalarla hakimiyyət təmsilçisi Əli Həsənovla keçirilən görüşdə də bu məsələ qaldırılıb. Bu məsələ ona görə vacib məsələdir ki, bir çox ölkələrdə müxalifət haqqında qanun var. Bu qanun müxalifətin siyasi sistemdə yerini və rolunu müəyyənləşdirir. Məsələn, Türkiyədə rəsmi dövlət protokolunda dördüncü yerdə müxalifət lideri yer alır. Yəni dövlətin dördüncü adamı müxalifət lideri sayılır. Təbii ki, Azərbaycanda dövlət başçısı müxalifətlə bağlı qanunun qəbul edilməsi üçün göstəriş verilməlidir və bu qanun əsasında da müxalifətin Avropa Oyunları kimi mühüm tədbirlərdə hansı şəkildə iştirakı müəyyənləşməlidir. Biz bunu istəyirik, indi görək iqtidar, təşkilatçılar bu məsələdə hansı mövqe nümayiş etdirəcək. Təbii ki, biz ölkənin siyasi sisteminin bir elementi kimi o mərasimə rəsmi dəvət olunsaq, əlbəttə böyük məmnuniyyətlə iştirak edərik".

❑ Etibar SEYİDAĞA

# "Azərbaycan üzərinə götürdüyü öhdəliyi yerinə yetirməyə borcludur"

## Taleh Əliyev: "Banklar dollarla götürdüyü əmanətə və manatla verdiyi kreditə görə ziyana düşüblər"

**Ümid Partiyasının İcra Aparatının rəhbəri, politoloq Taleh Əliyev Mətbuat Xidmətinin suallarını cavablandırıb.**

***- Taleh bəy, Azərbaycan banklarından dollarla kredit götürən vətəndaşların hüquqlarının Müdafiəsi Komitəsinin yaradılmasının zərurəti nə idi?***

- Hər gün xeyli sayda insan bu məsələ ilə bağlı Ümid Partiyasına müraciət edərək necə hərəkət etməklə bağlı kömək istəyirdi. Xarici valyuta ilə götürdüyü krediti əvvəlki məzənnə ilə ödəməlidirlər, yoxsa yeni. Aidiyyatı dövlət qurumlarının bu məsələyə tam aydınlıq gətirməməsi və bankların da bu məsələni öz maraqları kontekstindən izah etməsi belə bir Müdafiə Komitəsinin yaradılması zərurətini meydana gətirdi. Bu arada hüquqşünasların Mülkü Məcəlləyə istinad edərək ziddiyyətli fikir bildirməsi, Mərkəzi Bankın "vətəndaşlar məhkəməyə müraciət edə bilər" mesajını verməsi bizi çətin vəziyyətdə qalan vətəndaşımızı birbaşa müdafiə etməyə vadar edir. Madam ki, adiyyatı dövlət qurumları məsələyə tam aydınlıq gətirmir və sadə vətəndaş bu qeyri-müəyyənlikdən əziyyət çəkir, o zaman bu mübahisəli məsələ məhkəmə yolu ilə həll edilməli və bu qeyri-müəyyənliyə birdəfəlik son qoyulmalıdır. Əslində manatın devalvasiyasından sonra dollarla kredit verən banklar ziyana düşməyiblər. Ona görə ki, devalvasiyadan sonra dolların məzənnəsi qalxıb, enməyib. Banklar dollarla götürdüyü əmanətə və manatla verdiyi kreditə görə ziyana düşüblər. Bu zərərləri isə sadə vətəndaşların hesabına kompensasiya etmələri doğru deyil. Yaxşı olardı ki, banklar öz problemlərini dövlətdən uzun müddətə və ucuz kredit götürməklə həll etsinlər. Problemin bu variantda həlli hökumətin də istədiyi kimi iqtisadiyyatın şaxələnməsinə stimul vermiş olar. Nəticədə həm əhali, həm banklar durduğu yerdə ziyana düşməz, həm də iqtisadiyyatın şaxələnməsi ilə ölkə tək sektorlu iqtisadiyyatdan asılılıqdan qurtarar. Eyni zamanda I Avropa Oyunlarının keçirilməsi ərəfəsində ölkəmizdə bu xoşa gəlməz hal birdəfəlik aradan qaldırılar.



***- I Avropa Oyunlarından söz düşmüşkən Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə bildirib ki, IAvropa Oyunlarında iştirak edəcək bütün ölkələrin komanda heyətlərinin xərcini Azərbaycan çəkəcək. Bu məsələyə münasibətiniz necədir?***

- Son günlər bu məsələ ətrafında müxtəlif fikirlər səslənidirilir, xüsusilə də sosial şəbəkələrdə həm müdafiə, həm də etiraz xarakterli statuslar paylaşılır. Mən arqumentsiz tərifin də, qərəzli tənqidin də əleyhinəyəm. Hesab edirəm ki, I Avropa Oyunlarının ölkəmizdə keçirilməsi qürur verici bir hadisədir. Amma bunun əhəmiyyətini çox şişirdib bütün dərdlərimizin dərmanı kimi təqdim etmək də, bayağı bir təbliğatdır və doğru yanaşma deyil. Amma adından da göründüyü kimi Avropa tarixində ilk dəfə keçiriləcək bu yarışma adına və statusuna uyğun keçirilərsə tarixi hadisəyə çevriləcək, Azərbaycanın adı Avropanın idman tarixinə qızıl hərflərlə yazılacaq. Bunun üçün də Azərbaycan tərəfinin üzərinə çox böyük məsuliyyət düşür. Çingiz Hüseynzadənin açıqlamasından da məlum olur ki, Birinci Avropa Oyunlarında iştirak edəcək bütün ölkələrin komanda heyətlərinin xərclərinin Azərbaycan tərəfinin ödəməsi Avropa Olimpiya Komitəsi ilə bağlanan müqavilədə öz əksini tapmışdır. Həmin müqavilə imzalanan zaman isə neftin bir barelinin qiyməti 110 dollar idi. Nəinki Azərbaycanda, heç dünyada hazırkı iqtisadi krizis başlanmamışdı. Yəni bu gün Azərbaycan tərəfi o vaxt öz üzərinə götürdüyü öhdəliyi yerinə yetirməyə borcludur. Sadəcə olaraq hakimiyyət bu faktı o zaman açıqlasaydı bu gün üzərinə bu qədər gedilməzdi. Məncə müxalifət bu məsələdə fürsətcil davranmamalı, Azərbaycanın Avropaya inteqrasiyası baxımından bu tədbirin yüksək səviyyədə keçirilməsi üçün öz töhfəsini verməlidir. I Avropa Oyunlarına iqtidar-müxalifət maraqları kontekstindən yox, milli maraqlar kontekstindən yanaşılmalıdır.

***- İqtidar müxalifət münasibətlərindən söz düşmüşkən keçən ilin dekabrından başlanan iqtidar müxalifət dialoqu haqqında nə deyə bilərsiniz?***

- İqtidar müxalifət dialoqunun başlanmasının özü pozitiv bir hadisədir. Əgər diqqət yetirsəniz görəcəksiniz ki, birinci tədbiri tərəflər sadəcə görüş adlandırdı. İkinci tədbiri isə tərəflər dialoq kimi qəbul etdilər. Növbəti dialoq zamanı isə konkret mövzu ətrafında müzakirələrin aparılacağı gözlənilir. Bütün bunlar isə münasibətlərin yüksələn xətt üzrə getdiyini göstərir. Uzun illər ölkədə barış və dialoq mühitinin yaradılması ideyasını təbliğ edən bir partiya olaraq biz iqtidar- müxalifət dialoqunun başlanmasını müsbət hadisə kimi qimətləndiririk və tərəfləri nəticə əldə edənə qədər bu prosesi davam etdirəməyə çağırırıq. Dünyada və xüsusilə də Azərbaycanın yerləşdiyi region uğrunda gedən amansız geosiyasi mübarizə fonunda milli maraqlarımız tələb edir ki, həm iqtidar, həm də müxalifət öz məsuliyyətlərini düzgün qiymətləndirərək ölkədə həmrəylik və milli etimad mühitinin yaradılması üçün əllərindən gələni əsirgəməsin.

# Millət vəkili ölkə xanımlarını təbrik etdi



**Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə 8 mart Beynəlxalq Qadınlar günü münasibətilə Azərbaycan xanımlarını təbrik edib. Təbrikdə deyilir: "Hörmətli xanımlar, əziz analar və bacılar, sizi 8 mart Beynəlxalq Qadınlar günü münasibətilə ürəkdən təbrik edirəm!**

Əziz qadınlar, sizlərə uzun ömür, cansağlığı, sevdiklərinizlə birlikdə firavan, xoşbəxt və rahat həyat sürmənizi arzulayıram. Sizlər buna layiqsiniz və öz ağlınızla, mətanətinizlə, sədaqətinizlə, cəsarətinizlə, əqidənizlə bunları haqq etmisiniz.

Son illər bütün dünyada olduğu kimi ölkəmizdə də qadınların ictimai-siyasi və mədəni proseslərdə rolu getdikcə artmaqdadır. Bizim üçün xüsusilə xoşdur ki, Azərbaycan qadınları da ölkənin və cəmiyyətin həyatında getdikcə daha fəal şəkildə iştirak edirlər.

Ananın, qadının cəmiyyətdəki yeri əvəzedilməzdir. Qadınların olduğu yerdə ədalət, əxlaq, fayda, qayda -qanun, cəmiyyətin inkişafı var. Biz elə bir cəmiyyət qurmalıyıq ki, məhz cəmiyyət bu dəyərlərə, bu prinsiplərə söykənsin. Bunun üçün sizlərin daha da aktiv, qurucu, yaradıcı, prinsipial olmağınızı və enerjinizin, zamanınızın daha çox hissəsini bu işlərə ayırmağınızı arzulayıram.

Bir daha sizləri bayram münasibəti ilə təbrik edirəm!"

**Hər dəfə rəhmətlik Çingizin kadrlarına baxanda onun bağrına basıb, hönkür-hönkür ağladığı balaca qız uşağını, qırmızı "kalqotkalı" qızı görmək mənim bütün vicdanımı, qeyrətimi məhvərindən silkələyir! Hər il daha böyük ümidlə bu kadrlara baxıram ki, bəlkə o balaca qızcığaz bu dəfə Çingizin qucağından buraxılıb, şən səslə oynamağa, danışıb gülməyə başlayacaq. Amma əfsus ki, bu olmur, belə deyil.**

**Qədir ASLANOV**
**Ümid Partiyası Seçki və Təbliğat şöbəsinin müdiri**



# Qırmızı "kalqotkalı" qız!..

## Onun gözünə sıxılan güllə həm də bütün Azərbaycan türklərinin görən gözünə, düşünən beyninə, vuran ürəyinə sıxılmış güllədir

Onun gözünə sıxılan güllə nəinki o balacanın həm də o torpaqlarda yaşayan bütün Azərbaycan türklərinin görən gözünə, düşünən beyninə, vuran ürəyinə sıxılmış güllədir. Çingizin qucağındakı qızcığaz mənim də, sənin də, onun da hamımızın balasıdır, yaxud ola bilər. Onun hələ bu yaşda qətlə yetirilməsi Azərbaycan türkünün doğub-törəmək, artmaq, yayılmaq kimi istəklərini gözündə qoymaq demək idi. Düşmən demək istəyirdi ki, sizin qadınlarınızı kiçik yaşda ona görə məhv edirik ki, onlar böyüyüb xoşbəxt bir ailənin bacısına, anasına, tərbiyə verəninə, ev tikəninə çevrilə bilməsinlər!.. Bu torpaqlarda Azərbaycan adlı bir nəsnə bir daha dünyaya gəlməsin deyə. Biz bir xalq olaraq Şuşanı da əldən verəndə elə bil gözümüzün qarşısında ən bakirə və mızı kalqotkalı! Azərbaycan kişisi öz qızının, bacısının, sevgilisinin qətlə yetirilməsinə seyrçi qaldığına görə, bəlkə də əlacsızlıqdan hönkür-hönkür ağlayırdı, həm fevralda, həm də mayda. Bəlkə də bu iki gözəlin qətlə yetirilməsindən saf bir Azərbaycan gözəlini zorlamışdı düşmən. Biz hələ də o balaca qızcığazın Şuşayla bioloji bağlılığını anlamış deyilik. Biz hələ də başa düşməmişik ki, Şuşa və qırmızı "kalqotkalı" qızcığaz iki bacı kimidir, ikisini də Çingiz ağlamışdı. Biri "qırmızı koftalı"ydı, biri qırsonra artıq şəhidlərimizi ağlamağa gəlinimiz qalmadığı üçün kişilərimiz ağlayırdı. Axı bizdə məsəl var "Kişi ağlamaz". Amma ağladıq həmin günlər, çünki kişiliyimizdən əsər-əlamət qalmamışdı. Bizə aid olan bütün bakirəliklərə və məhrəmlərə donuz yeyən düşmən əl sürtmüşdü, addım atmışdı, güllə atmışdı!!!

**P.S.** İndi tarix 2015-i göstərir. Parklarda, xiyabanlarda dolaşərkən mən Çingizin qucağındakı o qızcığazla rastlaşıram. Ata-anası ilə gəzintiyə çıxıb, oynayıb, gülür. Amma hələ də əynindəki "qırmızı kalqotka"nı dəyişməyib! Heç biz özümüz də dəyişməmişik. Hələ də torpaqlarımız işğal altında, hələ də məcburi köçkünlərimiz ata-baba yurduna qayıtmayıb, hələ də o qızcığazların öcü alınmayıb. Dəyişməliyik, həm də toplum olaraq düşüncəmizdə, şüurumuzda, zehniyyətimizdə dəyişməliyik ki, bir daha bu cür faciələri yaşamayaq.

**Başsağlığı**

**Tanınmış aşıq-müğənni Solmaz Kosayevanın ailəsinə ağır itki üz verib. Onun xalası oğlu Söhrab Haqverdiyev vəfat edib.**

**Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə və partiyanın Rəyasət Heyəti Söhrab bəyin vəfatından kədərləndiyini bildirir, Solmaz xanıma və mərhumun yaxınlarına dərin hüznlə başsağlığı verir, səbir diləyir.**

**Allah rəhmət eləsin!**

YENİ MÜSAVAT
N 51 (6079) 7 mart 2015



# Yüz on manatlıq ayaq

Zamin HACI
zaminhaci@gmail.com

**Ötən ilin yayında Ağdam tərəfdə döyüşdə yaralanıb hər iki ayağını itirən lənkəranlı, 19 yaşlı əsgər Sərxan Tahirzadənin şikayəti mediada çıxdı. Vətən savaşı qazisi deyirdi: "Açığı, belə münasibət gözləmirdim. Bu mənə çox pis təsir edir! Bu yaşda iki ayağım yoxdur, dövlətin mənə verdiyi pensiya isə 70 manatdır. 150 manat da prezident təqaüdü verirlər. Deməli, mən bu məbləğlə yaşamalı, hələ bir ailə də qurub onu saxlamalıyam!". Onun anası da ƏƏSMN Lənkəran şöbəsindən, icra hakimindən şikayətlənmişdi. Bundan başqa Qazilər Birliyi sədri Etimad Əsədovun mövzu ilə, ümumən ölkədə savaş əlillərinin durumu ilə bağlı şikayətləri yayıldı. Ev verilmir, iş yoxdur, dolanmaq çətindir, məmurlar qapıdan qovur və sairə.**

Ardıyca məmurlar cavab atəşi açdılar, şikayətçiləri susdurmağa cəhd elədilər. Misal üçün, Lənkəran icra başçısı Taleh Qaraşov hətta Tahirzadənin evindəki hamamı təmir eləməsi haqda açıqlama verdi.

Belə şikayətlər həmişə olacaq, nə qədər ki, durumu kompleks dəyişmək üçün tədbirlər görülməyəcək. İzah edim.

Diqqət elədinizsə, müharibə əlili pensiyasının azlığından şikayətlənir, ancaq bu pulun azlığına cavab verən yoxdur. Avropa Yay Oyunları kimi düşük tədbirlərə milyardlar xərcləyən yapokratlar vətən yolunda sağlığını itirənə cəmi 70 manat aylıq verir. Bu, yumşaq yazsam, vicdansızlıqdır. Hələ bir xəbər də vardı ki, müdafiə naziri Tahirzadənin məsələsini diqqətdə saxlayır. Neyləyəcək? O da Qaraşov kimi hansısa çirkli puldan 500 manat götürüb minnətlə əlil-əsgərə verəcək? Bəlkə tualetə təzə unitaz alacaq?

Normal qanun qəbul edib fiziki qüsurlu insanlara, vətən, dövlət yolunda sağlamlığını itirənlərə normal aylıq pensiya, sivil dünyada olan hüquq və güzəştlər vermək əvəzinə hər biri istəyir kimsə bunun ayağına düşsün, yalvarsın. Misal üçün, hər bir savaş əlilinə verilən aylıq əlavə prezident təqaüdü - 150 manat nə deməkdir? Aşkar siyasi dividend qazanma cəhdi, dövlət pulu ilə öz təbliğatını aparmaq, siyasi korrupsiya. Bunun başqa adı yoxdur. Dünyanın heç bir sivil dövlətində əlilə pulu "prezident təqaüdü" adıyla vermirlər. Dövlət təqaüd verir, bunun da adı dövlət təqaüdü olur. Bizdə isə, təsəvvür edin, 2014-cü ilin oktyabr məlumatına görə 51.100 nəfər (əlli bir min yüz) prezident təqaüdçüsü var! Görün nə qədər adama halal haqqı minnətlə verilir. Görün nə qədər yaltaqlığa ali rəhbərlik səviyyəsində şərait yaradılır. Özgə kisəsindən paydır bunun adı.

Əsgərin anasının ürək ağrıdan sözləri içində deputat Qənirə Paşayevaya kömək üçün üz tutduğu, indi cavab gözlədiyi də yazılmışdı. Axı niyə əlil anası deputatdan fərdi kömək ummalıdır? Bəyəm Sərxan Tahirzadəni Ağdam cəbhəsinə Paşayeva göndərmişdi?

Bu da deputatların köhnə-təzə şousudur, yeri gəlmişkən. Ümumi qanunlar, qərarlar qəbul edib bütün əlillərin durumunu eyni zamanda, kompleks yaxşılaşdırmaq əvəzinə adda-budda köməklik göstərib guya qəhrəman olurlar. Avam, savadsız, yazıq camaat da onları alqışlayır, "əşşi, filankəsdən bir dənədir, kaş bütün deputatlar onun kimi olaydı" deyirlər. Rəhmətliyin uşağı, onlar elə "bütün deputatlar xalq üçün işləməsin" deyə çalışan sistemin dayaqlarıdır. Şəhid ailələrinə verilməli olan 11 min manat qan pulunu dövlət büdcəsinə sala bilməyən deputatxanadan nəsə yaxşı əməl gözləməyin yeri deyil.

**Müdafiə Nazirliyi mənəvi-psixoloji hazırlıq və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi, polkovnik Rüfət Əmirov keçən ay gülməli bir açıqlama vermişdi, deyirdi telekanallar gəncləri işğal edilən torpaqların təəssübünü çəkməyə yox, barlara, restoranlara çağırırlar. Mən Əmirovdan soruşmaq istərdim: əsgər iki ayağını itirib 220 manat pensiya alacaqsa, onun indidən bara gedib əylənməsi daha vicdanlı hərəkət deyilmi? Rüfət müəllim özü 220 manatla yəqin heç bir həftə də yaşaya bilməzdi. Hərçənd, kim bilir, bəlkə o bir Rembo-dur, günlərlə ağac qabığı da yeyər...**



# Abbas Abbasovun Rusiyadan "qidalanan" karyerası... - "axı, niyə onu..."

## Pənah Hüseyn: "Onun Rusiyada siyasilər, yüksək vəzifəli rəsmilərlə özəl münasibətlərinin olması bizim hakimiyyət dönəmində də, ondan əvvəl və sonra da məlum bir məsələ idi"

## Zahid Oruc: "Hamının güclü saydığı iqtisadi dayaqlar bəzən həm təsir, həm də zəif yerə çevrilə bilir"

**Azərbaycan hakimiyyəti baş nazirin keçmiş birinci müavini, hazırda Rusiyada yaşayan Abbas Abbasovla əlaqələri birmənalı olaraq kəsib. Bununla bağlı qəzetimizin ötən sayında dərc olunmuş məqalədə deyilir ki, A.Abbasovun ölkə başçısı ilə görüş istəkləri rədd edilib.**

A.Abbasov Dünya Güləş Federasiyasında "Güləşin dostları" təşkilatının rəhbəridir. İyun ayında Avropa Oyunlarının açılışında iştirak etməyə və hakimiyyətlə barışmağa çalışsa da, A.Abbasova deyilib ki, onun adı əvvəldən açılış mərasimində iştirak edəcək qonaqların siyahısına daxil edilməyib.

Qeyd edək ki, baş nazirin sabiq birinci müavininin oğlu da bir müddət əvvəl atasının məhz Bakıya Avropa Oyunlarında gələcəyinə ümidli olduğunu demişdi. A.Abbasovun özü isə hələ çox əvvəl "bir də tabutda" Bakıya qayıdacağını söyləyərək, "ona da əgər icazə versələr" əlavəsini etmişdi. Bundan başqa baş nazirin keçmiş müavininin "AzerRos"-da da işi yaxşı deyil və faktiki olaraq diaspor təşkilatından kənarlaşdırılıb. Qurumun faktiki rəhbəri Söyün Sadıqov isə Abbas Abbasovu təşkilatı bölməyə çalışmaqda ittiham edib. **Sitat:** "Abbasov vaxtı ilə Azərbaycanı tərk edib, indi isə bizləri burada - Rusiyada bölməyə çalışır. Keçmiş Azərbaycan məmurunun bizi idarə etməyə nə haqqı var? O kənara çəkilməlidir. Bizlər- Rusiya vətəndaşları isə azərbaycanlıların barışıq içində yaşamağa qadir olduqlarını sübut etməliyik".

Qeyd edək ki, rəsmi Bakı A.Abbasovun Rusiya hakimiyyətindəki bəzi qrupların dəstəyi ilə siyasi müxalifət formalaşdırmaqda, həmçinin Bakıda siyasi fəaliyyətləri dəstəkləməkdə ittiham edərək onunla bağlarını qoparıb. 2013-cü il prezident seçkiləri ərəfəsində A.Abbasovun Rüstəm İbrahimbəyovu dəstəkləməsi, "Milyarderlər Klubu" kimi hakimiyyətə qarşı layihələrin içində olması Bakıda qəzəb doğurub. Ancaq maraqlı olan budur ki, A.Abbasov Azərbaycanda 90-cı illərin əvvəllərindən yüksək dövlət vəzifəsi tutur. Eyni zamanda, A.Abbasov həm də "Rusiyanın adamı", Kremllə sıx əlaqələri olan kadr kimi tanınıb. O, artıq Azərbaycan əleyhinə, Rusiyanın sıradan bir agent-provokatoru kimi də fəaliyyət göstərməyi özünə rəva görür. Bəs, o zaman Azərbaycanın siyasi hakimiyyətləri hansı səbəbdən belə bir kadrla işləməyi özlərinə rəva görüblər?

**Elçibəy hökumətinin baş naziri Pənah Hüseyn** deyir ki, Abbas Abbasovun Rusiya ilə əlaqələri onların hökuməti zamanı da bəlli olub, ancaq onlar bu əlaqələrdən Azərbaycanın maraqları üçün istifadə etməyə çalışıblar: "Abbas Abbasovun Rusiyada siyasilər, yüksək vəzifəli dövlət rəsmiləri ilə özəl, yaxın münasibətlərinin olması bizim hakimiyyət dönəmində də, ondan əvvəl və sonra da məlum bir məsələ idi. O, özü də bunu heç vaxt gizlətməyib. Onun bu əlaqələrindən Azərbaycan dövləti üçün istifadə olunması istər bizim dövrümüzdə, istər əvvəlki və sonrakı dövrdə də karyerasının davam etməsində əhəmiyyətli rolu olub".

**Ancaq bu faktın özü həm də risk daşıyır. Çünki nəzərə almaq lazımdır ki, son 25 ildə Rusiya ilə münasibətlərimiz heç də hər zaman isti olmayıb. P.Hüseyn deyir ki, bu cür məmurların olması bir çox hallarda hakimiyyətlərin marağında olur:** "Azərbaycan kimi ölkələrdə Rusiya, İran, ABŞ, Avropa ölkələri ilə əlaqəsi olan, yaxud da özünün beynəlxalq münasibətlərə baxışından irəli gələrək, bu və ya digər qütbə meylli siyasətçilərin olmasına mən təbii baxıram. Təbii ki, strateji olaraq Azərbaycanın dövlət maraq və mənafeləri əsasdır. Bu çərçivə daxilində bu və ya digər məmurun ictimai rəyə rusiyapərəst, amerikapərəst kimi tanınması məsələsi əhəmiyyətsiz deməzdim, amma həlledici deyildi".

**Ancaq konkret olaraq Abbas Abbasovun Rusiyanın adamı, hətta casusu olması, o ölkənin maraqlarına xidmət etməsi ilə bağlı iddialara gəldikdə, P.Hüseyn belə bir iddianın onların zamanında olmadığını deyir:** "Məndə Abbas Abbasovun hansısa dövlətin casusu olması və ya hansısa dövlətin xeyrinə casusluq fəaliyyəti ilə məşğul olması ilə hər hansı məlumat olmayıb və indi də yoxdur".

**Deputat Zahid Oruc** deyir ki, Abbas Abbasovun hökumətdə yüksək vəzifə tutması da, orda çalışması da, özünün dediyi kimi, bu hakimiyyətin keçmiş və indiki rəhbəri ilə bağlı olub: "Məhz elə Abbas Abbasovun sözlərinə istinad eləsək, onun ən mühüm vəzifə qərarları da indiki iqtidarların zamanında qəbul olunub. Buna görə də bu hakimiyyətə borclu olduğunu söyləyib və istefa qərarından sonra da bunu obrazlı və açıq mətnlə dilə gətirib. Buna görə də cəmiyyətdə də özünə qarşı müsbət bir mövqe əldə eləmişdi. Onun özünün etiraf etdiyinə görə, Özbəkistanda işlədiyi dönəmdə də Heydər Əliyev ona köməyi dəyib. Abbasov da bu amillər səbəbindən iqtidara sədaqətlə xidmət edib. Amma biz 2013-cü ilə qədərki Abbas Abbasovla ondan sonrakı A.Abbasovun fəaliyyəti arasında bərabərlik işarəsi qoya bilmirik. Təəssüflər olsun ki, görünür, Rusiyanın siyasi elitasında Azərbaycana münasibətdə iki mövqe sahibləri olanlar var. Onların bir qismi, hansı ki, Volodin kimiləri, onlar müxtəlif şəxslərdən Azərbaycana qarşı istifadə etməyə çalışdılar. Ehtimal edirəm ki, A.Abbasov bu prosesin iştirakçısına çevrildi. Ondan sonra baş verənlərin belə də məntiqi nəticəsini gözləmək lazım idi".

**Z.Oruc deyir ki, A.Abbasovun diaspor fəaliyyəti ona qarşı hücumların artmasına səbəb olub:** "Rusiyada yaşayan azərbaycanlıları təşkilatlandırmaq, onları siyasi həyata gətirmək, azərbaycanlıların maraq və mənafelərini uğurla təmsil eləmək, Rusiya vəzifə eşalonunda, biznes strukturlarında onların tərəfini tutmaq böyük bir iş, intensiv fəaliyyət tələb edir. Bütün bunları etməyib də, hazır təşkilatlanmış bir qurumu - "AzerRos"u ələ keçirmək, ondan sonra da həmin dayaqları Azərbaycandakı siyasi mübarizəyə qoşacağını da düşünmək yanlışdır. Mən bilmirəm, Abbasov hazırkı gerçəklikdə kimin taleyini yaşayır. Amma reallıq ondan ibarətdir ki, biz bunu qətiyyən arzulamırıq ki, belə olsun. Reallıq ondan ibarətdir ki, bu gün Azərbaycandakı hər kəs ona qiymət verir ki, əgər bir adam əqidəsinə, siyasi bağlılığına görə bir kursa bağlı olursa, sonradan ayrı yolu seçməsi insanlar tərəfindən birmənalı qarşılanmır. Ona görə də düşünürəm ki, onunla bağlı hansısa qərar verilirsə, bunun bir səbəbi var".

**Ancaq deputat A.Abbasovun hakimiyyətdə vəzifə tutduğu zaman Rusiyaya birbaşa bağlı olduğunu düşünmür. Z.Orucun fikrincə, bütün bunlar sonradan olub, daha əvvəl isə onun yalnız əlaqələri olub:** "Mən Abbas Abbasovun baş nazirin müavini olarkən Rusiyanın adamı kimi burada əyləşdiyini, sadəcə emissar kimi fəaliyyət apardığını düşünmürəm. Heydər Əliyev Rusiya ilə münasibətlərə önəm versə də, Azərbaycan o ölkə deyil ki, burada kadr korpusunun formalaşmasında Rusiya qərar versin. Mən xatırlayıram, Saakaşvili deyirdi ki, ona Putin adından ona sifariş gəlib ki, baş prokuror Rusiyanın adamı olsun. Ancaq o da var ki, biznesinin böyük bir hissəsi Rusiyada olan adam o ölkə ilə bağlılığı olur. Hamının güclü saydığı o iqtisadi dayaqlar bəzən həm təsir, həm də zəif yerə çevrilə bilir. Təəssüf ki, görünür, hansısa şərtlər olur. Ancaq hər kəsə aydındır ki, biz bu məsələdə xeyli neytral bir mövqe göstərirdik ki, onların arasında daxili mübarizədir və sair. Amma görünən budur ki, ortada hansısa yanlışlıqlar var. Bunlar dövlətə də bəllidir. Ona görə də mən arzulayıram ki, Azərbaycan hökumətində təmsil olunan və gələcəkdə vəzifədən kənarlaşdırılan insanlar öz mövqelərində prinsipial olaraq dəyişməsinlər".

❑ Kənan RÖVŞƏNOĞLU

# Ankara ilə intensivləşən ortaq hərbi təlimlərdə yay hədəfi

**Azərbaycanla qardaş Türkiyə arasında hərbi sahədə əməkdaşlıq ötən ilin sonlarından etibarən intensivləşib. Bu, özünü həm iki ölkə arasında ortaq hərbi manevrlərin artmasında, həm də yüksək çinli hərbçilər və nümayəndə heyətlərinin artan qarşılıqlı səfərlərində büruzə verməkdədir. Bəllidir ki, martın 3-də Türkiyə ərazində iki ölkə Hərbi Hava Qüvvələrinin birgə təlimləri başlayıb və davam edir.**



# Avropa Oyunlarına erməni hədəsinə qarşı Türkiyə təminatı

## Beynəlxalq tədbir ərəfəsində təmas xəttində artan təxribatlar iki qardaş ölkəni birgə, sinxron və effektli preventiv addımlar atmaq zorunda qoyur; yarış iştirakçılarının təhlükəsizliyi müharibə risklərini ən azı, bir neçə ay "zəncirdə saxlamaq" zərurəti yaradır...

**Həmin təlimlərin getdiyi vaxtda isə Türkiyə Hərbi Hava Qüvvələrinin komandanı, ordu generalı Akın Öztürk** böyük bir nümayəndə heyəti ilə Bakıya gəlib.

Dünən Azərbaycanın müdafiə naziri Zakir Həsənov Akın Öztürkü qəbul edib. Müdafiə Nazirliyindən verilən məlumata görə, iki nümayəndə heyəti arasında geniş tərkibdə görüşdə nazir hərbi əməkdaşlıq planına əsasən, ötən il Azərbaycan səmasında, hazırda isə Türkiyədə keçirilən birgə təlimlərin təcrübə baxımından mühüm əhəmiyyət daşıdığını qeyd edib, bu sahədə əlaqələrin genişləndiyini xüsusi vurğulayıb. Bölgədəki hərbi-siyasi vəziyyətə toxunan Zakir Həsənov Ermənistanın regional sabitliyə əsas təhlükə olduğunu, Qarabağ probleminin beynəlxalq hüquq normaları əsasında həllinə nail olmanın vacibliyini bildirib.

Öz növbəsində Akin Öztürk dövlətlərimizin əlaqələrinin qədim tarixi köklərə, mehriban dostluq münasibətlərinə söykəndiyini və Türkiyənin ölkəmizin vacib tərəfdaşı olduğunu vurğulayıb. Qardaş ölkənin səfiri İsmayıl Alpər Coşqunun da qatıldığı görüşdə Azərbaycan-Türkiyə hərbi əlaqələri və qarşılıqlı maraq doğuran digər regional təhlükəsizlik məsələləri ətrafında da geniş fikir mübadiləsi aparılıb.

*****

Qeyd edək ki, Bakıya böyük nümayəndə heyəti ilə gələn Öztürkün səfəri 3 gün çəkib. Bu da mühüm məqamlardan sayıla, regionda, Azərbaycan ətrafında, o sırada Dağlıq Qarabağ ətrafında gərgin duruma adekvat reaksiyanın təzahürü hesab oluna bilər. Təsadüfi deyil ki, görüşdə təhlükəsizlik məsələləri məxsusi diqqət mərəzində olub.

Bölgədəki hazırkı mürəkkəb, eyni zamanda təhlükəli durumun özəllikləri isə bir neçədir. Biri və birincisi, əlbəttə ki, qonşulara qarşı güclənməkdə olan Rusiya aqressiyası ilə bağlıdır ki, Türkiyə və Azərbaycanın güc nümayişi, genişlənən hərbi əməkdaşlığı Kreml üçün müəyyən mənada çəkindirici rol oynaya bilər. İkinci faktor erməni işğalının nəticələrindən, daha dəqiqi, son aylar cəbhə bölgəsində atəşkəs rejiminin tez-tez pozulmasından qaynaqlanır.

Yeri gəlmişkən, Ermənistanın öz daxilində vəziyyət kifayət qədər mürəkkəbdir. Sərkisyan rejiminin durumu yaxşı deyil. Belə vəziyyətdə hakim qüvvələrin köməyinə adətən diqqəti yayındırmağa yönəlik xarici amillər gəlir. Bakıda keçiriləcək Avropa Yay Oyunlarına Qarabağ kartından yararlanıb hansısa formada əngəl yaratmaq bu xüsusda rəsmi İrəvanın karına gələ bilərdi.

Bir sıra analitiklər də Bakıdakı beynəlxalq yarışı pozmaq, yaxud onun effektini azaltmaq və ya ölkəmizə təşrif buyuracaq əcnəbilərdə təhlükəsizliklə ilgili tərəddüdlər yaratmaq üçün erməni tərəfinin iyuna kimi cəbhə xətti boyu artan intensivliklə təxribatlar törədəcəklərini mümkün sayırlar. Bu üzdən təkcə Qarabağ münaqişəsi bölgəsində yox, paralel surətdə Ermənistan-Azərbaycan sərhədində Azərbaycan ordusunu daha yüksək hazırlıq səviyyəsinə gətirilməsi məntiqli görünür.

Ayrı sözlə, ən azı qarşıdakı bir neçə ayda genişmiqyaslı birgə təlimlərlə, o cümlədən Naxçıvanda ortaq hərbi təlimlərlə düşmənin daim narahat vəziyyətdə saxlanması məntiqli görünür. Azərbaycan və Türkiyənin işğalçı Ermənistana birgə güc nümayişi heç vaxt olmadığı qədər mühüm əhəmiyyət daşıyır. Aydındır ki, yaxın müddətdə müharibə risklərini artması Bakı üçün arzuolunmazdır. Reallıq minimum, önümüzdəki aylarda bu riskləri "zəncirdə saxlanmaq" zərurətini diktə edir.

*****

İstisna deyil ki, məhz rəsmi Bakı Ankaraya belə bir xahişdə bulunub. Çünki ilk dəfə olaraq ölkəmizdə belə miqyasda beynəlxalq idman yarışı keçiriləcək. İyunun 12-də start götürəcək və 16 gün sürəcək tədbirdə 49 ölkədən minlərlə idmançı və digər statusda qonaq iştirak edəcək. Həm yarışın uğurlu təşkili, həm də onun iştirakçılarının təhlükəsizliyi baxımından bu, ölkəmizdən ötrü sınaq olacaq.

**Bu böyük idman yarışı etibarlı ölkə olaraq Azərbaycanın beynəlxalq imici üçün də az əhəmiyyət kəsb eləmir. Ölkəmizin ilk belə sınaqdan uğurla çıxması isə qardaş Türkiyənin də marağındadır.**

**❑ Analitik xidmət**

# Azərbaycan və İran Konvensiyanın imzalanacağına əmindir

**İranın xarici işlər nazirinin müavini İbrahim Rahimpour Xəzər dənizinin hüquqi statusu ilə bağlı nikbin açıqlama verib. "TASS"ın verdiyi məlumata görə, o deyib ki, məsələ Xəzəryanı ölkələrin dövlət başçılarının növbəti sammitində həllini tapa bilər: "Martın 5-də işçi qrupunun toplantısında tərəflər Xəzər dənizinin hüquqi statusu ilə bağlı Konvensiyanın 6-cı maddəsi üzrə tam razılıq əldə ediblər. Bu, məsələnin yaxın gələcəkdə həlli üçün zəmin yaradır."**




Onun sözlərinə görə, Astana sammiti Xəzəryanı ölkə başçılarının son görüşü olmayacaq. Çünki əməkdaşlıq yalnız Konvensiyanın imzalanması ilə məhdudlaşdırıla bilməz. Konvensiya imzalanandan sonra müxtəlif sahələr üzrə əməkdaşlığın yeni mərhələsi başlanacaq.

Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfov da bildirib ki, bütün tərəflər anlaşmaya yaxındır. Biz Xəzər dənizinin statusuna aid problem kimi qalan məsələlərlə bağlı koordinasiyanı qısa müddətdə başa çatdıracağıq." Rusiya, Qazaxıstan və Türkmənistan hüquqi statusla bağlı razılaşma ilə bağlı fikir səsləndirməyiblər.

**Xatırladaq ki, dövlət başçılarının növbəti sammitinin bu il Qazaxıstan paytaxtı Astanada keçirilməsi nəzərdə tutulur. Azərbaycan və İran ümid edir ki, Xəzərin statusu ilə bağlı Konvensiya həmin sammitdə imzalanacaq. Azərbaycan, İran, Rusiya, Qazaxıstan və Türkmənistan 20 ildir Xəzərin statusunu müzakirə edir.**

# Yalnız yaxşılıqlarla...



**Hüseynbala SƏLİMOV**

**Cəmi bir neçə gün bundan əvvəl dünya İŞİD-in Mosuldakı qədim abidələri necə dağıtmasını seyr etməkdə ikən başqa bir xəbər bizə təsəlli oldu: təsəvvür edin, Rusiyada islam bankçılığını formalaşdırmaq üçün qanunvericilik bazasının yaradılmasına hazırlıq gedir...**

Deməli, dünya islamın başqa tərəfini, başqa üzünü də görür və ondan faydalanmağa çalışır. Təbii ki, bu, bizim üçün də xoşdur. O ki qaldı İŞİD-in adı çəkilən şəhərdə - Mosulda törətdiyi əməllərə, bu, yalnız təəssüf doğura bilərdi və doğurdu da...

Amma güc sahibləri, böyük dövlətlər sadəcə, təəssüf etməkdən bir az irəli gedə bilərdilər. Xatırladaq ki, bir neçə il bundan əvvəl talibanın Əfqanıstanda törətdiyi oxşar əməllər dünya ölkələrinin səbrini daşdırmışdı...

İndi isə onlar yalnız seyr etdilər və bir az da təəssüfləndilər. Olsun. Qayıdaq bir qədər əvvəlki xoş ovqata... Məlum olur ki, islam qaydaları təkcə mənəvi həyat üçün önəmli deyil, onun bəzi tövsiyələrindən iqtisadi həyatda da faydalanmaq olar...

Onu da deyim ki, bu istiqamətdə Rusiya heç də birinci ölkə deyil, artıq bir neçə digər ölkələrdə də bu təcrübədən yararlanırlar. Və bir daha deyirik ki, bu bizə bir müsəlman kimi olduqca xoş gəlir...

İstənilən ideya, istənilən məslək xeyirlə, yaxşılıqlarla, fayda ilə gələndə onu qəbul etmək də, dəstəkləmək də çox asan olur. Hər bir adam, bəli, dinindən və imanından asılı olmayaraq istənilən bəndə yalnız özü haqqında xoş təəssürat yaratmaqla başqaları tərəfindən sevilə bilər...

Qorxu, hədə və zorakılıq heç vaxt sevgi yaratmır. İnsanlar ona yalnız müvəqqəti olaraq dözə bilərlər. Elə ilk fürsətdə isə ondan qurtulmağa çalışar və gizlində ona nifrət edərlər...

Şükür ki, indi islam əvvəlki kimi sirli-gizli deyil, insanların müqəddəs kitabları oxumaq imkanı da var, müqəddəs yerləri görmək imkanı da. Təbii ki, bu, din adamlarını da müəyyən qədər məsuliyyətli olmağa təhrik edir...

Daha əvvəlki kimi məclislərdə hətta uşağın belə inanmadığı rəvayətlər danışmaq, insanları qorxu ilə təhdid edərək dinə çağırmaq üsulları yaramır və artıq belə hallara az təsadüf olunur...

Təbii ki, bu, hələ tam oturuşmayıb, çünki din adamlarının savad dərəcəsi müxtəlifdir, onlar müxtəlif dini cərəyanların təsiri altındadırlar... Bunların hər biri dini həyatın yeniləşməsini bir az ləngidir...

Amma inkişaf var. Gənc ilahiyyatçılar meydana çıxıb. Onlar özləri də gənc olduqlarından yeni həyatın tələblərini başa düşürlər. Təbii ki, burada mühitin də təsiri var. Onlar da istər-istəməz dünyəvi cəmiyyətin mövcudluğunu hiss edir və müəyyən qədər onu nəzərə almağa çalışırlar...

İndi ən azı iki ölkədə - Türkiyədə və Azərbaycanda sağlam dini həyat var. Söz yox ki, müəyyən sapınmalar olmalıdır, onlar hər yerdə olur...

Amma əsas ümumi fondur. Fon isə şükür ki, sağlamdır. Bu, digər dinlərin və məzhəblərin də insanlarına təsir edir. Onların islam haqqındakı arxaik təsəvvürlərini dəyişir. Əslində o obrazı ki, islama sırımaq istəyirlər, bu orta əsr Avropasındakı xristian dini üçün də xarakterik olub. Təbii ki, sonradan xristianlıq bu obrazdan qurtulub. İslam haqqında isə bir neçə on ildir ki, belə bir obraz formalaşdırmağa çalışırlar. Demirik ki, burada müsəlmanların özlərinin heç bir "xidməti" yoxdur, var. İnşallah, islam dünyası da belə ovqatı, belə obrazı dəf edər və onda islam opponentlərinin arqumentləri azalar...

Əsas odur başa düşək ki, yalnız yaxşılıqlarla, yalnız yaxşı əməllərlə və yaxşı niyyətlə dünyada həqiqətən də qəbul edilmək mümkündür...

Təbii ki, "konspirologiya" elementləri və həvəskarları həmişə tapılacaq. Bunu da inkar etmirik.

Nə qədər çalışsan da, yenə də dindarlar və din adamları arasında belə fikir dolaşacaq ki, guya Vatikanda yalnız müsəlmanlar əleyhinə məkrli planlar və məkrli ssenarilər cızmaqla məşğuldurlar...

Bu da qeyri-adi şey deyil. Elə siyasətlə maraqlananların da bəlkə də 90 faizinə geosiyasət daha inandırıcı görünür. Onlar geosiyasi konsepsiyaları və ssenariləri daha asan qəbul edirlər...

Buna heç vaxt təəccüblənməmişik, çünki hələ qlobal, planetar təfəkkür formalaşmayıb, məsafələr qısaldıqca, gediş-gəliş artdıqca insanlar bundan da tədricən qurtulacaqlar.

Böyük ehtimalla bu, dinlər arasındakı yaxınlaşmaya təsir edəcək. İndi bir çox hallarda kimisə tutaq ki, islamla qorxutmaq ona görə asandır ki, bu, adam müsəlman görməyib, yalnız nəsə eşidib və yaxud oxuyub.

**Amma islamı tam şəkildə görəndə və təsəvvür edəndə artıq bütün bu şübhələr və tərəddüdlər çəkiləcək...**

YENİ MÜSAVAT
N 51 (6079) 7 mart 2015

**Gecə yolun yorğunluğu və yorğunluqdan da çox həyəcanı ilə yuxuya getmək çətin oldu. Dəməşqin ən hündür səmtlərindən birindəki oteldə, üstəlik onun ən hündür mərtəbəsində yerləşdirildiyimiz üçün şəhər ovuc içi kimi görünürdü. Ərəbistan yarımadasında artıq başlayan yazın ilk əlaməti - aydın və ulduzlu səma ilə Dəməşqin evlərindən gələn işıqlar bir-birinə göz vururdu. Səhərə qədər 3 partlayış səsi, uzaqdan eşidilən polis maşınlarının küyü, havaya qalxan helikopterlərin səsi yarıyuxulu halımızı lap qarışdırır.**

# Suriyada iç savaş? - qətiyyən belə deyil!

## Suriyadan II reportaj

*(Əvvəli ötən sayda)*

Səhər öyrənirik ki, gecə şəhərin 4 qəsəbəsini elektriklə təmin edən yarımstansiyalar partladılıb. Təxminən 8 saat həmin kəndlər işıqsız qalacaqdı.

Səhər açılınca günəş işığında ilk dəfə gördüyüm Dəməşqin - Şam şəhərinin o gözəl mənzərəsini yəqin heç vaxt unutmaram. Gözlərimin önündə Ərəbistan yarımadasının ən gözəl, 3 min illik tarixi olan möhtəşəm bir şəhəri vardı. Tarixi binalarla, qədim məscidlərlə modern binaların birlikdəliyi çox təsirli bir mənzərə yaratmışdı.

Səhər yeməyində hamı bir-birindən "Əsədlə görüş saat neçədədir, dəqiq bilgi varmı", deyə soruşur. Bilgi isə yoxdur. BAAS partiyasının baş katibindən sonra səfər proqramında nələrin olacağını Suriya Xarici İşlər Nazirinin müavini heyətin rəhbərinə belə açıqlamır. Bircə üzlərdəki ifadələrdən bəllidir ki, heyətin məmnuniyyəti üçün imkanları daxilində bir ev sahibi olaraq hər şey etməyə hazırdırlar.

Kortej BAAS-ın baş ofisinə yola düşür. Sürücülərimiz dəyişib. Yola çıxanda hər zaman adət etdiyim zikr çıxır dilimdən "Allah, Məhəmməd, ya Əli". Sürücü qəfil mənə tərəf çevrilir, əlini bir neçə dəfə ürəyinin üstünə vurub üzündə təbəssüm ehtiramını bildirir. Suriyada Ələvilər çoxdur. Sünni türk heyətdə bir şiənin olması sürücünü heyrətləndirir.

Sabah Dəməşqində həyat qaynayır. Mərkəzdə 10 dəqiqəlik yolda bir an elə bildim Bakıdayam. Binaları, maşınlar, ərəb əlifbası ilə yazılan çoxsaylı lövhələri gözardı edincə ortam o qədər doğma gəldi ki... Bu insanlar bizə nə qədər bənzəyirmiş? Bizim "rəngdə", bizim qiyafətimizdə... Hələ qadınlar... Dəməşqin küçələrində gəzsəydim ecnəbi olduğumu yəqin ancaq baxışlarımdan anlayardılar. Əminliklə deyirəm, İstanbulda başıbağlı qadın Dəməşqdəkilərdən çoxdur. Başörtülü qadınların bəziləri, xüsusən gənclər dar cinslərdə gəzir. Yollarda çoxlu tələbələr görürük - universitetlər adi qaydada çalışır.

Yol polisi kortejin hərəkət etdiyi yolları digər avtomobillər üçün bağlayıb. Dayanmadan sürətlə irəliləyən maşınlar qırmızı işığı keçəndə işıqfordakı kamera görüntüləri qeyd edir - savaşa baxmayaraq şəhər yollarında qayda-qanun qüvvədədir. Türk heyəti ən çox təəccübləndirən isə ərəblərin yollarda ürəkləri istəyən vaxt səs siqnallarından istifadə etməsidir. Hə, bir də ürəkləri istəyən yerdə siqaret çəkmələri. Şəhərdə savaş olduğunu ilk göstərən binalarla yanaşı həm də avtomobillərdir - 3 gündə salamat maşın görmədik. Hamısı vurulmuş, çırpılmış və düzəltdirilməmiş - para, pul da yoxdur, ehtiyat hissələri də...

BAAS-ın baş ofisi köhnə, ancaq çox geniş bir binadır. Bina 4 tərəfdən güclü mühafizə olunur. Bütün ətraf yollarda postlar qurulub, beton maneələr düzülüb. Həyətdə BAAS-ın qurucusu, indiki prezidentin atası, keçmiş prezident Hafiz Əsədin büstü var. Bütün iqtidar partiyalarının ofislərinə hakim əminlik havasını burda da hiss eləyirik. Həyətdə xeyli BAAS üzvü var. Onlar deyəsən, hakim partiya mənsublarının sürücüləridir. Bizi kənardan seyr edib aralarında pıçıldaşırlar.

**“Türkiyə və Suriyanın əraziləri hesabına qurmaq istədikləri kürd dövləti - ikinci İsraildir. Bu, bizim xalqlarımızın ortaq iradəsi ilə mümkün olmayacaq. Onlar buna kürd koridoru adını veriblər”**

**Baş katib Hilal Hilalın** qəbul otağı başdan-başa kitabxanadır. Şərq üslubunda divarlarda taxça formasında qurulan kitabxanada çoxcildli əsərlər görünür. Otağın baş tərəfində isə Suriya bayrağı və Bəşər Əsədin böyük portreti var. Qonaqları qapıda qarşılayan baş katib təlaşlanmadan sonra heyətə yer göstərir. 2-3 dəqiqə sonra kiçik fincanlarda murra gəlir. Söhbətin ortasında murranı portağal şirəsi əvəz edəcək. Bu görüş kiçik jurnalist heyətimizin başdan sona qədər izləyə biləcəyi ilk və son görüş olur. Digər bütün danışıqlar mediaya qapalı keçiriləcək. Ona görə də Hilal Hilala diqqət kəsilmişik. Bilirik ki, onun sözü sadəcə partiya rəhbərinin fikirləri deyil, Suriya prezidenti Bəşər Əsədin mövqeyidir.

Hilal Hilal Suriyanın düşdüyü böhranın özətini belə anladır: "4 il öncə iğtişaşlar başlayanda hökumət prosesə müdaxilə etmirdi. Dəməşqdə mitinqlərin keçirilməsi üçün heç bir məhdudiyyət qoyulmamışdı. Sonra xaricdən maliyyə alan həmin qüvvələrin yaratdığı qarışıqlıq vətəndaşları narahat etməyə başladı, mitinqçiləri dəstəkləməyənlər belə hökumətə qəzəb püskürməyə başladılar. Onları narahat edən şəhərin, ölkənin həyatının pozan qüvvələrə meydan verilməsi, cəzalandırılmaması idi. Nəticədə onlar da küçələrə çıxıb hökumətə tələblərini bildirməyə başladılar. Ardınca bu qruplar arasında toqquşmalar oldu, gərginlik yüksəldi. Sonra proses digər bölgələrə keçdi. İndi paytaxt Dəməşq tamamilə hökumət qüvvələrinin nəzarətindədir. Heç şübhəsiz paytaxta "sızmaq", təxribatlar, terror aktları törətmək istəyənlər var. Ancaq təhlükəsizlik qüvvələrimiz çalışır, paytaxt həyatının pozulmaması üçün əlindən gələni edir. Əsas odur, vətəndaş proseslərə doğru baxır. Bu gün sağlam düşüncəli suriyalı anlayır ki, ölkəsini, dövlətini müdafiə etməsə, gələcəyi olmayacaq. İŞİD-lə hansı gələcəkdən danışmaq olar?".

**Hilal Hilal çıxışında Qərb mediasının təbliğatından da ciddi narahatlığını bildirir:** "Qərb mediası Suriyaya silah qədər yaralar vurur. Ən birincisi ölkədə gedən savaş iç savaş kimi təqdim edilir. Bi qətiyyən belə deyil. Bu gün Suriyanın 40 faizə yaxın ərazilərini nəzarətə keçirə bilən İŞİD, Ən-Nüsra terror qruplaşmalarının kökü burda deyil. Onlar ABŞ-dan, Səudiyyə Ərəbistanından maliyyələşir. Çox təəssüf işin içərisində Türkiyə də yer alır. Çox yaxşı ki, siz burdasınız və hər şeyə özünüz şahidsiniz. İŞİD bu gün insanlığa, mədəniyyətə qarşı böyük vandallıqla məşğuldur. İnsanlar elə bir amansızlıqla qətlə yetirilir ki, düşüncə bu vəhşəti qəbul edə bilmir. Bir insan "Allahu əkbər" deyib Allahın yaratdığı ən ali varlığın necə başını kəsə, gözünü çıxara, işgəncə verə bilər? Suriya insanı qətiyyən aqressiv deyil. Bunu bütün ərəblər də bilir, Suriya ilə təmasları olan digər ölkələrin xalqları da. Bizim xalqımız bu cür vəhşilikləri törədə bilməz, törətməz. Bu dəhşəti həyata keçirən xüsusi təlim görmüş, Suriyaya kənardan gətirilmiş qüvvələrdir. Suriyanı Suriya insanının əlindən almağa çalışırlar. Ancaq bu mümkün olmadı. "Ərəb baharı" adlandırılan proses ərəb dünyasına payız gətirdi. Ancaq bu plan Suriyada yarımçıq qaldı. Bizim xalqımızın müəzzəm iradəsi sayəsində ABŞ-ın Ortadoğu projesi tamamilə iflas edəcək. Bu torpaqlarda min illərdir biz hakimik və bu hakimiyyət davam edəcək. Suriyada iqtidarda kimin qalacağına bu ölkəni yer üzündən silmək istəyən kənar qüvvələr deyil, xalq qərar verəcək".

**“İstanbulda başıbağlı qadın Dəməşqdəkilərdən çoxdur. Başörtülü qadınların bəziləri, xüsusən gənclər dar cinslərdə gəzir. Yollarda çoxlu tələbələr görürük - universitetlər adi qaydada çalışır”**

Hilal Hilal Türkiyənin Suriyaya qarşı davranışlarından böyük təəssüf hissi keçirdiyini dedi: "Prezident Rəcəb Tayyib Ərdoğan türk millətinin iradəsini oğurlayıb. Sizin necə çətinliklərdən sonra Suriyaya gələ bildiyinizdən xəbərdarıq. Ölkənizə dönəndən sonra iqtidar çevrəsinin sizə hansı münasibət göstərəcəyini də təxmin edirik. Ancaq unudulmamalıdır ki, Suriya və Türkiyə tarix boyu bir-biri ilə ən sıx münasibətdə olan, iç-içə yaşayan, problemlərini birlikdə çözən ölkələr olub. Bu səbəbdən sizin Suriya ziyarətinizə böyük önəm veririk. Türk xalqının qonşuları ilə isti münasibət qurmaq istədiyini bilirik. Ancaq bugünkü Ərdoğan iqtidarı xalqın iradəsinin əksinə getməklə, qonşularla münasibətləri ən kritik həddə çatdırıb. Türk xalqı bundan əziyyət çəkir və bu siyasət dəyişməyincə çəkməkdə davam edəcək. Ancaq hökumətlər keçici, xalqlar qalıcıdır"...

Heyət adından səfər və dəvət üçün təşəkkür çıxışına **Vətən Partiyasının sədri Doğu Perinçek** başladı: "Burada özümüzü evimizdə bilirik. Bizləri birləşdirən Türkiyə ilə Suriyanın bağımsızlığıdır. Bu gün Suriya Türkiyənin ön cəbhəsidir. Həm də təkcə Türkiyənin deyil, bütün insanlığın ön cəbhəsidir. Suriyadakı proseslərdə tərəf tutmaq bütün dünyada öz yerini müəyyən etmək anlamına gəlir. Biz buna inanırıq. Prezident Bəşər Əsədin Suriyanı toparlaya bilməsi imperializmə qarşı mübarizənin mümkünlüyünü də ortaya qoyur. Dünya gücləri 24 müsəlman ölkəsini bölmək istədilər, ancaq bunu bacara bilmədilər. Türkiyənin ərazi bütövlüyü Suriyanın ərazi bütövlüyü, Suriyanın ərazi bütövlüyü, Türkiyənin ərazi bütövlüyüdür. Bizlər Suriyaya qarşı terrorçu təhdidləri rədd edirik. Qonşudakı yanğını körükləmək sədaqətsizlik, ərdəmsizlikdir. Bizim dövlətlərimizin əraziləri hesabına qurmaq istədikləri kürd dövləti - ikinci İsraildir. Bu, bizim xalqlarımızın ortaq iradəsi ilə mümkün olmayacaq. Onlar buna kürd koridoru adını veriblər. Ancaq əmin olsunlar ki, bu proje gerçək olmayacaq. Suriya xalqının bu mübarizədə göstərdiyi iradə insanlığa nümunədir".

**Söhbəti davam etdirən Hilal Hilal AKP iqtidarının Yeni Osmançılıq düşüncəsinin mənasızlığından danışır:** "Mustafa Kamal Atatürkün qurduğu, sivil dövlət bu gün ortaçağ modelinə sürüklənir. Sizlərin dünyəvi dövlət modelinə sədaqətinizi bilirik. Ərdoğanın Yeni Osmançılıq modeli bizim fikrimizcə, nə Türkiyəyə, nə də regiona sabitlik və rifah gətirə bilməz, əksinə, Türkiyə dövlətini öz bağlarından qoparar".

Söhbətdə söz alan **Türkmən Məclisinin başqanı professor Ümid Akkoyunlu** Suriya türkmənlərinin problemindən danışır: "Əmin olun ki, türkmənlər heç bir halda Suriyanın parçalanmasını istəmir və ölkənin ərazi bütövlüyünə qarşı edilən hərəkətlərdə yer almır. Suriya türkmənlərin vətənidir. Türkmənlərin bu mövqeyini Suriya iqtidarına çatdırmağınızı rica edirəm".

**Hilal Hilal Suriya iqtidarının türkmən əhalini məqsədli şəkildə köməksiz qoyması haqda yayılan xəbərləri fitnə adlandırır:** "Biz türkmən əhalinin Suriyaya münasibətlərini bilirik. Bu savaşdan bu torpaqlarda yaşayan digər xalqlar hansı zülmü görübsə, türkmənlər də onu yaşayıb. Təbii, bu ölkənin iqtidarı, iqtidar partiyası olaraq biz bu durumdan çox narahatıq, torpaqlarımızdan terrorun ayağını kəsməyi, barış və təhlükəsizliyin bərqərar olmasını ən çox biz istəyirik. Türkmən xalqı bizim qardaşlarımızdır. Onların məqsədli şəkildə sıxışdırılması, köməksiz qoyulması haqda iddialar fitnədən başqa heç nə deyil. Bu gün şərtlər savaş şərtləridir. Və bu şərtlər çox ağırdır. Amma biz bu çətinlikləri inşallah aşacağıq".













BAAS-ın qərargahından ayrılırıq. Sonrakı görüşlər haqqında hələ də bilgimiz yoxdur.

*(ardı gələn sayımızda)*

❑ **Aygün MURADXANLI, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 51 (6079) 7 mart 2015

**Kəlbəcərli azərbaycanlılar - öz ata-babalarının məzarını ziyarət edərkən işğalçı erməni qüvvələri tərəfindən girov götürülən (üçüncü soydaşımız Həsən Həsənov öldürülüb) Dilqəm Əsgərov və Şahbaz Quliyevin məsələsi hələ ki, qaranlıq qalır. İstər ABŞ rəsmilərinin (dövlət katibinin müavini Viktoriya Nuland, Cen Psaki, amerikalı həmsədr Ceyms Uorlik), istərsə də Rusiyanın (xarici işlər naziri Sergey Lavrov, digər XİN yetkililərinin) onları ya azad, ya da mübadilə eləmək barədə çağırışlarına həlcm ki, erməni tərəfi məhəl qoymur, çağırışları isterika ilə qarşılayır.**





Şahbaz Quliyev Dilqəm Əsgərov

# Kəlbəcərli girovların işində mühüm gəlişmə

## Məsələni Avropa Şurası nəzarətə götürdü; AŞPA-nın Sədarət Komitəsinin qəbul etdiyi qərarda soydaşlarımızın məhkəmə hüququ ilə bağlı mühüm tövsiyə yer alıb; rus politoloq: "Dilqəm və Şahbaz qanunsuz rejim tərəfindən götürülmüş girovlardır..."

Paralel surətdə saxta "DQR"-in PR reklamı üçün soydaşlarımız üzərində "məhkəmə" oyunu israrla davam etdirilir. Məlum olduğu kimi, fevralın 26-da - Xocalı soyqırımının ildönümündə girovlarımızın "apelyasiya şikayəti"nə baxılıb. Ömürlük həbsə məhkum edilmiş Dilqəm Əsgərov həmin gün bir daha özünə qarşı ittihamları rədd və darmadağın edib. Heç bir sərhədi pozmadığını, heç kəsi öldürmədiyini bildirən Dilqəm "Öldürsəydim, ilk rastlaşdığım qadın-uşaqları da öldürərdim" deyib. Həmçinin, "Mənə qarşı elə ittihamlar irəli sürülüb ki, sanki Bin Laden, Basayevəm... Məni ya güllələyin, ya da həbsdən buraxın" söyləyib.

İki gün sonra - martın 10-da "apelyasiya şikayəti"nin baxış davam edəcək. Ancaq aydındır ki, bu məhkəmə oyununu uzatmaqla düşmən tərəf maksimum dərəcədə məsələnin separatçı rejimin müstəsna "səlahiyyətində" olduğunu, "bazarlığın" da məhz onunla aparılmalı olduğunu dünyaya nümayiş etdirməyə çalışır. Ancaq nə yaxşı ki, işğalçı tərəfin bu məkrli gedişi vasitəçi dövlətlər tərəfindən ciddi qəbul edilmir.

***

Bu arada Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Sədarət Komitəsi Dilqəm Əsgərov və Şahbaz Quliyevlə bağlı qərar qəbul edib. Bu haqda Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü Elxan Süleymanov məlumat verib. Deputat xatırladıb ki, o, Ermənistan işğalçı silahlı qüvvələri tərəfindən girov götürülmüş Dilqəm Əsgərov və Şahbaz Quliyevin ədalətli məhkəmə hüququnun təmin edilməsinə dair qətnamə layihəsini AŞPA-nın yanvar sessiyasında hazırlayaraq, qurumun katibliyinə təqdim etmişdi.

"Dilqəm Əsgərov və Şahbaz Quliyevin ədalətli məhkəmə hüququnun təmin edilməsinə dair" adlanan həmin qətnamə layihəsi Avropa Şurasına üzv olan 47 ölkədən 24-ü təmsil edən 46 deputat tərəfindən imzalanmışdı. AŞPA-nın prosedur qaydalarına əsasən, qətnamə təklifi ən azı 5 üzv dövləti təmsil edən 20 deputat tərəfindən imzalandıqdan sonra gündəliyə daxil edilməlidir. Göründüyü kimi, qətnamə layihəsi hazırlanarkən tam olaraq qurumun prosedur qaydalarına əməl edilib və həmin qaydalara uyğun olaraq da layihə AŞPA-nın gündəliyinə daxil edilib.

E.Süleymanov deyib ki, AŞPA Sədarət Komitəsinin dünənki iclasında qeyd edilən qətnamə layihəsi müzakirəyə çıxarılıb. İclasda həmin sənədin "Azərbaycanın Dağlıq Qarabağ və işğal olunmuş digər ərazilərində gərginliyin artmasına dair" hazırlanacaq məruzədə nəzərə alınması üçün Siyasi Məsələlər Komitəsinin məruzəçisi Robert Volterə göndərilməsi tövsiyə edilib. Növbəti addım kimi sənəd Büroda baxılmalı və Sədarət Komitəsinin tövsiyələrinə uyğun qərar qəbul edilməlidir. Sədarət Komitəsinin bu qərarı girov götürülmüş Dilqəm Əsgərov və Şahbaz Quliyevin məhkəmə hüququnun təmin edilməsinə dair AŞPA-da qərar qəbul olunması üçün mühüm addımdır.



Aleksey Sinitsin

****

Məsələyə yanaşmada müstəqil təhlilçilər də ermənilərin beynəlxalq hüququ kobud şəkildə pozduğu qənaətindədirlər. O sırada ABŞ-Azərbaycan İnkişafa Dəstək Fondunun baş eksperti Aleksey Sinitsin hesab edir ki, girovlarla bağlı bütün bu hekayət lap əvvəldən qondarma qurumun güclü təbliğatına hesablanıb (vesti.az): "Siz bircə yerli və xarici erməni nəşri belə tapa bilməzsiniz ki, "DQR"in "dövlət sərhədlərinin pozulması"ndan, heç kim tərəfindən tanınmayan "respublikanın" Əsgərov və Quliyevə münasibətdə məhkəmə prosesi keçirmək hüququndan yazmasın. Kampaniyaya hətta Ermənistanın rəsmi şəxsləri də qoşuldu. Məsələn, Ermənistanın baş prokuroru Gevork Kostanyan azərbaycanlı girovların saxlanmasını az qala "DQR"in vəzifəsi olduğunu sayıb. Guya 2001-ci ildə separatçı qurum "hərbi əsir", "hərbi cinayətkar" və s. kimi istilahları özündə əks etdirən müxtəlif beynəlxalq konvensiyalara qoşulub. Əslində isə Qarabağ separatçıları heç bir halda bu konvensiyaya qoşula bilməzlər, çünki özfəaliyyət kimi elan elədikləri "DQR" beynəlxalq hüququn subyekti deyil. Onu heç İrəvan da tanımayıb. Deməli, beynəlxalq normalara görə, Əsgərov və Quliyevin əməlləri Azərbaycan Respublikasının ərazisində baş verib və onların əməllərinin tərkibində cinayət tərkibinin olub-olmadığına da Azərbaycanın səlahiyyətli orqanları tərəfindən qiymət verilməlidir - əgər əlbəttə ki, belə əməllər varsa".

Analitik hərbi əsir götürmək hüququnun müstəsna olaraq özünün hərbi orqanları timsalında dövlətə məxsus olduğunu xatırladaraq daha sonra deyib: "Ancaq madam ki, "DQR" beynəlxalq normalara əsasən dövlət deyil, o zaman hüquqi nöqteyi-nəzərdən Dilqəm Əsgərov da, Şahbaz Quliyev də Qarabağ separatçıları tərəfindən qanunsuz şəkildə saxlanılan əsl girovlardır".

*****

Qeyd edək ki, bu yaxınlarda qəzetimizə müsahibəsində tanınmış azərbaycanlı hüquqşünaslardan biri də Dilqəm və Şahbazı terrorçuların əlində girovlar kimi xarakterizə eləmişdi. Ekspert onlardan birinin (Dilqəm Əsgərov) Rusiya vətəndaşı olduğunu nəzərə alıb bunu da söyləmişdi ki, əslində Azərbaycanla Rusiya girovları terrorçuların əlindən azad eləmək üçün birgə xüsusi əməliyyat keçirmək hüququna malikdir.

**Yəqin ki, ermənilərin girovlarımızla bağlı siyasi alveri baş tutmayacaq. Həm də ona görə ki, Azərbaycan tərəfinin də əlində həmişə olduğu kimi, düşmən tərəfə mübadilə üçün təklif edəcək erməni milliyyətindən olan şəxslər ola bilər.**

## Qarabağda qanunsuz peyda olan əcnəbi şəxslər və şirkətlərlə bağlı notalar göndərilib

### Azərbaycan hökumətinin 2014-cü il üzrə açıqladığı illik hesabatında işğal altındakı ərazilər barədə xüsusi qeydlər var...




**"Ermənistan tərəfindən işğal edilmiş ərazilərdə qanunsuz fəaliyyətlərin, xarici ölkə vətəndaşlarının işğal edilmiş ərazilərə səfərlərinin qarşısının alınması istiqamətində il ərzində davamlı tədbirlər görülüb, müvafiq notalar hazırlanaraq müvafiq ölkələrin Xarici İşlər nazirliklərinə göndərilib". Bu barədə Azərbaycan hökumətinin 2014-cü il üzrə illik hesabatında bildirilir.**

Hesabat dövründə "Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində qeyri-qanuni iqtisadi və digər fəaliyyətlərlə məşğul olan xarici şirkət və qurumların siyahısı"nın təkmilləşdirilməsi və bu ərazilərə səfər etmiş xarici ölkə vətəndaşlarının siyahısının tərtib edilməsi istiqamətində lazımi işlər görülüb: "Ermənistan tərəfindən işğal edilmiş ərazilərdə turizm potensialının təşviqi və bu ərazilərin turizm marşrutu kimi təbliği cəhdlərinin qarşısının alınması məqsədi ilə "Münaqişə zonalarının turizm baxımından təbliği və turizmin qanunsuz istifadəsinin qarşısının alınması" adlı qətnamə layihəsinin Ümumdünya Turizm Təşkilatının İcraiyyə Şurasının gündəliyinə salınması və irəlilədilməsi məqsədilə izahedici qeyd hazırlanaraq zəruri tədbirlər görülüb".

Hesabata əsasən il ərzində Ermənistanda daxili ictimai siyasi vəziyyət və xarici əlaqələri izlənilib, Ermənistanın "Avrasiya İqtisadi Birliyi" və "Gömrük İttifaqı"na üzvlüyü kontekstində Azərbaycanın maraqlarının nəzərə alınması üçün qeyd edilən təşkilatların üzvləri ilə işlər aparılıb.

**Xatırladaq ki, Azərbaycan Xarici İşlər Nazirliyi işğal altındakı ərazilərə rəsmi Bakının razılığı olmadan səfər eləmiş şəxslərlə bağlı xüsusi siyahı tərtib edib. Lakin "Arzuolunmaz şəxslər" siyahısına daxil olanların bir çoxu sonradan öz səhvini anlayaraq Azərbaycan tərəfindən üzr istədiyi üçün "qara siyahı"dan çıxarılıblar.**

YENİ MÜSAVAT
N 51 (6079) 7 mart 2015

# Dövlət sirrini yayanlara qarşı cəzalar sərtləşdirildi

## Parlamentdə hesabat verən ombudsmana məhbuslarla bağlı çağırış edildi; **Qüdrət Həsənquliyev:** "Çalışmalıyıq ki, Avropa Oyunları ərəfəsində əsaslı-əsassız həbs olunanların azadlığına nail olaq ki..."

**Martın 6-da Milli Məclisin növbəti plenar iclası keçirilib. Spiker Oqtay Əsədov iclasın gündəliyinin təsdiqlənməsindən sonra ölkə xanımlarını 8 Mart Beynəlxalq Qadınlar Bayramı münasibətilə təbrik edib. O, bayram ərəfəsində olan xanımları "yormamaq üçün" iclasın müzakirəsiz keçirilməsini təklif edib. Bununla da cari məsələlər ətrafında çıxışlara yer ayrılmadan iclas davam etdirilib.**

**Azərbaycanın İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Elmira Süleymanova** 2014-cü ilin hesabatını təqdim edərkən bildirib ki, ötən il məhkəmə qərarlarının icrasız qalması, süründürməçilik, boşanmalarla əlaqədar alimentlərin vaxtında verilməməsi narahatlıq doğurur. Buna görə də Süleymanova aliment fondunun yaradılmasını təklif edib. Pensiya təminatı və yenidən hesablanma ilə bağlı narazı qalan vətəndaşların şikayətlərinin araşdırıldığını deyən xanım ombudsman ünvanlı sosial yardımların verilməsi ilə bağlı bürokratik əngəllərin qarşısının alınması istiqamətində görülən işlərdən də danışıb. E.Süleymanova məmur özbaşınalığı ilə bağlı sorğuların vaxtında cavablandırılmaması səbəbindən vətəndaşların problemlərinin vaxtında həll olunmadığını bildirib. "İşgəncələr əleyhinə qrup nə qədər fəal çalışsa da, yenə bu sahədə nöqsanlar var" - Süleymanova deyib.

Müvəkkilin sözlərinə görə, ötən il mənzil hüququ ilə bağlı 476 müraciət daxil olub. Müraciətlərdə əsasən, yerli icra hakimiyyətləri tərəfindən fərdi mənzil tikintisi ilə bağlı müraciətlərə cavab verilməməsi, bundan əsassız imtina və süründürməçiliyə yol verilməsi, çoxmənzilli binalardan mənzil alan vətəndaşların dələduzluq yolu ilə aldadılması, dövlət ehtiyacları üçün alınan mülkiyyətin əvəzində uyğun olmayan kompensasiyanın verilməsi, təbii fəlakətin vurduğu ziyanın aradan qaldırılmasına yardım edilməsi, fərdi ev tikintisi üçün torpaq sahəsinin verilməsi və digər hallar öz əksini tapıb. Ombudsman qeyd edib ki, xüsusən qız uşaqlarının tədrisdən yayınması onu narahat edir. O, uşaqların cinsi istismara məruz qalması ilə bağlı da narahtlığını bölüşüb.

**E.Süleymanova mənzil fondunun yaradılması, gənclərin ipoteka kreditləri ilə təmin edilməsi, vətəndaşlara fərdi mənzil tikilməsi üçün müvafiq qanunvericiliyin qəbuluna ehtiyac görüb. Bildirib ki, qanunvericilikdəki boşluqlar bir sıra hallarda rüşvətxorluq hallarına şərait yaradır:** "Bundan başqa, qanunsuz məskunlaşmaya şərait yaradan tikinti şirkətlərinin yaratdığı vəziyyət sakinlərin müxtəlif problemlərlə üzləşməsinə səbəb olur. İstismarına icazə verilməyən, lakin əksər hissəsi artıq məskunlaşmış bir çox hündürmərtəbəli yaşayış binaları enerji və su ilə təchiz edilib, lakin qazlaşdırılmayıb". Onun sözlərinə görə, müvafiq yaşayış ərazilərində uşaq bağçalarının olmaması, mövcud müəssisələrin uşaqların sayı baxımından tələbatı ödəməməsi kimi problemlərlə bağlı müraciətlər də çoxdur.

"Ötən il təhsil hüququ ilə bağlı bizə 129 müraciət daxil olub. Məktəb direktorları valideyni övladını "sinifdə saxlamaq" hədəsi ilə qorxudurlar", - deyə E.Süleymanova əlavə edib.

Müzakirələr zamanı çıxış edən **deputat Musa Qasımlı** hesabatı yüksək qiymətləndirib. "KİV-lə əməkdaşlıq sahəsində ombudsmanın gördüyü işlər digər qurumlar üçün də örnək ola bilər", - deyə o bildirib.

**Əli Məsimli** məruzənin müsbət qiymətləndirilməli olduğunu vurğulayıb. Ombudsmanın hesabatındakı təkliflər bölümündə Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid və əlil olan vətəndaşların sığortasının ödənilməsi ilə bağlı təklifini o, xüsusi qeyd edib. Ə.Məsimli banklarda kreditlərin ödənilməsində dollar və manat söhbətinin ortaya çıxması ilə bağlı yaranan problemə də toxunub. O, əlaqədar təşkilatları bu problemi qanuna uyğun şəkildə həll etməyə çağırıb ki, problem Milli Məclisə yönəlməsin. Həmçinin, ipoteka kreditlərinin 50 min manatdan 70 min manata qaldırılmasını da zəruri sayıb.

**Musa Quliyev** də məruzəni müsbət dəyərləndirib və onun "hərtərəfli hazırlandığını" vurğulayıb. Deputat qeyd edib ki, məruzədə onu qane etməyən məqamlar da var. Bildirib ki, bəzi hüquq müdafiəçilərinin, KİV-lərdə çalışmış və sonradan müəyyən cinayətdə ittiham olunan şəxslərin adlarının çəkilməsi və onlara geniş yer verilməsi onu narahat edir. M.Quliyev ombudsmanı "Azərbaycana düşmən olan təşkilatlara" öz mövqeyini daha qəti şəkildə deməyə çağırıb.

**Zahid Oruc** MTN-in keçirdiyi son əməliyyatı xatırladaraq deyib ki, hazırda Suriya ilə əlaqəli saxlanılan şəxslərin sayı 30-dan yuxarıdır, bu da Milli Məclisin qəbul etdiyi qərara uyğun həyata keçirilir: "Bizim diqqət etmədiyimiz bir məqam var ki, bu 30 nəfərdən 2-si xaricdə təhsil alan şəxslərdir" - deyən Z.Oruc bildirib ki, müstəqillik dövründə dini təhsil alanların sayı 6 mindən yuxarıdır: "Odur ki, Azərbaycandakı dini məktəblərə xaricdən müəllimlərin cəlb olunmasına çalışmaq lazımdır, nəinki tələbələrin xaricdə təhsil alması. Bütün insanlarımız üçün xaricdə dini təhsil qadağan olunmalıdır. İmkan verməməliyik ki, Azərbaycana xaricdən hansısa qüvvələr öz dini modellərini ixrac edə bilməsin".



Qüdrət Həsənquliyev deyib ki, Azərbaycan Birinci Yay Avropa Oyunları keçirməyə hazırlaşdığı bir məqamda bəzi qüvvələr Azərbaycana qarşı insan haqları ilə əlaqədar təzyiqlər göstərir: "Bu faktdır ki, dünyada insan haqları ilə bağlı vəziyyət haqqında məlumatı həmin o beynəlxalq insan haqları təşkilatlarından alırlar, onların hesabatları ilə hesablaşırlar. Bu mənada Azərbaycanla bağlı da Elmira xanım öz nüfuzundan istifadə etməlidir. Biz çalışmalıyıq ki, Avropa Oyunları ərəfəsində əsaslı-əsassız həbs olunanların azadlığına nail olaq ki, Azərbaycana qarşı bu məsələdən istifadə olunmasın". Q. Həsənquliyev vergi orqanlarının sahibkarların fəaliyyətinə müdaxiləsindən də danışıb. Xatırladıb ki, indi güc strukturları, ayrı-ayrı dövlət orqanları sahibkarlardan öz məhsulunu konkret qiymətə satmasını tələb edir: "Bu da bazar iqtisadiyyatı prinsipinə ziddir. Hansı sahələrdə rəqabət aşağıdırsa, dövlət qurumları rəqabətin gücləndirməsinə nail olmalıdır. Obmudsman bu sahəyə də diqqət yetirməlidir. Çünki çoxlu sayda sahibkarlar bizə müraciət edir. Bu vəziyyət davam etsə, bir müddət sonra Azərbaycanda qıtlıq əmələ gələcək. Bəzi sahibkarlar öz mallarını anbarlarda saxlayırlar və satmaqdan imtina edirlər".

**Fərəc Quliyev** telekanallardakı "mənasız" verilişlərin əvəzinə, vətəndaşları məlumatlandırmaq üçün ombudsmana efir vaxtının ayrılmasını zəruri sayıb. Deputat sadə vətəndaşlarla yanaşı, haqlı olan məmurun da hüquqlarını qorumağa çağırıb.

**Siyavuş Novruzov** deyib ki, son vaxtlar bir qrup beynəlxalq təşkilatlar Azərbaycan haqqında olmazın şər-böhtan kampaniyasına başlayıb. Həmin təşkilatlar erməni mənşəli olanları, qrant verib onlardan "şapka" aldıqlarını müdafiə edir: "Əfsuslar ki, burda sapı özümüzdən olan baltalar da var. Bu, AXCP, Əli Kərimlidir, onun ətrafındakı kriminal tör-töküntü və erməni fondlardan aldığı qrantlar hesabına saxladığı QHT-lərdir. Vaxtilə ermənilər İrəvandan Qorbaçova ümummilli lider haqqında teleqram vururdu, indi ermənilər yenə fəallaşıb. Mehriban xanım Avropa ölkələrində Avropa Oyunlarının təqdimat mərasimini keçirir. Avropa Oyunları ilk dəfə Azərbaycanda keçirilir. Biz də bir işin qulpundan yapışmalıyıq, hər kəs öz mövqeyini bildirməlidir". Daha sonra deputat Ombudsmana xitab etdi: "İsveçrə səfirliyində neçə aylardır bir nəfəri saxlayırlar. 1 milyon 565 min qrant alıb, 240 min manatı vergidən yayındırıb. Səfirliyə məktub yazın ki, niyə oğrunu, kriminalisti saxlayırsınız, onlara dəstək verirsiniz?" Novruzov Q.Həsənquliyevin təklifini dəstəkləməyib və cinayət etmiş şəxslərin azadlığına qarşı çıxıb.

Bundan sonra Ombudsmanın məruzəsi qəbul edilib.

Daha sonra Milli Məclis Cinayət Məcəlləsinə dəyişiklik edərək dövlət sirrini yayanlara qarşı cəzaların sərtləşdirilməsini özündə ehtiva edən müddəaları təsdiqləyib. Bu barədə **Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli** məlumat verib. Məcəlləyə təklif olunan dəyişikliyə görə, şəxs tərəfindən ona etibar edilmiş və ya xidməti vəzifəsinə, eləcə də işinə görə ona məlum olan dövlət sirrini təşkil edən məlumatların yayılması, dövlətə xəyanət əlamətləri olmadıqda 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə 3 ildən 6 ilədək (bundan əvvəl 2 ildən 5 ilədək), eyni əməllər ağır nəticələrə səbəb olduqda isə 5 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə 4 ildən 8 ilədək (bundan əvvəl 3 ildən 7 ilədək) müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Xatırladaq ki, hazırkı qanunvericiliyə əsasən yalnız vəzifəli şəxslər üçün dövlət sirrini yayma cinayət məsuliyyəti yaradır. Məcəlləyə edilən mövcud dəyişiklik səsverməyə qoyularaq qəbul edilib.

Parlamentdə "Vətəndaşların müraciətləri haqqında" qanun layihəsi də müzakirə edilib. **İnsan hüquqları komitəsinin sədri Rəbiyyət Aslanova** deyib ki, layihə insan və vətəndaşın öz hüquq və azadlıqlarından istifadə edərək, konstitusion hüququ olan müraciət hüququnun həyata keçirilməsi ilə bağlı münasibətləri tənzimləmək, vəzifəli şəxslər tərəfindən müraciətlərə baxılma qaydalarını müəyyən etmək məqsədi daşıyır: "Hazırda vətəndaşların müraciətlərinə baxılma qaydaları 10 iyun 1997-ci ildə qəbul olunmuş "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" qanunla tənzimlənir. Bu iki sənəd arasında müqayisəli təhlil yeni sənədin əhatə dairəsinin nə qədər geniş olduğunu sübut edir". Komitə sədri bildirib ki, qanun layihəsi 17 maddədən ibarət olmaqla, orada "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Qanunda öz əksini tapmamış bir sıra müddəalar - vətəndaşların müraciətlərinə baxılmanın prinsipləri, müraciətlərə dair tələblər, müraciətin baxılmamış saxlanılması, nəzarətin həyata keçirilməsi, müraciətlərə baxılma zamanı vətəndaşların hüquqları, canlı yayımlanan teleradio proqramları, telefon müraciət xidməti vasitəsilə edilən şifahi müraciətlərin xüsusiyyətləri, elektron müraciət kimi yeni normalar müəyyən olunub.

**Sabir Rüstəmxanlı** müzakirələr zamanı söz alaraq məmurların ünvanına sərt tənqidlər səsləndirib. Xalq şairi məmurların, nazirlərin vətəndaşların müraciətlərinə cavab verməməsindən şikayətlənib: "Cavab verəndə də qeyri-etik müraciət edirlər. Kimsə yazır ki, hörmətli filankəs, amma cavabda heç şikayətçinin adı da yazılmır. Bəzi məmurlara zəng edəndə telefonlara katibələri cavab verir. Əgər belə olacaqsa, o zaman desinlər, biz də katibələrlə işləyək. Məmurların üzlərində buz ifadəsi olur, sanki adam qarşısında bir heykəl dayanıb. Kiminsə qəbuluna getmək istəyirsən, qabağını polis kəsir. Deyir ki, qəbula yazılmamasınsa, içəri keçə bilməzsən". S.Rüstəmxanlı onu da vurğulayıb ki, dövlət məmurlarına xidməti telefon versə də, onların hərəsinin 5-6 telefonu olur.

**Parlament dərman vasitələri üzərində dövlət nəzarətinin gücləndirilməsinə də səs verib.** "Dərman vasitələri haqqında" Qanuna təklif olunan dəyişikliklərə əsasən, nəzarət markasının forması, uçotu, istifadəsi və verilməsi qaydaları, habelə nəzarət markasının alınmasına görə ödənilən haqqın məbləği müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən ediləcək. Həmçinin, nəzarət markalarının alınmasına görə ödənilən vəsaitlər dövlət büdcəsinə köçürüləcək, həmin vəsaitlərin dövlət büdcəsinə daxil olmasına nəzarət edilməsi və uçotunun aparılması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən ediləcək. Bununla yanaşı, müvafiq icra hakimiyyəti orqanı nəzarət markalarının hazırlanmasını təmin edəcək. Qanun layihələri müzakirələrdən sonra səsə qoyularaq qəbul edilib.

❑ **Elşad PAŞASOY**

# Eks-deputat vətəndaşı evini təmir etməyə qoymur

## Telman Ağamirovun hüquqları tapdanır; Dünyamin Xəlilov isə məsələyə "aydınlıq" gətirəcəyini deyir

**Bakıda dələduz Mənzil Tikinti Kooperativi (MTK) rəhbərləri üzərində məhkəmələr, səs-küylü həbslər bir-birini əvəzləyir. Amma proses dayanmır. Belə görünür ki, pul qazanmaq hərisliyi hər cür qanunçuluğu üstələyir.**

Redaksiyamıza müraciət edən Bakı sakini Telman Ağamirov deyir ki, 2009-cu ildə aldığı mənzilinin sənədləri əlindədir, amma mənzildə təmir işləri apara bilmir. Səbəb də sadədir - eks-deputat Dünyamin Xəlilov mənzilin yerləşdiyi binanın mühafizə xidmətinə göstəriş verib ki, T.Ağamirovun mənzilində təmir aparacaq ustaları ora buraxmasın!

**T.Ağamirov deyir ki, 2009-cu ildə Nəsimi rayonu, Bakıxanov küçəsi ev 26, blok 1, mənzil 1-i alıb. Alqı-satqı müqaviləsi T.Ağamirovla "Dostluq" MTK arasında bağlanıb:** "Müvafiq məbləği ödədikdən sonra şirkət maliyyə arayışını təqdim etdi. Həmin maliyyə arayışını Dövlət Reyestr Xidmətinə təqdim edib kupça aldıq. Həmin mənzil Rusiya səfirliyi yaxınlığındakı məşhur "Saatlı bina"da yerləşir".

**T.Ağamirovla qeyd olunan ünvala yollandıq. MTK-nın icraçı direktoru Rauf Cəfərov işdə deyildi.** Bunanın mühafizə xidmətinin rəisi Elnur Məmmədov R.Cəfərovun işə nə vaxt gələcəyindən də xəbərsiz olduğunu dedi. Bildirdi ki, T.Ağamirov mənzilində təmir aparmaq istəyirsə, məhkəməyə müraciət etməlidir. Bununla belə E.Məmmədov "vətəndaş hansı səbəbdən məhkəməyə müraciət etməlidir" sualına cavab verə bilmədi. Mühafizə rəisi sualımıza cavab olaraq bildirdi ki, M.Ağamirovun mənzilində təmir aparacaq ustaların binaya buraxılmamasını göstərişini MTK-nın icraçı direktoru verib.


Telman Ağamirov "Dostluq" MTK-nın mühafizə xidmətinin rəisi Elnur Məmmədovdan ustaları mənzilinə buraxmamasının səbəbini soruşur


Elnur Məmmədov ona göstərişi Raud Cəfərovun verdiyini deyir



Eks-deputat Dünyamin Xəlilovu "Saatlı bina"ya bağlayan nədir?

R.Cəfərovla da əlaqə saxladıq. O, öz növbəsində T.Ağamirovun mənzilə dair mülkiyyət hüququnu təsdiqləyən sənədin - kupçanın olduğunu təsdiqlədi. Bildirdi ki, eks-deputat Dünyamin Xəlilov T.Ağamirovun mənzilində təmir işləri aparmasına icazə vermir.

D.Xəlilovla da əlaqə saxlayıb məsələyə aydınlıq gətirməsini xahiş etdik. Eks-deputat müxbirimizlə martın 10-na görüş təyin edərək, məsələyə o zaman aydınlıq gətirəcəyini söylədi.

Maraqlıdır ki, R.Cəfərov eks-deputatın hüquqi baxımdan MTK-ya aidiyyatının olmadığını söyləməkdən çəkinmədi. Bununla belə D.Xəlilovun göstərişlərini hansı səbəbdən icra etdiklərini də açıqlamadı.

E.Məmmədov, R.Cəfərov faktiki olaraq vətəndaşın mülkiyyət hüququnu məhdudlaşdırırlar. Onun Konstitusiya ilə qorunan mülkiyyət hüququndan irəli gələn sahiblik, istifadə və sərəncam vermək hüququna qarşı çıxırlar. Özü də bunu bilə-bilə etdiklərini də gizlətmirlər. Bütün bunlarsa cinayət əməlidir.

**T.Ağamirov deyir ki, artıq cana doyub, kirayələrdə qalmaq üçün daha maddi imkanı yoxdur:** "Mənə qarşı baş verənlər qanunsuzluqdur. Dünyamin Xəlilovun mənim şəxsi mülkümə müdaxilə etməsi cinayət əməlidir. Mən polisə və prokurorluğa müraciət edəcəm. Eləcə də, ölkə prezidenti İlham Əliyev cənablarına müraciət hazırlamışam. Onlar mənə hər dəfə dil tökürlər ki, bir az səbr edim, düzələcək. Lakin düzələn heç nə yoxdur, artıq son həddir və mən daha gözləməyəcəm. Mənim mənzilimin üstündə kim nə oyun oynayır, onu da anlamıram ".

Mövzuya qayıdacağıq.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Aslan Aslanovun Şəmkirdəki məşhur stadionunu sökürlər

## Eks-nazir müavini sökülən stadiona görə 15 milyon pul istəyib; ona pul ödəməyiblər...












**"Lamiyə işi"ndə əsas fiqurant, Şəmkirin sabiq icra başçısı, sonradan kənd təsərrüfatı nazirinin müavini olmuş Aslan Aslanovun stadionunu sökürlər. Vaxtilə "Aşıq Teymur" sovxozuna məxsus olan stadiona A.Aslanov Şəmkirin icra başçısı olarkən sahib çıxıb.**

1 həftə əvvəl isə stadionun söküntüsünə başlanıb, əraziyə ağır texnikalar gətirilib. Şəmkirdə olarkən stadiona da baş çəkdik. Ərazidə söküntü işlərinin aparıldığına şahid olduq. Sakinlər deyir ki. stadion 2000-ci illərdən bağlı qalıb. 15 il müddətində stadionun bağlı qalması da A.Aslanovun orada futbol və digər oyunların keçirilməsinə icazə verməməsi olıb. Şəmkirdə yayılan söhbətlərə görə bir müddət əvvəl A.Aslanovu rayona dəvət edib stadionu dövlətə satmasını təklif ediblər. Sabiq nazir müavini ona təklif olunan məbləğlə razılaşmayıb. Sakinlər A.Aslanova 3 milyon manat təklif edildiyini, o isə daha artıq istədiyini deyiblər. A.Aslanovun tələb etdiyi məbləğ veriləndən 3-5 dəfə çox olub - 10-15 milyon manat. Bununla da A.Aslanovla sövdələşmə bitib. Sökülən stadionda vaxtilə bütün respublikaya səs salan "Şəmkir" futbol klubunun əsas məşq yeri olub. 3 il ardıcıl ölkə çempionu olan futbol klubu sonradan stadiondan qovulub. Şəmkirdə danışırlar ki, komandanın stadiondan qovulması klubun prezidenti, "Saşa" kimi tanınan Şahbaz Süleymanovla Aslan Aslanovun münasibətlərin korlanmasından sonraya təsadüf edib.

"Şəmkir" komandası növbəti qələbədən sonra yarım milyon mükafatı qazanıb. Həmin vaxt A.Aslanov Ş.Süleymanovu yanına dəvət edib və ondan mükafatın 80 faizinin ona verilməsini istəyib. Bu zəmində yaranan mübahisə A.Aslanovun komandanı stadiondan qovdurması ilə nəticələnib. Sakinlər deyir ki, stadion faktiki A.Aslanovun olsa da, adamlarının adına sənədləşdirilib. Onu da öyrəndik ki, sökülən stadionun yerində istirahət parkı salınacaq. Stadion isə digər məkandan inşa edilərək "Şəmkir" futbol komandasının sərəncamına veriləcək.

❑ **E.MƏMMƏDƏLİYEV**
**Fotolar müəllifindir**

# İti beyinin tətbiqat yeri



**Samir SARI**

**İsveçrədə yaşayan yazıçı Əli Əkbər o gün xalqımızın müstəsna istedadı, qabiliyyəti, dürlü məziyyətləri barədə əla bir yazı yazıb. Çox xoşuma gəldi.**

Qərib eldə yaşayan yazıçıdır, gendən belə mətləbləri incə şəkildə xırdalaya bilir, ona görə də yazısı yaxşı alınıb. Hərçənd ona da dirəşmək olar ki, qaçıb gedib oturmusan İsveçrədə, qədirşünas və qonaqpərvər xalqımız haqqında artıq-əskik şeylər yazırsan, ar olsun. Ancaq bir kimsə sakın Əli Əkbərə belə irad bildirməsin. Birincisi, o nə yazırsa, çoxunu düz yazır, ikincisi, adamda utanan, ifallanan üz, "mənə söyüblər, mən söyməyim, onun səviyyəsinə düşməyim" deyəcək dil yoxdur, vallahi, qayıdıb adama elə cavab verər ki, budaqda kal qalmaz, dəymiş qalmaz.

Xüləs, burda söhbət yazıçının yazısından gedir. Əlinin yazısında əsas qayə bu idi ki, biz unikal xalqıq, odda yanmaz, suda batmaz bir qövmük, bütün tarixi təlatümlərdən, keşməkeşlərdən başımızı salamat çıxarmağı bacaran millətik, bizə zaval yoxdur.

Gerçəkdən də elədir. Biz fərasətli camaatıq, dəyirmanın boğazından ölü girib, diri çıxan xalqıq. Hara düşsək, uyğunlaşmağı bacarırıq. Hətta bizdən biri bu gün gedib Seneqala çıxsın, 5-10 il sonra orda barmaqla göstərilən iş adamı olmasa, nə deyirsiniz, durmuşam.

Deyilənə görə, ermənilər oturub-durub deyirlər ki, yer üzündə azərbaycanlılar qədər hiyləgər millət yoxdur, onlarla şeytan da bacarmaz.

Düzdür, biz də erməniləri elə bilirik, hətta yeri gələndə deyirik, guya onlar çox ağıllıdırlar. Amma bircə faktı deyə bilərəm ki, əgər İrəvanın iaşə, xidmət, ticarət sahəsi bizimkilərin əlində olsaydı, dövlət vəzifələrində çoxlu azərbaycanlı çalışsaydı, yüz il yüz ilə qala biz separatçılıq etməzdik, ağlımız kəsərdi ki, ermənilərlə dalaşmaq, ayrılmaq nəyimizə lazımdır, hazır elə bəy kefində yaşayırıq də.

Ermənilərin isə buna ağılları çatmadı, cənnət Bakını, Gəncənin yarısını əldən verdilər. İndiyə qalsaydılar, Bakının da yiyəsi özləri olardı, Gəncənin də, Qarabağın da.

Dünən dostlardan biri azərbaycanlı beyninin nəyə qadir olduğuna dair bir əhvalat danışıb. Heç demə, bu yaxınlarda oğlu əsgərlik yaşında olan bir kişi qohum-əqrəbaya, qonşulara duy vurub ki, oğlu əsgərliyə gedir, məclis var, yığışın gəlin. Qonaqlar (dayılar, əmilər, bacanaqlar və b.) gəliblər, yeyib-içiblər, hərbi xidmətə gedən çağırışçı gəncə sağ-salamat qayıtmağı arzulayıblar və hərəsi 50-dən 100-dən gəncin cibinə pul basıblar. Qonaqlar gedəndən sonra əsgər atası olmağa hazırlaşan kişi görüb ki, babat pul yığılıb. O, ertəsi gün həmin pulu götürüb, kimə verməlidirsə verib və oğlunu əsgərlikdən saxlatdırıb.

Daha bir bənzər hadisə öz qəsəbəmizdə olub. Bunu o gün bərbər saçımı qırxa-qırxa danışdı. Onun dediyinə görə, 3-4 il əvvəl tək oğluna mağar toyu edib babat pul yığmış Filankəs (o, adını dedi, mən yazmıram) artıq həyat yoldaşından ayrılmış oğluna ikinci dəfə toy eləmək istəyib və hamıya dəvətnamə göndərib. Hardansa bir çox adama sızıb ki, əslində bu dəfə ortada gəlin-filan söhbəti yoxdur, məqsəd sadəcə toy çaldırıb pul yığmaqdır. Toya dəvət edilən 300 qonaqdan cəmi 50-60-ı gəlib və toy hesabına irəli düşmək istəyən adam xeyli geri düşüb. Görünür, adam nələrisə düz hesablamayıb.

Biz dünyaca ünlü fırıldaqçı Viktor Kojenini, ona inanan amerikalı milyarderləri soyan ölkənin vətəndaşlarıyıq.

4-5 dinin ayinlərini bir-birinə qatıb icra edən toplumuq.

Dünyaya saxta mal sırıyan çinlilərə saxta sənədlərlə pul atan oğullarımız var.

100 ildir Anadolu türklərinin başına oyun açan erməniləri öz silahları ilə susduran, "biz genosid törətməmişik" deyə izahatlar verməyə məcbur edən adamlarıq.

Almaniyada özünü itə dişlətdirib təzminat alan oğullarımız var.

Hollandiyada özünü cinsi azlıq kimi təqdim edib oturum alan heteroseksual kişilərimiz var.

Rusiyada Kalininqraddan Xabarovska qədər hər kəsə ata-ata gəzən minlərə vətən oğlumuz var.

İŞİD-ə 1500 dollar kəf gələn, daha sonra bu barədə informasiya verən saytlardan da pul qoparmağa çalışan dələduzun barəsində isə bu yaxınlarda oxumusunuz.

**Bir sözlə, bizimkilərdə iti beyin, dərin düşüncə, analitik təfəkkür var. Bəlkə yaponların, yəhudilərin beynindən bir-iki qırışı az olar, amma bu beyin güclü beyindir. Sadəcə, biz beynimizi məşhur lətifədə deyildiyi kimi, qarpıza, fırıldağa işlədirik.**

# Talassemiyalı İlhamə: “Mənə kömək edin”

**“Mənim adım İlhamədir. Bəlkə də həyatda ən çox hədiyyə alan qız mənəm, 7 yaşım olmasına baxmayaraq. Mənə doğulduğum gündən yüzlərlə insan öz qanını hədiyyə edir. Bu hədiyyələr məni yaşadır, amma içindəki dəmir məni həm də öldürür, qara ciyərimə, dalağıma çökür və aylar keçdikcə mən ölürəm... Mənə yenə hədiyyə edin... Bu dəfə qan istəmirəm sizdən. Mənim yaşamağım üçün 7 və 8 martda Park Bulvarda yardım aksiyasına gəlib, mənə dəstək olun”.**



Bu sözlər irsi qan xəstəliyindən - beta talassemiyadan əziyyət çəkən 7 yaşlı İlhaməyə aiddir. Körpəlikdən ayda 2-3 dəfə bədəninə vurulan qan və hər gecə inyeksiya yolu ilə - çox ağrılı proseslə bədəninə köçürülən disferal hesabına yaşayır.

Amma bu da çox davam edə bilməz, çünkü dalaq və qara ciyəri şişdiyi üçün təcili əməliyyat olunub bu xəstəlikdən birdəfəlik canını qurtarmalıdır. Bu əməlyyat baha olduğundan ailənin maddi imkanı çatmır. Körpə İlhamə hər dəfə anasından “mən nə vaxt sağalacam?”-deyə soruşur... Naəlac ana göz yaşlarını gizlədərək ona əməliyyat olunub sağalacaqsan deyir, ümid, vəd verir...

“Mən Günay Əsgərova - bir ana kimi sizlərin hər birinizi mənə kömək etməyə, səsimə səs verməyə, mənə dəstək olmağa, körpə balamı sağaltmaqda mənə yardım etməyə səsləyirəm. Birinci övladımı da qan xərçəngi əlimdən aldı, sizlərə yalvarıram, mənə kömək edin ki, İlhaməni yaşada bilim. O mənim bircə balamdır, həyatda son ümidimdir...

Xahiş edirəm sizdən, biganə qalmayın. Hətta edə biləcəyiniz ən kiçik yardım da İlhamənin sağalması üçün bir addımdır. Kömək edin ki, balaca İlhamə də əməliyyat olunsun, özündə güc tapıb həmyaşıdları ilə oynaya bilsin, üzü gülsün. Allah xatirinə kömək əlinizi uzadın..."

İlhamə üçün illərlə donor gözlədikdən sonra bir ümid yeri, Almaniyada Tubingen Klinikasında əməliyyat olunmaq və sağalmaq şansı yaranıb. İlhaməni bu şansdan məhrum etməyək... Hər birinizin köməyinə ehtiyacı var qızcığazın, onun çağırışı səs verək...

Nəzərə çatdıraq ki, daha əvvəl də İlhamə ilə bağlı xeyriyyə aksiyaları keçirilib. 7 və 8 martda növbəti xeyriyyə aksiyasıdır.

Əlaqə nömrəsi: 0559895474 el:0559895474

Hesab: AZ97U-BAZ10053562041010AZN002

Benefisiar Bank: Unibank CB, SWIFT adresi: UBAZAZ22 (Baku, AZ, Azerbaijan)

Benefisiar Bankın Hesab N-si: AZ46NABZ01350100000000015944

Vasitəçi Bank: Azərbaycan Respublikası Mərkəzi Bankı

Kod: 505754 VÖEN: 1300017201

## Təbrik



**1 Mart İsrafilova Leylanın 1 yaşının tamam olduğu gün. Balaca Leyla xanımı bu münasibətlə nənəsi Esmira, dayısı Qalib, atası Emin, anası Ruqiyyə təbrik edirlər. Arzu edirik ki, kədər səndən uzaq olsun və gələcək günlər daim sənə yaxşı əhval-ruhiyyə bəxş etsin!**

## «Bakcell» əməkdaşları Dünya Mobil Konqresində iştirak edib

**Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi «Bakcell» şirkətinin əməkdaşları 2-5 mart tarixlərinində İspaniyanın Barselona şəhərində keçirilən Dünya Mobil Konqresində (Mobile World Congress) iştirak edərək bir çox maraqlı müzakirələrə qatılıb və görüşlər keçiriblər.**

**Dünya telekommunikasiya bazarının ən nəhəng iştirakçılarının təmsil olunduğu bu nüfuzlu beynəlxalq tədbirdə ən son mobil texnologiylar nümayiş etdirilir, telekommunikasiya sahəsindəki innovasiyalar, gələcək planlar müzakirə olunur: http://goo.gl/1NJhB2**

**«Bakcell» şirkəti hər il müxtəlif ölkələrdə təşkil olunan yüksək səviyyəli telekommunikasiya tədbirlərində iştirak edir. Barselonada keçirilən bu tədbir dünya mobil rabitə bazarı iştirakçıları üçün çox əhəmiyyətlidir. Hər il olduğu kimi çox maraqlı və məşğul bir həftə keçdi. Yeni texnologiyalar, yeni mobil cihazlar, bizim yaxın vaxtlarda kommersiya istifadəsinə verməyə hazırlaşdığımız 4G, ondan sonrakı mərhələ olan 5G. Bir sözlə, yeni bir çox şeylər. Telekommunikasiya sənayesi üçün çox maraqlı bir həftə idi”, deyə «Bakcell»in baş icraçı direktoru Riçard Şirer bildirib: goo.gl/XDr7WA**

**Konqres çərçivəsində keçirilən “İnnovasiyaların Operatorlara Satılması” (“Selling Innovations to Operators”) sessiyasında «Bakcell»in Korportaiv Strategiya departamentinin rəhbəri Mark Zırka da iştirak edib. Burada startap üçün ən yaxşı strategiyalar, innovasiyalar, dünyadakı mobil operatorlar üçün strategiya və təchizat məsələləri, onlayn platformaların telekommunikasiya sənayesində yeri və s. məsələlər müzakirə olunub.**

**Mark Zirka «Bakcell»in Azərbaycanda startap mühitinin inkişafına dəstəyindən, eyni zamanda ölkədə yeni mobil applikasiyaların yaranmasını dəstəkləyən Applab layihəsi haqqında da danışıb.**

**“Bu tədbir bizə dünyadakı müxtəlif startapların ehtiyaclarını daha yaxşı başa düşməyə imkan yaratdı. Biz eyni zamanda burada öz mesajlarımızı da çatdıra və «Bakcell»in startapların inkişafı üçün qitələrarası səviyyədə tanınan və dəstəklənən bir ekosistem təmin etdiyini göstərə bildik", deyə Mark Zırka bildirib.**

**«Bakcell» şirkəti bu il ilk dəfə olaraq azərbaycanlı bloqqerin Dünya Mobil Konqresində iştirakını təmin edib və Barselonada nümayiş olunan ən son yeniliklər, mobil cihazlar və keçirilən tədbirlər barədə video xəbərləri özünün rəsmi Facebook səhifəsində yerləşdirib. Beləliklə, mobil texnologiyalar sahəsindəki ən son yeniliklər qısa bir müddət ərzində Azərbaycandilli İnternet istifadəçilərinə təqdim olunub. Siz də by yenilikdərən xəbər tutmaq istəyirsinizsə, “Bakcell”in Facebook səhifəsini iziləyin: https://www.facebook.com/bakcell**

## Ali təhsil proqramlarından “Bədən tərbiyəsi” fənni çıxarılıb

**“Bu gün tələbələrlə iş, xüsusilə tərbiyə işi, onların asudə vaxtlarının təşkili və bir vətəndaş kimi formalaşmasında ali təhsil sisteminin rolu əvəzsizdir”. APA-nın xəbərinə görə, bunu təhsil naziri Mikayıl Cabbarov Azərbaycan Memarlıq və İnşaat Universitetinin Memarlıq fakültəsinin Təhsil Nazirliyi tərəfindən əsaslı təmir olunmuş tədris binasının açılış mərasimində çıxış edərkən deyib.**

Onun sözlərinə görə, bu gün tələbələrlə işin qurulması əvvəlki dövrlə müqayisədə xeyli çətinləşib: “Çünki hər bir tələbə, o cümlədən insanlar üçün rəqabət yüksəlib, amma vaxt daralıb. Düşünürəm ki, bu istiqamətdə bir çox təcrübələrə baxa bilərik. Ali təhsil müəssisələrində maraqlar üzrə istiqamətlər inkişaf etdirilməlidir”.

**Nazir qeyd edib ki, ali təhsil proqramlarından “Bədən tərbiyəsi” fənni çıxarılıb:** “Biz düşünmürük ki, bədən tərbiyəsi ali təhsil sistemi üçün əhəmiyyətli deyil. ?slində bu o dərəcədə əhəmiyyətlidir ki, ali təhsil sistemində biz onun real inkişafı və dəstəklənməsi üçün yeni alətlər verməyə hazırıq. Lakin ali təhsil sisteminin ixtisaslarında məhdud müddət ərzində hüquqşünas, memar və ya maliyyəçi olmaq üçün ali təhsil səviyyəsində bədən tərbiyəsinin bağlantısını görmürük. Biz görürük ki, tələbələrin bir qismi güləşlə, futbolla maraqlana, bir qismi isə oxu zallarından zövq ala bilər”.

**M.Cabbarov deyib ki, missiya peşəkarın hazırlanması ilə yekunlaşa bilməz. Onun sözlərinə görə, nazirlik bu istiqamətdə fəaliyyətin dəstəklənməsi üçün təklifləri qəbul etməyə və dəstəkləməyə hazırdır:** “Mən səmimi olaraq inanıram ki, biz tələbələrlə ali təhsil sistemində daha faydalı və fəal şəkildə işləyə bilərik”.

## Kürdəmirdə güllələnmə

**Kürdəmirdə qətl hadisəsi baş verib. ANS PRESS-in Daxili İşlər Nazirliyinin mətbuat xidmətinə istinadən verdiyi məlumata görə, hadisə martın 5-də Kürdəmir rayonunun Axtaçı Qarabucaq kəndində qeydə alınıb. Naməlum şəxs tüfəngdən atəş açaraq Axtaçı kənd sakini Neman Budaqova xəsarət yetirib. Nəticədə N.Budaqov hadisə yerində ölüb.**

Kürdəmir rayon polis şöbəsinin əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni münaqişə zəminində törətmiş kənd sakini Toğrul Bağırov tutulub. Faktla bağlı cinayət işi başlanıb, araşdırma aparılır.

## Sahibkarlara 27,5 milyon manatdan çox güzəştli kredit verilib

**Martın 6-da İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu (SKMF) Yevlax rayonunun Kövər kəndində sahibkarlığın güzəştli kreditləşdirilməsi məsələlərinə dair işgüzar forum keçirib.**

İqtisadiyyat və Sənaye Nazirliyindən “APA-Economics”ə verilən məlumata görə, biznes forumda 80-ə yaxın sahibkar iştirak edib.

SKMF-in icraçı direktoru Şirzad Abdullayev bildirib ki, bu il ərzində 842 sahibkara 27,6 mln. manat güzəştli kredit verilib. Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması 2 000-ə yaxın yeni iş yerinin yaradılmasına imkan verir.

O qeyd edib ki, ümumilikdə, indiyədək Aran iqtisadi rayonunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 9 766 investisiya layihəsinin maliyyələşdirilməsinə 415,5 mln. manat güzəştli kredit verilib, digər sahələrlə yanaşı, müasir texnologiyaların tətbiqinə əsaslanan logistik mərkəzlərin, quşçuluq fabriklərinin, cins iri buynuzlu heyvandarlıq komplekslərinin, çörək zavodlarının, meyvə-tərəvəz, ət, süd emalı, quru meyvə, tikinti materiallarının istehsalı müəssisələrinin, iri fermer, üzümçülük təsərrüfatlarının yaradılması və s. sahələr üzrə investisiya layihələri maliyyələşdirilmiş, 33 400-dən çox yeni iş yerinin açılması imkanı yaradılıb.

İşgüzar forum çərçivəsində Yevlax və ətraf rayonlardan olan 54 sahibkara 1,4 mln. manat güzəştli kredit verilib. Verilmiş kreditlər əsasən, heyvandarlıq, əkinçilik, quşçuluq və s. sahələrin inkişafına yönəldiləcək. Bu kreditlərin reallaşdırılması hesabına 80-dən çox yeni iş yerinin açılması mümkün olacaq.

## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## Təcili satılır

**Lökbatan qəsəbəsinin mərkəzində, H.Əliyev parkının yanında 220.kv.m evrotəmirli, 2 mərtəbəli, 7 otaqlı döşəməsi parket, qapıları və pilləkənləri palıd ağacından, telefonu, qarajı, hamamı, mətbəxi, həyətində meyvə ağacları olan 3 sot torpağın üzərində tikilmiş villa**

TƏCİLİ SATILIR.

**3-cü mərtəbəni də tikmək olar (mansard).**
**Qiyməti razılaşma yolu ilə (Real qiymətdən ucuz)**
**Əlaqə telefonları**: 077 - 769 - 59 - 10; **070** - 365 - 98 - 40; 012 - 497 - 43 - 04

## Elan

**Jeleznovodsk şəhəri, stansiya Beştau, Qlinki-15 ünvanında ikimərtəbəli binanın 1-ci mərtəbəsində tam təmirli 2 otaqlı mənzil, kombi sistemi ilə təchiz olunub, avadanlıqları ilə birlikdə Bakı şəhərinin istənilən yerində mənzillə dəyişdirilir.**
**Əlaqə nömrəsi: +79283706928**

YENİ MÜSAVAT
N 51 (6079) 7 mart 2015

**“Qarabağ partizanı” kimi tanınan və 2004-cü ildə ömürlük həbsə məhkum edilən Məmməd Məmmədovun vəziyyəti ürəkaçan deyil. İndiyə qədər iki dəfə əməliyyat olunan gənc fəal, artıq üçüncü əməliyyatla üz-üzədir.**

**Ailənin yeganə övladı olan M.Məmmədovun anası Təranə Məmmədova 12 ildir tək-tənha yaşayır. Oğlunun azadlığa çıxacağı günü gözləyir. Artıq ananın ümidləri bitmək üzrədir. Bütün aidiyyəti orqanlara etdiyi müraciətlər cavabsız qalıb.**



# Ömürlük həbs almış “Qarabağ partizanı”nın ürək dağlayan hekayəti

## Məmməd Məmmədovun anası 12 ildir oğlunun yolunu gözləyir; **Təranə Məmmədova:** “Dəstənin başçısına 9 il, oğluma ömürlük cəza... Ədalət budur?...”

M.Məmmədovun yeganə “cinayət”i Qarabağda ermənilərə qarşı vuruşmaq üçün yaradılan “Qarabağ partizanlar” qrupunun üzvü olması olub. Maraqlıdır ki, həbs edilən dəstə üzvlərinin hamısının üzərindən mütəşəkkil dəstə yaratmaq ittihamı götürülüb, hazırda hamısı azadlıqdadır - təkcə Məmmədovdan başqa...

“Qarabağ partizanı”nı yenidən yaddaşlara qaytarmaq üçün övlad həsrəti ilə qovrulan Təranə Məmmədova ilə söhbət etdik.

***- Təranə xanım, Məmmədsiz 12 ili ana olaraq necə keçirdiniz?***

- Çox çətindir. Bu müddətdə yalnız dörd divara baxmışam. Övladsız yaşamaq ağırdır. Özü də bilə-bilə ki, vəziyyəti çətindir. Hara baxırsan, gedirsən onun yoldaşlarını görürsən. İstər-istəməz pis olursan. Onun yaxşı yoldaşları var idi. Həmişə deyirdi ki, torpağa bağlıyam, mən də müharibəyə gedəcəyəm - vətəni qorumağa. Torpağı qorumaq üçün getdi və ömürlük cəza aldı.

***- Məlum hadisələr olan o dövrü necə xatırlayırsınız?***

- Oğlumun tutulan dövrünü çox pis xatırlayıram. Ağır günlər keçirmişəm. Həyəcanlı günlərim olub. Bu günə qədər ağlaya-ağlaya gəlmişəm.

***- Məmmədə verilən ömürlük cəzaya münasibətiniz?***

- Bu cəza ilə razılaşmıram. Onun özünün törətdiyi cinayətə görə, cəza verilməyib. Səbəbini bilmirəm. Hökumət yaxşı bilər. Heç bir siyasi fəaliyyətlə məşğul olmayıb. Tutulduğu vaxt özüm çox işlətmirdim. Əsgərliyə gedəcək deyə. Ağlıma gəlməzdi ki, Məmməd belə bir işə gedər. 20 yaşından əvvəl bir dəfə həbs olundu. Sərhədi keçdiyinə görə, tutulmuşdu. 5 aylıq istintaqdan sonra azadlığa çıxdı.

***- Bildiyimiz qədər, Məmmədin yoldaşlarının hamısı azadlıqdadır. Yalnız o, həbsdə qalıb...***

- Səbəbini özüm də bilmirəm. İçəridə yalnız Məmməd qalıb. İşinin ayrılması səbəbi də məlum deyil. Əgər bu dəstədirsə, necə bütün cinayət oğlumun üzərində qala bilər? Özü də dəstənin ən kiçik yaşlısı oğlum olub. Cinayət törətsə belə, deməli dəstə ilə bir olub.

***- Özü həbsdə qalmağına nə deyir?***

- Azadlığa çıxacağına ümidi var. Deyir ki, inşallah, Qarabağ müharibəsi başlasa, birinci məni aparacaqlar. O günü gözlədiyini deyir. Yalnız belə olarsa, azad olunacağına ümid edir. Özü heç bir orqana müraciət etmir. Ona deyirlər ki, əfv üçün müraciət et. Əfv Komissiyasından dəfələrlə istəyiblər. Oğlum deyir ki, cinayət törətməmişəm, ona görə əfvə necə müraciət edim? Amma mənim müraciət etmədiyim yer qalmayıb. Prezidentə, Mehriban xanıma, deputatlara və bütün aidiyyəti insanlara müraciətlərim olub. Prokurorun qəbulunda olmuşam. O, mənə dedi ki, oğlun vəhhabilərə qoşulub. Döymədiyim qapı olmayıb. 12 ildə bir dəqiqə dayanmamışam. Elə olub ki, cavablar belə verilməyib.

***- Həbsxanaya görüşə gedirsiniz?***

- İki aydan bir gedirəm. Saxlanma şəraitinin pis olduğunu, işgəncələr verildiyini deyə bilmərəm. Səhhətində ciddi problemlər var. İki dəfə əməliyyat olunub. İndi üçüncüyə hazırlaşır. Təzə əməliyyat olunduğu vaxt onları incitmişdilər. Oğlumun əməliyyat yerinin üzərindən vurmuşdular. İndi o yerdə problem yaranıb.

***- Məmməd əfv müraciəti etməsə də, verilən əfv sərəncamlarında nəyəsə ümid edirsiniz?***

- 12 ildə o qədər müraciətlərim olub ki, artıq heç nəyə ümidim qalmayıb. Bundan sonra heç nə gözləmirəm. Avropa Məhkəməsinə qədər getdim. Nəticə olmadı. Qanunsuz silahlı birləşmə ittihamı tək Məmmədin üzərində qalıb. 22 nəfər olublar. 21-dən bu ittihamı götürüblər. Tək adamdan dəstə olar? Açıqlamırlar ki, oğlum yeddi ölümü haradan edib? 3 maddə üzrə ayrı-ayrılıqda Məmmədə ömürlük veriblər. Hansı ki, o maddələrə ömürlük iş yoxdur. Qəsdən adam öldürmədə 7 -12 il arası cəza var. Amma oğluma ömürlük veriblər. Heç bir əsas yoxdur. Atışmada oğlum qaça-qaça arxaya güllə atıb. Məhkəmədə vəkil sübut etdi ki, ölən adama dəyən güllə Məmmədin tapançasından çıxmayıb. Lap olsun belə. Təsadüfən atılan güllə ilə ömürlük düşər? Müstəntiqlər öz aralarında danışıqları zamanı bildiriblər ki, bunlar qanunsuz silahlı dəstə yaratdıqlarına görə məhkəməyə ömürlük qərar çıxarmaq üçün tapşırıq verilib - digərlərini qorxutmaq məqsədilə. Sadəcə məsələ ictimailəşdiyi üçün başqalarının üzərinə getmədilər. Məmmədə iş veriləndə cəmiyyət arasında onun barədə məlumat yox idi. Ona görə işini ayırıb ömürlük verdilər. Öyrənəndən sonra aydın oldu ki, bu cəza verilə bilməz. Uzağı 10 il düşürdü. Ana olaraq 15 ilə razı idim. Cavan ömrü məhv oldu. Bundan sonra nəyə lazımdır? Demirəm ki, oğlumun günahı yoxdur. 300 səhifəlik hökmdə bir dənə söz yoxdur ki, hökumətə qarşı yaradılıb. MTN-nin dinləməsində belə aşkar olunmayıb. Qərara alıblar ki, artıq Qarabağa keçirik. O zaman MTN onları həbs edib. MTN 7 ay izləyib. Qanunsuz silahlı dəstə yaratmaqla səhv ediblər. Amma yeganə məqsədləri ermənilərdən qisas almaq olub.

***- Oğlunuzun belə addım atmağından peşmansınız?***

- Uşaq olub, bu dəstəyə qoşulanda. Bu cəhətdən peşmanam. Amma məhkəmədə evin tək övladı olduğu, atasının olmadığı nəzərə alınmadı. Yaş dövrünü belə düşünməyiblər. Qəddarcasına Məmmədə hökm oxunub. Yeganə ömürlük ona verdilər. Dəstənin başçısına 9 il, oğluma ömürlük cəza. Ədalət budur? Başqa ad vermək mümkün deyil. Gəlsinlər sübut eləsinlər. Görək bir nəfərin ölümünə görə ömürlük düşürmü? Dünya praktikasında belə bir şey görünməyib. Oğlumun elə bir əlavə cinayət işi də olmayıb. Görünür, burada başqa motivlər var. Bunu biz bilmirik. Ali Məhkəmədə hakim vəkil Əsabəli Mustafayevin heç bir iradına cavab verə bilmədi. Vəkil hər şeyi sadaladı. Prokuror çıxışında heç nə sübut etmədən, sadəcə qərarın qüvvədə saxlanılmasını bildirdi. Əllərindən nəsə olsaydı, deyərdilər. Ola bilsin ki, hakimiyyət bu gəncləri cəzalandırmaq üçün belə addım atıb. Başqalarının bu cəsarəti etməməsi üçün. Oğlum kifayət qədər cəzasını çəkib. Ömrünün ən gözəl 12 ilini orada keçirib. Artıq həbsdən çıxandan sonra belə addım atacağı mümkün deyil.

***- Özü həbsdən çıxarsa, hansı addımları atacağını deyir?***

- Bildirir ki, azad olunaramsa, üzüm Qarabağa tərəf olar. Hər an döyüşə getməyə hazır vəziyyətdə olacağını söyləyir. Qəlbi torpaq eşqi ilə alışıb yanır. Günahlarını boynuna alır. Peşmançılıq hissi yalnız mənə görə çəkir. Bilir ki, təkəm. Heç kimim yoxdur. Kiçik yaşlarından atası rəhmətə gedib. Onu əzab-əziyyətlə saxlamışam. Əfvlə bağlı ona görə müraciət etmir. Deyir ki, etsəm günahları boynuma alıram. Bu qədər cəzanı heç kəs üzərinə götürə bilməz. Övladımın islah olunduğunu hər kəs bilməlidir. Bu qədər cəza vermək artıq yetər. Dövlətimiz tərəfindən kifayət qədər qabaqlayıcı tədbirlər görülür. Gənc oğlumu orada çürütməyə dəyməz. Həqiqəti sevən gənci məhv etməyin nə mənası var? Məmməd bayırda olsa, daha çox xeyir verə bilər. İnsanları islah olunmaq üçün həbs edirlər. Bu qədər haqsızlıqlardan sonra oğlum yenə vətən deyir. İslah olunmaq deyilmi? Məsələnin bu tərəfi var. Bütün bunlar nəzərə alınmalıdır. Ana olaraq, əziyyətimi düşünün. Həbsxanaya gedib-gəlmək imkanlı ailə üçün belə çətindir. Evdə olanda rahat olursan. Cəza təkcə Məmmədə yox, mənə də verilib. İmkansız ailəyik. Bu zülmü Allah götürməz. Neçə ildir həbsxana yollarındayam. Yaşı keçir, evlənməlidir. İnsan kimi yaşamaq haqqı yoxmu? Fədakar xanım olsa, orada evləndirərəm.





**“Heç kimim yoxdur. Kiçik yaşlarında atası rəhmətə gedib. Tək övladımı əzab-əziyyətlə saxlamışam...”**

***- Təranə xanım, son sözünüz nədir?***

- Əfv Komissiyasında deputatlarımız var: Qənirə Paşayeva, Fəttah Heydərov, Azay Quliyev, Səməd Seyidov, Elmira Axundova və başqalarına müraciət edirəm ki, oğlumun məsələsinə bir valideyn kimi yanaşın. Əziyyətlərimə son qoyun. Bu günə qədər yanıb-yaxılıram. Əzab-əziyyətlə uşaq böyüt, sonu belə olsun. Qəzetiniz vasitəsilə, prezidentimizə müraciət edirəm. Ümid edirəm ki, tək övladımı mənə bağışlayarlar. Cənab prezident, sizdən dönə-dönə xahiş edirəm, bu əzabdan qurtarın məni. Artıq yaşamaq ümidim belə ölüb. Heç yaşamaq istəmirəm. Müraciətlərimə cavab verin. Onsuz da oğlumun cavan ömrü çürüdü. Mənə də imkan verin, kimin üçünsə yaşayım. Oğlum ömürlük cəzalı cinayət törətməyib.

Qeyd edək ki, Məmməd Məmmədova qarşı Cinayət Məcəlləsinin 120.2.3, 120.2.4, 120.2.10-cu (qəsdən adam öldürmə), 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.10-cu (qəsdən adam öldürməyə cəhd) maddələri üzrə ittiham irəli sürülüb. “Qarabağ partizanları”nın işini Milli Təhlükəsizlik Nazirliyi araşdırıb.

İstintaq materiallarına görə, “Qarabağ partizanları” xüsusi dəstə yaradıblar, silah əldə ediblər və döyüşmək üçün Qarabağa getmək istəyiblər, MTN isə onları həbs edib. Əməliyyatın keçirildiyi Xətai parkında atışma olub. Atışma zamanı bir nəfər ölüb, bir nəfər yaralanıb. Həmin şəxsləri tutublar.

Amma Məmməd Məmmədovun işinə ayrıca baxılıb. Çünki həmin qətldə onu günahlandırıblar. Sonradan dəstənin digər üzvlərinin üzərindən mütəşəkkil dəstə yaratmaq ittihamı götürülüb. Yalnız Məmməd Məmmədovun işində bu ittiham saxlanılıb.

“Qarabağ partizanları” kimi adı hallanan qrup Qarabağda ermənilərə qarşı “Partizan müharibəsi” aparmaq məqsədilə yaradılıb. Qrupun 22 nəfər üzvü olub. Dəstəyə Rövşən Bədəlov adlı gənc rəhbərlik edib.

“Qarabağ partizanları” qrupunun necə yaradılması məlum olmasa da, 2000-ci illərdən sonraya təsadüf etdiyi ehtimal edilir. Dəstə üzvləri 2001-ci ildə Gürcüstan ərazisində təlim keçiblər. 2003-cü ilin 13-14 avqustunda Qarabağa yollanmaq üçün sonuncu dəfə Xətai parkında toplaşıblar. Lakin bu zaman MTN əməkdaşları tərəfindən həbs ediliblər. Bu əməliyyat zamanı baş verən atışmada bir nəfər əməliyyatçı həlak olub, bir nəfər isə ağır yaralanıb.

Maraqlı məqam odur ki, indiyə qədər həbs olunan dəstə üzvlərinin hamısı azadlığa buraxılıb. Təkcə 20 yaşlı Məmməd Məmmədovdan başqa...

❑ **Cavanşir ABBASLI**



YENİ MÜSAVAT

Son səhifə

N 51 (6079) 7 mart 2015



# Dünyanın ən gözəl qadını

O, dünyanın ən gözəl qadınlarından biri hesab edilir. Bu gün yaşı 70-i haqlasa da hələ də gözəlliyi və zarafatı ilə heyran etməyə davam edir. Söhbət dünya kinosunun ulduzu olan Sofi Lorendən gedir. Uşaqlığı səfalət içində keçən Sofi gözəllik yarışmasına qatılmaqla həyatını dəyişib. 15 yaşında film çəkilişi zamanı tanış olduğu rejissor Karlo Pontiyə aşiq olur. O zamanlar İtaliyada qadağan olan boşanmaya görə, cütlük düz 7 il sonra evlənə bilir. İtaliyada boşanma qanuniləşən kimi həyat yoldaşından ayrılan Ponti gənc aktrisa ilə Meksikada evlənir. Sofi Loren və Karlo Ponti 50 il evli qalıblar. Evlilik rejissorun ölümünə kimi davam edib. Sofi həyat yoldaşını o qədər sevirdi ki, onun ölümündən sonra qəti şəkildə ailə qurmayacağını deyirdi. Ponti və Loren 1957-ci ildə ailə quranda bəy ona dünyanın ən gözəl evini vəd etmişdi. Ponti sözünün üzərində durur və 16-cı əsrdən qalma 50 otaqlı mülk alır. Malikanının sahəsi o qədər böyük idi orada hovuz, göl, xüsusi meşə belə var idi. 1964-cü ildə "LIFE" jurnalının fotoqrafı Lorenin qala kimi qorunan evinə girərək oradan fotolar çəkməyi bacarır. Evin dəbdəbəsi heç də kral sarayından geri qalmır.

# 36 min dollarlıq it damı

"Samsung Electronics" sevimli ev heyvanlarına "arzular evi"ni hazırlayıb. Əsl villanı xatırladan it damının dəyəri 30,6 min dollardır. Sözügedən it damının təqdimatı ənənəvi olaraq hər ilin mart ayında keçirilən "Crufts dog show"da baş tutacaq. İtlərin builki şousu 5-8 mart tarixlərində keçirilir. Dam açıq satışa çıxarılmayacaq, şirkətin sosial şəbəkələrdəki səhifələrində keçirilən müsabiqədə mükafat qismində veriləcək. "Samsung"un mütəxəssisləri it damını hazırlamaq üçün 6 həftə çalışıblar. Onlar itlər üçün ideal evi müəyyənləşdirmək üçün 1500 it sahibinin iştirak etdiyi araşdırma aparıblar. İt damı iki məkandan ibarətdir: istirahət və əyləncə. "Arzular evi"ndə, süni ot örtüyü, trenajor, hidromasaj vannası, qapı zəngi (it hürüşü) də var.



# Hər gün 65 kilometr yol gedir

Amerikanın İova ştatında yaşayan 61 yaşlı Steven Simoff hər gün 65 kilometr yol yeriyərək işə gedir. Bütün pulunu xəstə arvadının müalicəsi üçün xərcləyən adam işini itirməmək üçün əlindən gələni edir. Almaniyanın "n-24" xəbər kanalının xəbərinə görə, Simoff yaşadığı Davis Citydən iş yerinə hər gün saatlara yol yeriyərək gedir. S.Simoff həyat yoldaşının müalicə etdirə bilmək üçün şəhərdəki evini sataraq uzaq qəsəbələrdən birinə köçüb. O, maşını üçün benzin ala bilmədiyi və avtobusa pulu olmadığı üçün işə çatmaq üçün saatlara yol gedir. İşsiz olan nəvəsinə də maddi kömək etmək istəyən Simoff xəstəxana xərclərini də ödəməyə çalışır.

Məlumatlara görə, buna bənzər hadisə bir neçə il əvvəl də baş verib. Ceyms Robertson adlı kişi işə getmək üçün 30 kilometr yol gedirmiş. Robertsonun həyatı haqqında mediada yazılar dərc edildikdən sonra onun üçün pul yığılıb və özünə maşın ala bilib.





# Dünya belə cərimə görməmişdi

Finlandiyada yol polisinin kəsdiyi cərimə dünya rekordu sayıla bilər. Yoldakı sürət limitini 14 km/saat keçən, yol nişanının maksimal sürəti 50 km/saat göstərdiyi yerdə 64 km/saat sürətlə hərəkət edən sürücünü saxlayan polis onu cərimələyib. Cərimənin məbləği isə nə az, nə çox - düz 54 milyon avro olub. "European"a istinadən bildirir ki, iş adamı Reyma Kuisla cərimə kağızını görəndə şoka düşüb və məhkəməyə üz tutub. Amma məhkəmə polisi haqlı sayıb və asayiş keşikçilərinin qanun çərçivəsində davrandıqlarını bildirib. Çünki Finlandiyanın mövcud qanunvericiliyinə görə yol-hərəkət qaydalarını pozanlara tətbiq edilən cərimələr onların illik gəlirlərinin səviyyəsinə uyğun nizamlanır. Reyma Kuislanın da illik gəliri 6,8 milyon avro olduğundan, ona kəsilən cərimə çox böyükdür.




QOÇ - Əgər maddi vəziyyətiniz imkan vermirsə, uzaq yola çıxmaq planınızı təxirə salın. Yoxsa səfər boyu gərginlik sizdən əl çəkməyəcək. Şəxsi büdcənizin qayğısına qalmağa çalışın.

BUĞA - Ağıllı addımlarınız ətrafda hər şeyin xeyrinizə dəyişəcəyinə təkan verməkdədir. Bu isə gün ərzində fəaliyyətlə bağlı uğurlarınızın start götürməsinə imkan yaradacaq.

ƏKİZLƏR - Yaxşı olar ki, bütün vacib işlərinizi bu gün başa çatdırasınız. Ən azı ona görə ki, sonrakı günlərdə buna imkan tapmayacaqsınız. Özünüzü hər addımda bədxahlardan qorumağa çalışın.

XƏRÇƏNG - Astroloji göstəricilərə görə, qarşınızda anlaşılmaz bir gün dayanıb. Odur ki, bu tarixdə qeyri-ənənəvi işlərə aludə olmamalı, sabitliyinizi təmin etməlisiniz. Səhhətinizi qoruyun.

ŞİR - Naharaqədərki süstlüyünüzü nəzərə almasaq, qalan müddətdə işləriniz qaydasında gedəcək. İndi siz puldan daha çox münasibətləri tənzimləməyə səy göstərməlisiniz. Digər işlər düzələndir.

QIZ - Bu gün özünüzü olduqca ciddi aparmalısınız. Çünki istənilən xırda zarafat münaqişəyə səbəb ola bilər. İmkanlı adamlar vasitəsilə problemlərinizi aradan qaldırmağa çalışın.

TƏRƏZİ - Səhər saat 05:51-dən bürcünüzdə bərqərar olan Ay sizə ümumi gərginlik vəd edir. Bu isə hər addımda daha da ehtiyatlı davranmağınızı tələb edir. Yeni təkliflərə razılıq verməyin.

ƏQRƏB - Daxili gərginliyiniz günorta saatlarından etibarən aradan qalxmağa başlayacaq. Bu isə nəzərdə tutduğunuz planların icrasını sürətləndirəcək. Amma sözünüzün ağası olmağı da bacarın.

OXATAN - Ümumi ovqatınız yüksək olduğundan xırda gərginliklər gözünüzə görünməyəcək. Amma mistik düşüncələrə də qapılmaq olmaz. Başınızın üstündə yalnız Tanrı qüdrətini hiss edin.

OĞLAQ - Qarşınızda duran vəzifələrin öhdəsindən məsuliyyətlə gəlməyə çalışın. İndi nüfuzunuzu artırmaq üçün imkanlarınız genişdir. İşdən sonra yaxınlıqda yaşayan ünvanlara qonaq getmək olar.

SUTÖKƏN - Astroloji göstəricilər qismən gərgin gün yaşayacağınızı bəyan edir. Hər hansı mübahisəyə, riskli iş və sövdələşmələrə "yox" deməlisiniz. Xətakar insanlardan uzaq olun.

BALIQLAR - Bəxtinizə təzadlı gün çıxıb. Belə ki, nahara qədər qarşılaşacağınız uğurlar sonrakı müddətdə tamamilə əks istiqamətə yönələ bilər. Odur ki, yalnız günün birinci yarısında aktiv olmalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# E-narkotik düzəltdilər

Hollandiya şirkəti narkotikə yaxın dadı və qoxusu olan elektrik narkotik hazırlayıb. "E-njoint" adı verilən narkotikin əzələləri yumşaltdığı, istifadəçisini rahatlaşdırdığı deyilir. Elektrikli narkotikin yaradıcısı e-siqaretin yaradıcısından ilham alaraq belə bir addım atdığını deyib. Şirkət təbii narkotikdən asılılığı azaltmaq üçün elektrikli narkotik hazırlayıb. "E-njoint"in hazırlanması üçün Avropa və Amerikadakı laboratoriyalarda bir çox işlər görülüb. Şirkətdən verilən məlumatlara görə, elektrikli narkotikin içərisində əhvalı yaxşılaşdıran xüsusi maddə var. Mütəxəssislər elektrikli narkotikin təbii maddələrdən hazırlandığını və insan orqanizminə heç bir zərər verməyəcəyini deyirlər. Yeni elektrikli narkotik yaxın günlərdə satışa çıxarılacaq.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.300